RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 107 (9274) 23 MAY 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan-Litva strateji tərəfdaşlığına güclü təkan



**◆ Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri**

## Vilnüs Beynəlxalq Aeroportunda qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Litva Respublikasına rəsmi səfər edib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Vilnüs Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Litvanın ətraf mühit naziri Simonas Gentvilas və digər rəsmi şəxslər qarşıladılar.

## Rəsmi qarşılanma mərasimi



→ 2

## Məhdud tərkibdə görüş



→ 2

## Azərbaycan-Litva sənədləri imzalanıb



→ 3

## Geniş tərkibdə görüş



→ 2

## Prezidentlərin mətbuata bəyanatları



→ 3

## Azərbaycan-Litva biznes-forumu



→ 4

*Mehriban xanım Əliyeva Litvadan paylaşım edib:*

## "Səmimi qəbula və qonaqpərvərliyə görə çox sağ olun!"



**Birinci xanım Mehriban Əliyeva mayın 22-də Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri ilə bağlı instaqram hesabında paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, Mehriban xanım Əliyeva paylaşımında qeyd edib: "Litva. Səmimi qəbula və qonaqpərvərliyə görə çox sağ olun!".

## Litvanın Baş naziri ilə görüş



→ 4

## Birinci xanımların görüşü



→ 5

## Litva Milli Kitabxanası ilə tanışlıq



→ 5

## Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri

# Azərbaycan-Litva strateji

## Rəsmi qarşılanma mərasimi





Mayın 22-də Vilnüsdəki Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Litva Respublikasının Prezidenti Gitanas Nauseda və xanımı Diana Nausediene qarşıladılar. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi. Azərbaycanın və Litvanın Dövlət himnləri səsləndirildi. Azərbaycan Prezidenti İlham Əliyev və Litva Prezidenti Gitanas Nauseda fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Litva nümayəndə heyəti Azərbaycan Prezidentinə və birinci xanım Mehriban Əliyevaya, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Litva Prezidentinə və xanımı Diana Nausedieneyə təqdim olundular.

Sonra birgə foto çəkdirildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xatirə kitabını imzaladılar.





## Məhdud tərkibdə görüş



Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə məhdud tərkibdə görüşü keçirilib.

## Geniş tərkibdə görüş

**Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə Litva Prezidenti Azərbaycanın xüsusilə son on ildə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirdi.

Söhbət zamanı dövlət başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyəti vurğulandı. Bu xüsusda Litva Prezidentinin Azərbaycana səfəri və həmin səfər çərçivəsində keçirilmiş görüşlərin önəmi qeyd edildi.

Görüşdə ikitərəfli məsələlər müzakirə olundu, iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinin, ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyi vurğulandı. Bu xüsusda informasiya texnologiyaları, kibertəhlükəsizlik, bərpaolunan enerji, investisiyalar, nəqliyyat kimi sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi. Litvada keçiriləcək biznes-forumun əhəmiyyəti və biznes dairələri arasında birbaşa təmasların qurulmasının vacibliyi qeyd olundu.

Söhbət zamanı nəqliyyat məsələləri, o cümlədən Xəzər dənizi ilə Baltik dənizinin birləşdirilməsinə dair layihələr barəsində müzakirələr aparıldı. Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına Litvanın dəstəyi yüksək qiymətləndirildi. Avropa İttifaqı ilə Azərbaycan arasında "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində həyata keçirilən tvininq layihələrində Litvanın fəal rol oynadığı xüsusi qeyd edildi. Həmçinin bu gün imzalanmış üç sənədin əhəmiyyəti vurğulandı.



Söhbət zamanı ekoloji təhlükələr haqqında ilkin xəbərdarlıq sisteminin qurulması və tullantıların idarəolunması sahəsində Litva təcrübəsinin Azərbaycanla bölüşdürülməsinin önəmi diqqətə çatdırıldı.

Həmçinin bu gün ölkələrimiz arasında imzalanmış gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında sazişin əhəmiyyəti qeyd olundu, 200-dən çox azərbaycanlı tələbənin Litvada təhsil alması və ölkələrimizin təhsil müəssisələri arasında birgə əməkdaşlığın mövcud olması müsbət amil kimi qiymətləndirildi, bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olundu.

Görüşdə eyni zamanda prokurorluq sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı, hər iki ölkənin aidiyyəti prokurorluq orqanları arasında sənədlərin imzalanmasının vacibliyi vurğulandı.

Eyni zamanda Litvadakı Azərbaycan icmasının ölkənin inkişafına töhfə verdiyi, onların bu ölkənin sadiq vətəndaşları olduqları diqqətə çatdırıldı.

Görüşdə ikitərəfli əlaqələr, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması məsələləri barədə də fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev litvalı həmkarına Ermənistan ilə Azərbaycan arasında danışıqların aparılması və Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasına dair ölkəmizin baxışları haqqında məlumat verdi.

## Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri

# tərəfdaşlığına güclü təkan

## Azərbaycan-Litva sənədləri imzalanıb





**Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Gitanas Nausedanın iştirakı ilə Azərbaycan-Litva sənədlərinin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Litva Respublikasının Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Litva Respublikasının ətraf mühit naziri Simonas Gentvilas imzaladılar. "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov və Litva Respublikasının sosial təhlükəsizlik və əmək naziri xanım Monika Navitskiene imzaladılar.

"Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Litva Respublikasının Baş Prokurorluğu arasında 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı"nı Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev və Litva Respublikasının baş prokuroru xanım Nida Qrunskiene imzaladılar.

# Prezidentlərin mətbuata bəyanatları

**Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nauseda mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Litva Prezidenti bəyanatla çıxış etdi.**



## President Gitanas Nausedanın bəyanatı

- Zati-aliləri cənab Prezident.

Əziz qonaqlar.

Mən bu gün - Litvanın paytaxtı Vilnüsdə Sizi salamlayıram. Bir il bundan əvvəl Azərbaycana səfərim çərçivəsində biz əhəmiyyətli müzakirələrə start verdik, ikitərəfli əməkdaşlıq baxımından, həmçinin iqtisadiyyat və təhsil sahələrində də əlaqələrimizi gücləndirmək qərarına gəldik. Əminəm ki, bu səfər Azərbaycan ilə Litva arasında əməkdaşlıq münasibətlərinə yeni müsbət dinamika əlavə edəcək.

Bu gün cənab Prezident Əliyev ilə mən ikinci Litva-Azərbaycan biznes-forumunun açılışını edəcəyik. Əminəm ki, bu platformada iqtisadi sahədə yeni imkanlar yaranacaqdır. Eyni zamanda bu gün ətraf mühit, gənclər və hüquq-mühafizə sahələrində də Litva ilə Azərbaycan arasında əməkdaşlıq haqqında sazişlər imzalandı. Bu bizim ikitərəfli münasibətlərimizin inkişafına mühüm təkan verəcəkdir.

Litva 2006-cı ildən etibarən beynəlxalq inkişafa dair layihələrdə Azərbaycan ilə bir yerdə iştirak edir. Azərbaycan Litvanın Avropa İttifaqının tvininq proqramı çərçivəsində tərəfdaşıdır. Həmçinin Azərbaycan "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində də həyata keçirilən layihələrin sayına görə Litvanın əsas tərəfdaşıdır.

Litva Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq əlaqələrinin inkişafının tərəfdarıdır. Biz "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində də strateji tərəfdaşlığımızın inkişafı üçün yeni imkanlar axtarmalıyıq. Biz Avropa İttifaqının Azərbaycan ilə enerji sahəsində əməkdaşlığını müsbət qiymətləndiririk. Bu əməkdaşlıq Avropa İttifaqının enerji bazarına müsbət təsir göstərmiş, həmçinin Avropa İttifaqının qış ayları üçün təchizatını təmin etmişdir.

Rusiyanın hazırda Ukraynada apardığı qəddar müharibə əməkdaşlığımıza yeni məzmun qatıb. Biz Rusiyanın sanksiyalardan yayınmaması üçün bir yerdə çalışmalı və Ukraynanı qələbəsinə qədər dəstəkləməliyik.

Litva Azərbaycan ilə Ermənistan arasında münaqişənin diplomatik yolla dinc, dayanıqlı və əhatəli həllinin tərəfdarıdır. Litva Avropa İttifaqı və trans-Atlantik müttəfiqlərimizin bu istiqamətdə səylərini güclü şəkildə dəstəkləyir.

Zati-aliləri, əminəm ki, ölkələrimiz və xalqlarımız arasında dostluq bağları bizi gələcək illər üçün də birləşdirəcəkdir. Təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra dövlətimizin başçısı mətbuata bəyanatla çıxış etdi.



## Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

Cənab Prezident, ilk növbədə dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam.

Bu gün biz geniş fikir mübadiləsi əsnasında bir çox önəmli məsələləri müzakirə etdik, bir daha bizim strateji tərəfdaşlığımızı təsdiqlədik. Keçən il Prezident Nauseda Azərbaycanda rəsmi səfərdə idi, bu il isə mən Litvada rəsmi səfərdəyəm. Biz bu ilin əvvəlində Davosda da görüşmüşdük. Yəni bu özlüyündə onu göstərir ki, aramızda çox fəal siyasi dialoq aparılır və bu dialoq konkret nəticələrlə də tamamlanır. Siyasi müstəvidə əldə edilmiş razılaşmalar təbii ki, bütün digər sahələrə də öz müsbət təsirini göstərir. Biz çox ümid edirik ki, gələcək illərdə iqtisadiyyat, ticarət sahələrində də siyasi səviyyədə olduğu kimi işlər sürətlə gedəcək. Əminəm ki, bu gün keçiriləcək biznes-forum bu istiqamətdə atılan önəmli addım olacaqdır.

Biznes qurumlarının birgə fəaliyyəti əminəm ki, ticarət dövriyyəsinin artırılmasına da gətirib çıxaracaq. Onu da bildirməliyəm ki, hər iki tərəfdən çox böyük maraq var və keçən ilin may ayında Prezident Nausedanın Azərbaycana rəsmi səfəri çərçivəsində Bakıda da Litva-Azərbaycan biznes-forumu keçirilmişdir.

Bu gün biz regional məsələlərlə də bağlı geniş fikir mübadiləsi apardıq. Litva Prezidentini Azərbaycan-Ermənistan sülh danışıqları haqqında məlumatlandırdım. Biz ümid edirik ki, sülh danışıqlarının aparılması nəticə etibarilə Qafqaza uzunmüddətli sülh gətirəcək. Baxmayaraq ki, Azərbaycan torpaqları uzun illər ərzində - 30 ilə yaxın Ermənistanın işğalı altında idi. Bir milyon azərbaycanlı bu işğal nəticəsində öz doğma torpaqlarından didərgin düşmüşdü, ərazilərimizin təxminən 20 faizi işğal altında idi. İşğal edilmiş ərazilərdə, demək olar ki, bütün infrastruktur, binalar, o cümlədən tarixi abidələr işğalçılar tərəfindən dağıdılıb. Biz hesab edirik ki, sülh anlaşmasının imzalanması qaçılmazdır və çalışırıq ki, öz tərəfimizdən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərək. Təbii ki, bu sülh anlaşması beynəlxalq norma və prinsipləri əhatə etməlidir.

Bizim Litva ilə ikitərəfli əməkdaşlıq çərçivəsində, eyni zamanda Avropa İttifaqı-Azərbaycan əlaqələri də önəmli rol oynayır və Litvaya bu əlaqələrin inkişafı üçün göstərdiyi səylərə görə təşəkkürümüzü bildiririk. Prezident Nauseda Azərbaycana səfər edəndən iki ay sonra Avropa Komissiyası ilə Azərbaycan arasında Bakıda enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır və bu memorandum uğurla icra edilir. Azərbaycan təbii qazının Avropa bazarlarına nəql edilməsi ilə bağlı çox ciddi addımlar atılır. Nəql edilən, yəni ixrac edilən qazın həcmi ildən-ilə artır və artacaq.  Biz bu gün eyni zamanda Litvada və Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması ilə də bağlı fikir mübadiləsi apardıq. Biz gördük ki, bu istiqamətdə də demək olar, paralel şəkildə gedirik. Həm Litvada, həm Azərbaycanda bu sahəyə çox böyük diqqət göstərilir və hesab edirəm ki, yaxın gələcəkdə bu sahədə də ikitərəfli əməkdaşlıq mümkün olacaq.

Təbii ki, ölkələrimizi birləşdirən və ümumiyyətlə, qitələri birləşdirən Avrasiya qitəsində daha da rahat nəqliyyat-kommunikasiya imkanlarını yaratmaq üçün ölkələrimizin payına böyük vəzifələr düşür. Biz razılaşdıq ki, müvafiq qurumlar bu məsələ ilə bağlı ciddi məşğul olacaqlar. Çünki dünyada hökm sürən yeni geosiyasi reallıq bunu diktə edir.

Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcmi ildən-ilə artır və artacaq. Müasir infrastrukturumuz buna imkan yaradır. Xəzər dənizini, Cənubi Qafqazı Baltik dənizi ölkələri ilə birləşdirən nəqliyyat marşrutları da bəllidir. Sadəcə olaraq, biz birgə səylərlə həmin birləşmə layihələrini həyata keçirərək bu sahədə də uğurlu əməkdaşlığa nail olacağıq.

Bütövlükdə deyə bilərəm ki, bu gün müzakirə olunan məsələlərin önəmi bir daha onu göstərir ki, Litva və Azərbaycan strateji tərəfdaşlar kimi uğurla bir-biri ilə əməkdaşlıq edirlər. Əminəm ki, bu səfərdən sonra bu əməkdaşlığa növbəti güclü təkan veriləcəkdir.

Dəvətə və qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri

# Azərbaycan-Litva strateji

## İlham Əliyevin və Mehriban Əliyevanın şərəfinə rəsmi lanç

Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə Litva Respublikasının Prezidenti Gitanas Nauseda və xanımı Diana Nausediene tərəfindən rəsmi lanç verilib.

## Litvanın Baş naziri ilə görüş



**Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Baş naziri xanım İnqrida Şimonite ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə birgə foto çəkdirildi.

Görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Baş nazir Litvanın Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində həyata keçirilən tvininq layihələrində fəal rol oynadığını xüsusi qeyd etdi, ölkəsinin bundan sonra da bu sahədə əməkdaşlığa hazır olduğunu bildirdi.

Ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsinin aparıldığı görüşdə bu sahədə böyük potensialın olduğu vurğulandı. Xüsusilə investisiyalar, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh danışıqları prosesi haqqında məlumat verdi. Qeyd etdi ki, Azərbaycan tərəfindən sülh müqaviləsinin imzalanması üzrə beş prinsip təqdim olunub. Həmçinin Azərbaycan bir-birinin ərazi bütövlüyünün və suverenliyinin tanınması prinsipləri əsasında sülh müqaviləsinin imzalanmasına hazır olduğunu dəfələrlə ifadə edib.

Söhbət əsnasında Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəstəyi ilə həyata keçirilən Brüssel sülh prosesinin əhəmiyyəti vurğulandı. Litvanın Baş naziri ölkəsinin Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təmin olunmasını dəstəklədiyini qeyd etdi. O, nəqliyyat dəhlizlərinin açılması məsələsində Litvanın ərazisindən keçən və Rusiya ilə Kalininqradı birləşdirən tranzit dəhlizi layihəsi üzrə öz təcrübəsini bölüşməyə hazır olduğunu bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

## Litvanın müstəqilliyi uğrunda mübarizədə həlak olanların xatirəsinə ucaldılan abidəni ziyarət





Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vilnüsdə Litva Respublikasının müstəqilliyi uğrunda mübarizədə həlak olanların xatirəsinə ucaldılan abidəni ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının şərəfinə burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

## Azərbaycan-Litva biznes-forumu

**Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Gitanas Nausedanın iştirakı ilə Azərbaycan-Litva biznes-forumu keçirilib. AZƏRTAC xəbər verir ki, dövlət başçıları biznes-forumda çıxış ediblər.**



### Prezident Gitanas Nausedanın çıxışı

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti.

Hörmətli nazirlər, biznes ictimaiyyətinin nümayəndələri, möhtərəm qonaqlar, xanımlar və cənablar.

Mən litvalı həmkarların da iştirakı ilə Azərbaycandan olan çox sayda iş adamını Vilnüsdə salamlamaqdan məmnunam. Ümidvaram ki, bugünkü müzakirələr ölkələrimizə mövcud əlaqələri dərinləşdirməyə və yeni tərəfdaşlıqları inkişaf etdirməyə kömək edəcək.

Bu il Litva və Vilnüs 700 illiyini qeyd edir. Paytaxtımızın mövcudluğunun ilk günləri Litva hökmdarı Gediminas xarici liderlərə, tacirlərə, müxtəlif sosial təbəqələrdən və dindən olan sənətkarlara dəvət məktubları göndərməsi ilə yadda qalmışdır. O vaxtdan bu yana Litva başqaları ilə birgə fəaliyyət göstərmək, yeni ideyalar əldə etmək və inkişaf etmək üçün ambisiyalı yolla gedir.

Azərbaycan xalqının ulu əcdadları da bu hekayənin bir parçası olaraq hələ XV əsrdə Litva elçilərini qəbul ediblər. Bu gün biz ikitərəfli əlaqələrimizin sağlam vəziyyətinə arxalana bilərik. Azərbaycan Litvanın mühüm tərəfdaşıdır və biz qarşılıqlı faydalı imkanların axtarılmasında maraqlıyıq. Biz Azərbaycanı nəhəng enerji potensialına malik və şaxələndirməyə can atan inkişaf edən iqtisadi güc kimi görürük. Azərbaycan iqtisadiyyatının informasiya texnologiyaları, logistika, istehsal, qabaqcıl ərzaq sənayesi, bərpaolunan enerji kimi müxtəlif sahələri litvalı iş adamlarını cəlb edir. Biz bu qədər məsələləri müzakirə edə bilərik. Keçmişdə Litva özünü yeni şəraitə asanlıqla adaptasiya olmaq və ondan öz xeyrinə istifadə etmək bacarığını sübuta yetirib. Biz güclü sənaye ənənəsinə və intellektual işçi qüvvəsinə arxalanırıq. Bizim rəqəmsal infrastrukturumuz sürətli və əlçatandır, bütün Avropa İttifaqında ən yaxşılarından biridir.

2020-ci ildə qlobal tənəzzül zamanı Litva ümumi daxili məhsulun mənfi dəyişməsinə imkan vermədi. Bu uğurlu antitsiklik iqtisadi siyasət təcrübəsi yeni qlobal təlatümlərin öhdəsindən gəlmə prosesində istifadə edəcəyimiz mühüm təcrübə olmuşdur. Hazırda biz "yaşıl" texnologiyaların sənaye istehsalatını dəstəkləmək üçün Avropa İttifaqının planlarını nəzərdən keçiririk. Yeni imkanlar inqilabi və sıfır tullantılı istehsalatla təmin olunacaq. Bu, Litva iqtisadiyyatına fayda verəcək. Xalis sıfır tullantılı iqtisadiyyatların inkişafı həmçinin Litva və Azərbaycan iqtisadiyyatlarını bir-birinə daha da yaxınlaşdıra bilər. Bizim bugünkü özgüvənimiz son on il ərzində möhtəşəm enerji keçidi prosesi ilə dəstəklənmişdir. Bu, Litvaya Rusiyadan enerjinin, o cümlədən neft, elektrik enerjisi və təbii qazın təchizatını tamamilə dayandıran ilk Avropa ölkəsi olmağa imkan verdi. Hazırda iqtisadi model yanaşmasında fiksə edilmiş aşağı qiymətli enerji həm qurudakı, həm də dənizdəki bərpaolunan enerji mənbələrindən generasiya olunur. Bu, bizim istehsal və xidmət sektorlarımızın rəqabət qabiliyyətini əhəmiyyətli şəkildə gücləndirəcək. Azərbaycan sahibkarları bundan faydalanmaq üçün bu prosesə qoşula bilərlər.

Məmnuniyyətlə qeyd edirəm ki, birinci iqtisadi toplantı ötən il Bakıda keçirildi. Orada mənə Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti ilə biznes-forumunun açılışını etmək şərəfi nəsib oldu. Bu gün mən, həqiqətən də, inanıram ki, ölkələrimiz təkcə iqtisadi cəhətdən yox, eyni zamanda elm, təhsil və mədəniyyət sahələrində də bir-biri ilə əlaqələr qurmalıdırlar. Yol genişdir və bizim qarşımızdadır. Qoy, bu biznes-forumu düzgün istiqamətdə atılmış əlavə addım olsun.

Mən bu biznes-forumunu təşkil etdiklərinə görə Litvanın Litfood Agentliyinə, İnnovasiya Agentliyinə, Sənayeçilər Konfederasiyasına və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu - AZPROMO-ya və iştirak edən bütün digər təşkilatlara xüsusi təşəkkürümü ifadə etmək istəyirəm. Hamınıza maraqlı və faydalı müzakirələr arzulayıram. Təşəkkür edirəm.

❖ ❖ ❖

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Prezident Nauseda.

Hörmətli xanımlar və cənablar.

Əvvəlcə mən bir daha cənab Prezidentə göstərilmiş qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Gözəl ölkənizə yenidən gəlməyimə, ikitərəfli və regional məsələlərə, o cümlədən iqtisadi gündəliyə dair cənab Prezidentlə geniş fikir mübadiləsi aparmaqdan çox şadam. Bir il ərzində ölkə rəhbərlərinin ikinci dəfə biznes-forumda çıxış etməsi faktı ölkələrimizin biznes subyektləri və sahibkarları arasında təmaslara böyük əhəmiyyət verdiyimizin təzahürüdür.

Hesab edirəm ki, Prezident Nauseda ilə əməkdaşlığımız üçün çox güclü bünövrə qoymuşuq, çox fəal siyasi dialoq qurmuşuq. Artıq söylədiyim kimi, biz ötən ilin mayında Bakıda görüşmüşdük. Sonra bu ilin yanvarında Davosda görüş keçirdik. İndi isə Vilnüsdə görüşürük. Bu, həqiqətən, əməkdaşlığımızın dinamik xarakterini göstərir. İndi isə biznes icmaları üçün qarşılıqlı surətdə faydalı və məhsuldar əməkdaşlığı ehtiva edən uzun perspektivli plan üçün vaxt yetişib.

İki həftə öncə burada, Vilnüsdə Litva-Azərbaycan hökumətlərarası komissiyası iqtisadi gündəliyimizdə duran mühüm məsələləri müzakirə etmək məqsədilə öz iclasını keçirdi. Hesab edirəm ki, birgə iqtisadi komissiyanın oynadığı rol biznes dairələrinin səylərini əlaqələndirməkdən, potensial əməkdaşlıq üçün mühüm imkanları dəyərləndirməkdən və tərəfdaşlıq üçün çərçivənin yaradılmasından ibarətdir.

Bu baxımdan planlarımız barədə məlumat mübadiləsi çox əhəmiyyətlidir. Əminəm ki, bu gün keçirilən biznes-forumda ölkələrimizdə icrası planlaşdırılan layihələrin növləri, o cümlədən işgüzar dairələrin onlarda iştirakı yolları barədə bir çox müzakirələr olacaq. Bu gün biz cənab Prezidentlə əməkdaşlıq üçün potensial sahələri geniş şəkildə müzakirə etdik. Prezident onları artıq qeyd etdi. Fikrimcə, potensial, həqiqətən, var. Biz bərpaolunan enerji sahəsinə yatırımlar baxımından eyni istiqamətdə gedirik. Hər iki ölkədə - Baltik və Xəzər dənizlərində çox böyük külək enerjisi potensialı var. Hər iki ölkə bu məsələni gündəliyə daxil edib. Bizə gəldikdə, bizdə enerji təhlükəsizliyi mövcuddur. Lakin, bununla belə, biz ixrac məqsədləri üçün daha çox təbii qaza qənaət etmək və elektrik enerjisinin istehsalı üçün təbiətimizin günəş və külək enerjilərindən istifadə etmək istərdik. Xüsusən də nəzərə alsaq ki, ötən ilin iyulunda Avropa Komissiyası və Azərbaycan Enerji sahəsində Strateji Tərəfdaşlıqla bağlı Anlaşma Memorandumunu imzaladılar. Biz onun əsasında 2027-ci ilə qədər Avropaya təbii qaz təchizatımızı iki dəfə artırmağı planlaşdırırıq. 2021-ci ildə Avropaya təbii qaz təchizatımız 8 milyard kubmetr olmuşdur, bu il isə 12 milyard kubmetr olacaq və 2027-ci ilə qədər 20 milyard kubmetrə çatdırılacaq. Fikrimcə, bu, minimal həddi təşkil edir, çünki potensial çoxdur. Biz mövcud yataqlardan daha çox qaz hasil edirik. Bu yaxınlarda Xəzərdə ən iri yataqlardan birində hasilatın başlanmasını elan edəcəyik. Həmçinin bərpaolunan enerji mənbələrinə qoyulan sərmayələr təbii qaza ixrac məqsədləri üçün qənaət etmək imkanını yaradacaq.

Buna görə Avropanın etibarlı təchizatçısı kimi Azərbaycan bu gün nefti, təbii qazı və elektrik enerjisini ixrac edir. Biz hidrogeni, o cümlədən "yaşıl" hidrogeni ixrac etməyi planlaşdırırıq. Bütün bunlar bizim Avropa İttifaqı ilə əməkdaşlığımızın strateji çərçivəsinin bir hissəsidir. Biz Azərbaycanın və Avropa Komissiyasının daha yaxın olmaq səylərinə verdikləri daimi dəstəyə görə litvalı dostlarımıza və tərəfdaşlarımıza minnətdarıq.

Düşünürəm ki, işgüzar dairələrin nəzərə alacağı digər mühüm sahə logistika, şəbəkələr və daşımalarda olan böyük potensiala aiddir. Biz daşımalar sektorunu yalnız tranzit gəlirləri baxımından yox, o cümlədən kiçik və orta müəssisələr üçün marşrut boyunca istehsal qurmaq, biznes təmasları yaratmaq, xidmət göstərmək fürsəti kimi görürük.

Bu gün Litva və Azərbaycan öz regionlarında mühüm daşımalar qovşağıdır. Beləliklə, biz Xəzər və Baltik regionları arasında şəbəkə qurmalıyıq və bu mümkündür. Çünki biz Avropanın enerji xəritəsinə nəzər salsaq, o, əsasən, Azərbaycanın təşəbbüsləri sayəsində kəskin şəkildə dəyişib. Neft və qaz boru kəmərləri tamamilə yeni vəziyyət yaradır. Eyni sözləri daşımalara da aid etmək olar. Biz qonşularımız və tərəfdaşlarımızla yeni bağlantılar yaratmışıq. Biz Bakının dəniz limanı infrastrukturuna böyük yatırımlar edirik. Xəzərdə daha çox yük daşıya biləcək əlavə gəmilərin tikintisinə investisiyalar qoyuruq. Buna görə hesab edirəm ki, biznes dairələrə bu fürsəti dəyərləndirmək üçün münasib vaxtdır. Yubanmaq lazım deyil, çünki birmənalı olaraq çox böyük daşımalar imkanları, xüsusən də hazırkı geosiyasi vəziyyətdə əlavə dəyər gətirəcək.

Həmçinin litvalı dostlarımıza məlumat vermək istərdim ki, Azərbaycan iqtisadiyyatı sabitdir, münbit investisiya şəraiti var və o, təbii sərvətlərə əsaslanır. Lakin hazırda eyni zamanda əsas hədəf şaxələndirmədir. Düşünürəm ki, biz iqtisadiyyatımızı xeyli şaxələndirə biləcəyik və enerji sektorundan asılılığı azaldacağıq. Baxmayaraq, enerji sektoru enerji təhlükəsizliyimizdə və Avropanın enerji təhlükəsizliyində öz mühüm rolunu oynamağı davam etdirəcək.

İqtisadi göstəricilərimiz müəyyən statistik məlumatlarda əks olunub. Litva şirkətlərini Azərbaycana daha çox cəlb etmək üçün demək istəyirəm ki, bizim xarici borcumuz çox aşağıdır, ümumi daxili məhsulun 10 faizindən də azdır. Milli valyutamız sabitdir. Əminəm ki, sabit qalacaq, çünki xarici ticarət balansında artıqlıq yaranıb. Bu, kifayət qədər böyük həcmdir. Dövlət Neft Fondumuzda topladığımız valyuta ehtiyatlarımız və Mərkəzi Bankın ehtiyatları xarici borcu on dəfədən çox üstələyir. Beləliklə, iqtisadiyyatımızın sabitliyi regional iqtisadi əməkdaşlıq və sərmayə mühiti üçün mühüm amildir, çünki münbit investisiya mühiti təkcə yaxşı qanunvericiliyin yazılması ilə şərtlənmir. Bu, kifayət deyil. Yaxşı biznes imkanlarının, çox dinamik yerli bazarın və qonşu bazarlara çıxışın olması vacibdir. Buna görə Azərbaycan bazarı genişlənir, əhali artır. Mərkəzi Asiya bazarlarına çıxış təmin edilir. Həmçinin ölkənizin yerləşdiyi regionla güclü bağlantıların qurulması birmənalı olaraq əlavə imkanlar yaradacaq.

Bir sözlə, əminəm ki, bu görüş yaxşı nəticələr verəcək. Artıq qeyd edildiyi kimi, bu gün bir sıra sənədlər imzalandı. Ümid edirik ki, onların hamısı yaxşı nəticələr verəcək və bu cür toplantıların səmərəliliyini nümayiş etdirəcək. Həmçinin bu fürsətdən istifadə edərək mən Litvanın biznes icmasından olan dostlarımızı Azərbaycana səfərə və dialoqu davam etdirməyə dəvət edirəm.

Çox sağ olun.

❖ ❖ ❖

Litvanın iqtisadiyyat və innovasiyalar naziri xanım **Auşrine Armonaite** biznes-forumda çıxış edərək Azərbaycanın Cənubi Qafqaz regionunda Litvanın önəmli tərəfdaşı olduğunu qeyd etdi. Nazir Litvanın iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi. İki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsinin çoxşaxəli olduğunu qeyd edən Auşrine Armonaite Litvanın birbaşa qarşılıqlı xarici investisiyaların stimullaşdırılmasında maraqlı olduğunu vurğuladı. Ölkələrimiz arasında əməkdaşlıq layihələrinin genişləndirilməsində çoxlu imkanların mövcud olduğunu qeyd edən litvalı nazir Azərbaycanla ən yaxşı təcrübə, ekspert biliyi və uğur hekayələri ilə bölüşməkdə maraqlı olduqlarını dedi.

Azərbaycanın iqtisadiyyat naziri **Mikayıl Cabbarov** iki ölkə arasında investisiyaların qorunması və ikili vergiqoymaya yol verilməməsi mexanizminin mövcud olduğunu bildirdi, bunun investorların fəaliyyətinə töhfə verdiyini qeyd etdi. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi hədəfindən danışan Mikayıl Cabbarov ötən dörd ildə ölkəmizin qeyri-neft-qaz ixracının iki dəfə artdığını dedi. Alternativ enerji mənbələrindən danışan nazir bu enerji mənbələrinə keçidin Azərbaycanın iqtisadiyyatına əhəmiyyətli və müsbət təsir etdiyini vurğuladı.

❖ ❖ ❖

Biznes-forumda hər iki ölkədən iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən ümumilikdə 80-dək şirkət təmsil olunub.

## Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri

# tərəfdaşlığına güclü təkan

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vilnüs Qədim şəhərini gəziblər











**Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vilnüs Qədim şəhərini gəziblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma Vilnüs Qədim şəhərinin tarixi haqqında məlumat verildi.

Bildirildi ki, Vilnüs Qədim şəhərinin arxitekturasında keçmişin və gələcəyin vəhdəti hiss olunur. Şimali Avropanın Orta əsrə aid ən böyük şəhərlərindən sayılan Vilnüsün Qədim şəhər hissəsinin sahəsi təqribən 3,6 kvadratkilometrdir. Burada Avropanın ən qədim qotik, intibah, barokko və neoklassik memarlıq üslublarında inşa olunmuş binalar bir-birini tamamlayır. Ən mükəmməl memarlıq komplekslərindən biri Qədim şəhərin böyük bir hissəsini tutan və 13 həyəti olan Vilnüs Universiteti Memarlıq Ansamblıdır.

Qeyd olundu ki, Vilnüs Qədim şəhərinin universal dəyəri və orijinallığı nəzərə alınaraq 1994-cü ildə UNESCO-nun Ümumdünya irsi siyahısına daxil edilib. Litvanın paytaxtına gələn qonaqlar mütləq Qədim şəhərlə tanış olurlar. Çünki Vilnüsün digər yerləri ilə müqayisədə Qədim şəhərdə diqqəti cəlb edən memarlıq abidələri daha çoxdur.

## Birinci xanımların görüşü



Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Litva Respublikasının birinci xanımı Diana Nausediene ilə görüşü olub.

## Litva Milli Kitabxanası ilə tanışlıq

**Mayın 22-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Litva Respublikasının birinci xanımı Diana Nausediene Martyunas Mazvyudas adına Litva Milli Kitabxanası ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, birinci xanım Mehriban Əliyevaya kitabxananın fəaliyyəti barədə məlumat verildi.

Bildirildi ki, əsası 1919-cu ildə Mərkəzi Dövlət Kitabxanası kimi Kaunasda qoyulan bu elm mərkəzi Litvanın əsas elmi-kütləvi mədəniyyət müəssisəsidir. Sonradan adı bir neçə dəfə dəyişdirilən və 1963-cü ildə paytaxt Vilnüsə köçürülən kitabxana 1988-ci ildən Martyunas Mazvyudasın adını daşıyır. 1989-cu ildə ona Milli Kitabxana statusu verilib. Kitabxana 1993-cü ildən ölkənin mədəni irs reyestrinə daxil edilib. Bu həmçinin Baltikyanı ölkələrdə inşa olunan ilk kitabxana binasıdır.

Kitabxananın əsas fəaliyyət istiqamətləri Litva xalqının yazılı mədəni irsinin toplanması, gələcək nəsillər üçün qorunub saxlanılması və ictimaiyyətə təqdim edilməsinə kömək göstərilməsidir. Kitabxananın fondunda 7 milyona yaxın (1,8 milyon adda) çap məhsulları və digər sənədlər saxlanılır.

Qeyd olundu ki, ixtisaslaşdırılmış yeddi oxu zalının, həmçinin üç tədqiqat mərkəzinin fəaliyyət göstərdiyi kitabxanada milli arxiv sənədləri, nadir kitablar və əlyazmalar, musiqi və vizual incəsənət kolleksiyaları, həmçinin şəxsi kolleksiyalar və sair mövcuddur.

Kitabxana müxtəlif milli və beynəlxalq kitabxana müəssisələri və təşkilatları ilə əməkdaşlıq edir.

Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra kitabxana tərəfindən göstərilən xidmətlər, həyata keçirilən layihələr və bu mədəniyyət müəssisəsinin xarici əlaqələri barədə videoçarx nümayiş etdirildi.

Sonda birinci xanım Mehriban Əliyevanın adından kitabxanaya Azərbaycanın mədəniyyəti, incəsənəti, tarixi, həmçinin Qarabağ və Şuşa haqqında kitablar hədiyyə edildi.





## Səfər başa çatdı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasına rəsmi səfəri mayın 22-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Vilnüs Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər yola saldılar.



# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə ən xoş təbriklərimi çatdırır, Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***XVI Karl QUSTAV,***
***İsveçin Kralı***

❖ ❖ ❖

Zati-aliləri, əziz Qardaşım!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə Əlcəzair xalqının, hökumətinin adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan, zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə daha çox inkişaf, firavanlıq və tərəqqi diləməkdən məmnunluq duyuram.

Ölkənizin tarixində bu əlamətdar hadisənin qeyd edilməsi, Qoşulmama Hərəkatının hazırkı sədri olaraq 2022-ci ilin noyabr ayında Əlcəzairin evsahibliyi etdiyi Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında fəxri qonaq qismində dəyərli iştirakınız mənə dostluq və əməkdaşlıq münasibətlərimizin dinamizmindən dərin məmnunluğumu ifadə etmək imkanı verir.

Ölkələrimizin ümumi maraqları və qardaş xalqlarımızın istəklərinə xidmət edən əlaqələrimizi möhkəmləndirmək və inkişaf etdirmək məqsədilə Sizinlə əməkdaşlığımızı, həmçinin ümumi maraq kəsb edən məsələlər və dünyada sülhü və təhlükəsizliyi möhkəmləndirə biləcək beynəlxalq forumlarda məsləhətləşmələrimizi davam etdirməyə hazır olduğumu bir daha qeyd etmək istərdim.

Zati-aliləri cənab Prezident, əziz Qardaşım, bir daha Sizə ən səmimi təbriklərimi çatdırır, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Bu fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq əlaqələrinin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində fəaliyyətimizi davam etdirmək istəyimi Sizə bir daha ifadə edirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Migel Dias-Kanel BERMUDES,***
***Kuba Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyası, Beynəlxalq Rusiyalı Həmvətənlər Şurası, Rusiya Vəkillər Gildiyası, Rusiya Vəkillik və Notariat Akademiyası, "Moskva Hüquq Mərkəzi" Vəkillər Kollegiyası adından və şəxsən öz adımdan Sizi və bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycan Sizin müdrik rəhbərliyinizlə irimiqyaslı siyasi, iqtisadi islahatlar və böyük dəyişikliklər, əhalinin sosial rifahının artırılması yolu ilə inamla irəliləyir, aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir. Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan və Rusiya arasında iqtisadi, siyasi, mədəni əlaqələr gündən-günə genişlənir və möhkəmlənir. 2022-ci ilin fevralında imzalanan müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamə, şübhəsiz ki, bütün sahələrdə ikitərəfli əlaqələrin keyfiyyətli şəkildə artmasına kömək edəcək və bu da bizim dost xalqlarımızın maraqlarına tam cavab verir. Mən həmvətənli olaraq tarixi Vətənimlə fəxr edir, qürur duyuram.

Xüsusi vurğulamaq istəyirəm ki, Siz Azərbaycan Respublikasında Heydər Əlirza oğlu Əliyevin islahatçılıq yolunun layiqli davamçısısınız. Sizin vətənpərvər və vətəndaş kimi fəal həyat mövqeyiniz, dövləti vəzifələri mükəmməl surətdə icra etməyiniz Vətənə layiqli xidmətin nümunəsidir.

Qoy, enerji, gümrahlıq və ruh yüksəkliyi daim Sizin nəsibiniz olsun! Sizə cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə uğurlar və Azərbaycan xalqının rifahı naminə yeni nailiyyətlər arzulayıram.

Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Həsən MİRZƏYEV,***
***Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının prezidenti,***
***Beynəlxalq Rusiyalı Həmvətənlər Şurasının sədri,***
***Rusiya Vəkillər Gildiyasının prezidenti,***
***Rusiya Federasiyasının Əməkdar hüquqşünası,***
***hüquq elmləri doktoru, professor, Rusiyanın fəxri ədliyyə işçisi***

❖ ❖ ❖

Əziz qardaşım, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Bu il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə biz onun Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasında böyük xidmətlərini bir daha xatırlayırıq. Bu əlamətdar yubiley, həmçinin Heydər Əliyevin tolerantlıq və inklüzivlik baxımından nümunə olan firavan Azərbaycanın inkişafında nailiyyətlərini təqdir etmək üçün gözəl fürsətdir. Zati-aliləri Heydər Əliyev bizim hamımıza müasir dövlətin inkişaf yolunu göstərdi, eyni zamanda bütün azərbaycanlıları öz ətrafında toplaya bildi.

Biz həmçinin məmnunuq ki, cənab Əliyev, Siz liderliyinizlə bu ənənəni və bu yolu davam etdirirsiniz. Şübhəsiz ki, bu xidmətləriniz sayəsində Sizin dünya liderləri arasında müasir tarixdə xüsusi yeriniz var. Xorvatiyalı müsəlmanlar və mən Sizə və bütün Azərbaycan xalqına qarşıdakı illərdə böyük uğurlar arzulayırıq. Uca Allahdan Ulu Öndər Heydər Əliyevə rəhmət diləyir, Sizə və bütün dünya müsəlmanlarına cansağlığı arzulayıram.

Allah Sizin xeyirxah işlərinizi daim mükafatlandırsın!

Allah Sizi qorusun!

*Dərin ehtiramla,*

***Müfti Əziz HƏSƏNOVİÇ,***
***Xorvatiya İslam Cəmiyyəti Ali Şurasının sədri***



❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edir, işlərinizdə uğurlar, möhkəm cansağlığı arzulayıram.

Bu il müstəqil Azərbaycan Respublikasının tarixində xüsusi il - "Heydər Əliyev İli"dir. Ümummilli Lider 1993-cü ildə müstəqilliyimizin böyük təhlükə ilə üzləşdiyi zamanda hakimiyyətə qayıtdı və müstəqilliyimizi qoruyub saxladı. Azərbaycanda sabitlik yarandı, enerji sahəsində dünyanın aparıcı şirkətləri ilə böyük layihələr həyata keçirildi, ölkəmiz bölgədə aparıcı dövlətə çevrildi. Böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması ölkəyə sülh və inkişaf gətirdi.

Siz Heydər Əliyev dəyərlərinə yeni nəfəs gətirdiniz, 30 ilə yaxın işğal altında qalmış torpaqlarımız Sizin siyasətinizin nəticəsində azad edildi.

Möhtərəm cənab Prezident, artıq bir neçə ildir ki, Azərbaycan xalqı Müstəqillik Gününü qalib xalq kimi qeyd edir. Sizin rəhbərliyinizlə ölkəmizin ərazi bütövlüyü bərpa olundu və doğma yurdlarını tərk etmiş vətəndaşlarımız bu gün çiçəklənən Qarabağa, Şərqi Zəngəzura - ana yurdlarına qayıdırlar. Bu proseslər Sizin uzun illərə hesablanmış və düşünülmüş siyasətiniz nəticəsində mümkün oldu.

Sizin rəhbərliyinizlə 44 günlük Vətən müharibəsi xalqımızın Qələbəsi ilə başa çatdı və bu gün ölkəmizdə böyük bərpa işləri həyata keçirilir, Qarabağa onun əvəzsiz gözəlliyi və mənəvi həyatı qaytarılır.

Sizə işlərinizdə böyük uğurlar, möhkəm cansağlığı arzulayıram.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının***
***Parlament Məclisinin Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Əlamətdar tarix - dahi atanız, görkəmli siyasət və dövlət xadimi, qardaş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu gün Müstəqil Dövlətlər Birliyinin əksər ölkələrində və Rusiyanın regionlarında böyük sovet ölkəsinin sosial-iqtisadi inkişafına Heydər Əlirza oğlunun çox qiymətli töhfələrini yüksək ehtiramla xatırlayırlar.

Onu haqlı olaraq müasir müstəqil Azərbaycanın qurucusu adlandırırlar. O, Vətənə sədaqətli xidməti ilə, həqiqətən, bütün azərbaycanlıların əsl xalq sevgisini qazanıb.

Hörmətli İlham Heydər oğlu, Siz ata vəsiyyətini yorulmadan yerinə yetirməklə və ailə ənənələrini möhkəmləndirməklə ölkənin dinamik və hərtərəfli inkişafını təmin etmisiniz, bütün sahələrdə onun əsl suverenliyinə nail olmusunuz, ərazi bütövlüyünü bərpa etmisiniz, dövlətin beynəlxalq arenada təhlükəsizliyini və nüfuzunu möhkəmləndirmisiniz.

Ümummilli Lider Heydər Əliyevin parlaq xatirəsi qarşısında dərin ehtiramımı ifadə edərək, Sizə və yaxınlarınıza möhkəm cansağlığı və firavanlıq, qardaş Azərbaycan xalqına isə sülh, daha böyük inkişaf və rifah diləyirəm.

*Dərin hörmətlə,*

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyasının senatoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

"VTB Bank"ın İdarə Heyətinin və kollektivinin adından Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin 100 illik yubileyi münasibətilə səmimi təbriklərimizi qəbul edin.

Keçmiş SSRİ-nin və Azərbaycan Respublikasının görkəmli dövlət xadimi Heydər Əliyev tarixdə böyük iz qoyub. Onun qəbul etdiyi qərarlar, rəhbərliyi ilə həyata keçirilən strateji proqramlar böyük Avrasiya məkanında iqtisadi və siyasi inkişafın fundamental əsaslarını öncədən qoyub.

Heydər Əliyev şəxsiyyətinin gücü və miqyası, onun vətənpərvərliyi, siyasi müdrikliyi və uzaqgörənliyi xüsusən sınaq dövründə - sabit şəkildə tərəqqi edən, səmərəli beynəlxalq əməkdaşlığa yönəlmiş, regionda və dünyada güclü təsirə və nüfuza malik olan ölkənin - müasir Azərbaycanın dövlət quruculuğunun formalaşması proseslərinə rəhbərlik etdiyi illərdə özünü daha parlaq şəkildə göstərdi.

Azərbaycan xalqı və onun dostları üçün bu əlamətdar gündə səmimi təbriklərimi qəbul edin. Respublikaya və onun vətəndaşlarına uğurlar və tərəqqi, Sizə isə, hörmətli İlham Heydər oğlu, Heydər Əliyevin Vətən naminə gördüyü işlərin davam etdirilməsi kimi məsul fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

*Dərin hörmətlə,*

***Andrey KOSTİN,***
***"VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti***
***İdarə Heyətinin sədri***

# Litva Respublikasının keçmiş Prezidenti zati-aliləri cənab Valdas Adamkusa

Zati-aliləri!

Həyat yoldaşınız, ömür-gün dostunuz Alma Adamkiyenenin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyirik.

***İlham ƏLİYEV və Mehriban ƏLİYEVA***

*Bakı şəhəri, 21 may 2023-cü il*

# Mehriban xanım Əliyeva Avropa çempionatının qalibi olan gimnastlarımızı təbrik edib






**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva mayın 21-də qrup hərəkətləri komandamızın Bakıda keçirilən Bədii Gimnastika üzrə 39-cu Avropa Çempionatının qalibi olması münasibətilə instaqram hesabında paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, Mehriban xanım Əliyeva paylaşımında parlaq qələbə münasibətilə gimnastlarımıza təbriklərini çatdıraraq qeyd edib: "Ura! Sizi təbrik edir, sizinlə fəxr edirəm! Çox möhtəşəmsiniz! Əməyinizə, qələbə əzminizə, gözəlliyinizə və zərifliyinizə görə çox sağ olun!"



Xatırladaq ki, Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət komandamız üç lent və iki topla hərəkətlərdə uğurla çıxış ediblər. Gimnastlarımızın möhtəşəm çıxışı hakimlər tərəfindən 32,250 xalla qiymətləndirilib.

# Baş nazir Əli Əsədov Monteneqro Parlamentinin Sədri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 22-də ölkəmizdə səfərdə olan Monteneqro Parlamentinin Sədri xanım Daniyela Curoviçlə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanla Monteneqro arasında müxtəlif sahələrdə münasibətlərin səviyyəsindən məmnunluq ifadə olunub.

İki ölkə arasında əlaqələrin hərtərəfli inkişafında parlamentlərin rolu yüksək qiymətləndirilib.

Görüşdə həmçinin Azərbaycan-Monteneqro qarşılıqlı faydalı əməkdaşlığının müxtəlif istiqamətlərdə genişləndirilməsi perspektivləri müzakirə olunub.

# Monteneqro parlamentinin nümayəndə heyəti Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Azərbaycanda səfərdə olan Monteneqro Parlamentinin Sədri Daniyela Curoviçin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 22-də Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər çiçəklər düzüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Sonda Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatı, Azərbaycan-Monteneqro parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri İqbal Məmmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Milli Məclis və ATƏT PA-nın birgə təşkilatçılığı ilə konfrans keçirilib







**Mayın 22-də Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfrans keçirilib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, konfransın açılış mərasimində Milli Məclisin deputatı, ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri, qurumun İqtisadi məsələlər, Elm, Texnologiya və Ətraf Mühit üzrə Baş Komitəsinin sədri Azay Quliyev tədbir iştirakçılarını salamlayaraq, ATƏT-in 27 müxtəlif ölkəsindən və 4 beynəlxalq təşkilatdan bir çox nümayəndələrin toplantıya qatıldığını söyləyib.

O, Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovaya konfransın keçirilməsinə göstərdiyi dəstəyə və şəxsən iştirakına görə təşəkkürünü ifadə edib. Eyni zamanda ATƏT PA-nın sədri Marqareta Sederfelt, qurumun baş katibi Roberto Montella, habelə Monteneqro Parlamentinin Sədri Daniyela Curoviç və Litva Parlamentinin vitse-spikeri Yonas Yarutisin iştirakından məmnunluğunu bildirib.

Azay Quliyev milli iqtisadiyyatlarda "yaşıl" prinsiplərin həyata keçirilməsində parlamentlərin rolu, bu sahədə əlaqələrin, davamlı inkişafla bağlı təcrübə mübadiləsinin əhəmiyyətindən danışıb. O qeyd edib ki, ATƏT regionunda daha ədalətli, davamlı və təhlükəsiz inkişafın təmin edilməsi üçün qarşıda duran hədəflər və atılacaq addımlar nəzərdən keçirilməlidir. Azay Quliyev milli parlamentlərin və beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı ilə keçirilən bu toplantıda dayanıqlı inkişafın təmin edilməsi üçün "yaşıl" iqtisadiyyat modelinin tətbiqi istiqamətində səsləndiriləcək ideyaların önəmli olduğunu deyib. O, tədbirin hazırda cəmiyyətlərin üzləşdiyi böyük iqtisadi və ekoloji təhlükəsizlik problemlərinin effektiv şəkildə həlli üçün yolların müəyyən edilməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Qeyd olunub ki, bölgəmiz üçün daha davamlı, daha ədalətli və daha təhlükəsiz gələcəyin təmin edilməsi baxımından qarşılıqlı hörmət və etimad üzərində əlaqələrin qurulması mühüm əhəmiyyət kəsb edir.

Sonra konfransda Milli Məclisin Sədri Sahibə Qafarova çıxış edib.

Azərbaycan Respublikasının parlamenti adından bütün iştirakçıları salamlayan spiker Sahibə Qafarova bildirib ki, ölkələrimiz və bütövlükdə ATƏT bölgəsi üçün həyati əhəmiyyət kəsb edən məsələləri müzakirə etmək üçün bir çox parlamentarinin bir araya gəlməsi təqdirəlayiqdir.

O qeyd edib ki, biz millət vəkilləri, xalqlarımızın nümayəndələri olaraq, ölkələrimizin müasir çağırışlara dair mümkün olan ən yaxşı həll yollarını tapmaq səylərini dəstəkləmək və hər kəs üçün daha yaxşı bir gələcəyə çatmaq üçün imkanların reallaşmasına kömək etmək üçün məsuliyyət daşıyırıq. Bu mənada parlament əməkdaşlıq platformaları bizim öhdəliyimizi və qətiyyətimizi əks etdirir. ATƏT Parlament Assambleyası çərçivəsində dialoqumuz, bu cür konfranslar çərçivəsində fikir və təcrübə mübadiləsi, genişlənmə və sıx əməkdaşlıq üçün yeni ideyalar və perspektivlər yaratmaq baxımından vacibdir.

Milli Məclisin Sədri qeyd edib ki, ATƏT regionunda mürəkkəb təhlükəsizlik mühiti dövrünün pandemiyadan sonrakı iqtisadiyyatın bərpasındakı çətinliklər və digər çağırışlarla müşayiət olunduğu bir vaxtda, bu konfrans davamlı inkişafda "yaşıl" iqtisadiyyatın və qarşılıqlı əlaqənin rolu kimi mühüm məsələlərə həsr olunub.

Bu məsələlərə qısa şəkildə münasibətini açıqlayan spiker Sahibə Qafarova bildirib ki, "yaşıl" texnologiyaların istifadəsi təkcə ətraf mühitin qorunmasını təmin etməyəcək, həm də yeni iqtisadi perspektivlər yaradacaqdır. Bu da davamlı inkişafın bütün aspektlərinə müsbət təsir göstərəcək. Əlbəttə ki, inklüziv "yaşıl" iqtisadiyyata keçid istər-istəməz tədricən olacaq və bir çox problemlərlə müşayiət ediləcək. Ancaq irəliyə doğru düzgün addımlar ataraq onu sabit və davamlı etmək olar.

Milli Məclisin Sədri qeyd edib ki, bu, Azərbaycanın gündəmində də mühüm yer tutur. Təmiz ətraf mühit və "yaşıl" inkişaf Azərbaycanın 2030-cu ilədək yeni inkişaf strategiyasının beş prioritet istiqamətindən biri kimi müəyyən edilib. Son illərdə bərpa olunan enerji mənbələrinin enerji təchizatındakı payının əhəmiyyətli dərəcədə artırılması üçün mühüm addımlar atılıb. 2021-ci ildə parlamentimiz "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qanun qəbul edib. Bu gün artıq beynəlxalq tərəfdaşlarla birgə külək və günəş-elektrik stansiyalarının tikintisi üzrə bir neçə layihə həyata keçirilir. "Yaşıl enerji" sahəsində yalnız milli potensialın yaradılması deyil, həm də ondan beynəlxalq əməkdaşlığın təşviqində istifadə edilməsi üçün addımlar atılır. Ötən ilin dekabrında Buxarestdə "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında" saziş imzalanıb. Azərbaycanın nəhəng bərpaolunan enerji resursları ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolunu artıracaq.

Sahibə Qafarova diqqətə çatdırıb ki, nəqliyyat və kommunikasiya xətlərinin və tranzit marşrutlarının diversifikasiyası və gələcək inkişafı dayanıqlı inkişaf baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın həyata keçirdiyi irimiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizi Orta dəhlizdə əsas beynəlxalq nəqliyyat-logistika qovşaqlarından birinə çevirib. Nəqliyyat prosedurlarının sadələşdirilməsi, milli və beynəlxalq hüquqi müddəalardakı boşluqların və çatışmazlıqların aradan qaldırılması kimi praktik tədbirlərin görülməsi dəhliz boyunca ticarət əlaqələrini və biznes fəaliyyətini daha da genişləndirəcəkdir.

Spiker onu da qeyd edib ki, parlament diplomatiyası ATƏT regionunda və onun hüdudlarından kənarda sülhün, təhlükəsizliyin və sabitliyin təşviqi üçün əvəzolunmazdır. Bu diplomatiyanın təməl daşı isə Helsinki Yekun Aktından başlayaraq, ATƏT-in əsas sənədlərində təsbit olunmuş fundamental norma, prinsip və öhdəliklərə, xüsusilə dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət olmalıdır.

Milli Məclisin Sədri konfrans iştirakçılarına müraciətlə diqqətə çatdırıb ki, tədbir iştirakçıları Zəngilan rayonuna səfər edəcəklər. "Siz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən 30 illik işğalının dağıdıcı nəticələrini öz gözlərinizlə görəcəksiniz. O illər Ermənistanın öz qonşusunun torpaqlarını işğal etdiyi illər kimi onun tarixinin ən utancverici səhifələrindən biri olacaq", - deyə spiker vurğulayıb.

Spiker bildirib ki, Ermənistan etnik təmizləmə siyasəti həyata keçirməklə yanaşı, bu illər ərzində bütün şəhər və kəndlərimizi yerləyeksan edib, Azərbaycanın tarixi, mədəni və dini obyektlərini vandallığa məruz qoyub. İşğal ekoloji terrorla müşayiət olunub. Ermənistan meşələrimizi və təbiət qoruqlarımızı məhv edib, təbii sərvətlərimizdən qanunsuz istifadə edib, Ermənistandan Azərbaycan ərazisinə axan transsərhəd çaylar da daxil olmaqla, torpağı və çayları çirkləndirib.

Spiker Sahibə Qafarova bildirib ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnaməni, ATƏT də daxil olmaqla digər müvafiq beynəlxalq təşkilatların Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamə və qərarları yerinə yetirilmədi.

2020-ci ildə BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə edərək Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrini, beynəlxalq hüququn norma və prinsiplərini həyata keçirdi, öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Ermənistan məktubla bu konfransda iştirak edən nümayəndə heyətlərinə müraciət edərək, onlara sabah Zəngilan rayonuna getməməyi tövsiyə edib. "Bu sizin öz seçiminizdir. Əgər siz bu səfərə getsəniz, çox şeylərin şahidi olacaqsınız. Bir tərəfdən, Ermənistanın işğalının nəticələrini, törətdiyi dağıntıları öz gözlərinizlə görəcək, digər tərəfdən isə, Azərbaycan hökumətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə iki il yarım ərzində həyata keçirdiyi irimiqyaslı tikinti-quruculuq işləri ilə tanış olacaqsınız", - deyən Milli Məclisin Sədri konfrans iştirakçılarına xitabla qeyd edib ki, siz bu ərazilərdə olarkən, Azərbaycan hökumətinin güclü siyasi iradəsinin və İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra iki il yarım ərzində yollarda, körpülərdə, elektrik stansiyalarında, məktəblərdə, xəstəxanalarda, yaşayış evlərində aparılan irimiqyaslı yenidənqurma və bərpa işlərində xalqımızın qətiyyətinin şahidi olacaqsınız. Qısa müddət ərzində inşa edilmiş Zəngilan Beynəlxalq Hava Limanı və regionda yeni nəqliyyat infrastrukturuna çevriləcək Zəngəzur dəhlizi Orta dəhliz boyunca nəqliyyat və ticarət sahəsində əməkdaşlığı xeyli genişləndirəcək.

Bu ərazilərdə ətraf mühitə dair "ağıllı şəhərlər və kəndlər" layihələrinin həyata keçirilməsinin ilk uğurlu nümunəsi olan Ağalı kəndini ziyarət edəcəksiniz. Və orada keçmiş məcburi köçkünlərlə görüşdükdən sonra görəcəksiniz ki, bu qədər illərdən sonra həyat artıq bu torpaqlara qayıdıb.

Çıxışına yekun vuran spiker Sahibə Qafarova bir daha tədbirdə qonaqlarla birlikdə olmaqdan məmnunluğunu ifadə edib və onlara bütün gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra konfransın açılış mərasimində ATƏT PA-nın sədri Marqareta Sederfelt, Monteneqro Parlamentinin Sədri Daniyela Curoviç, ATƏT PA-nın baş katibi Roberto Montella çıxış ediblər.

Qonaqlar konfransın yüksək səviyyədə təşkilinə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya, ATƏT PA-nın Katibliyinə təşəkkürlərini ifadə ediblər. Çıxışçılar tədbirin ATƏT regionunda ətraf mühitin mühafizəsi problemlərinin aradan qaldırılmasına, ekoloji böhran şəraitində milli iqtisadiyyatların dayanıqlı inkişafının təmin edilməsinə, sabitliyin qorunmasına töhfə verəcəyinə əminliklərini bildiriblər.

Çıxışlarda iqlim dəyişikliklərinin ölkələrin iqtisadiyyatına, ətraf mühitə, regional təhlükəsizliyə və sabitliyə mənfi təsirindən söhbət açılıb, insan fəaliyyətinin ətraf mühitə təsiri, təbii sərvətlərin istismarının ekoloji nəticələri ilə bağlı fikirlər səsləndirilib. Habelə, COVID-19 pandemiyasının yaratdığı problemlərin, regional münaqişələrin iqtisadi və ekoloji baxımdan ciddi təhlükə doğurduğu deyilib.

Natiqlər "yaşıl" iqtisadiyyatın qlobal və yerli səviyyədə sosial-iqtisadi tərəqqinin və ətraf mühitin mühafizəsinin təmin edilməsində mühüm əhəmiyyət kəsb etdiyini söyləyiblər. Ekoloji təhlükəsizliyin təmin olunması və ətraf mühitin çirklənməsinin minimuma endirilməsi üçün mütərəqqi üsulların tətbiq edilməsinin önəmli olduğu vurğulanıb. Onlar alternativ və qeyri-ənənəvi vasitələrlə enerji mənbələrindən yararlanmağın həlli yollarının müəyyənləşdirilməsinin, bu sahədə potensial imkanlardan daha geniş istifadə etməyin zəruriliyini qeyd ediblər.

Çıxışlarda ekoloji problemlərin daxili potensial imkanlardan istifadə etməklə aradan qaldırılması ilə yanaşı, ətraf mühitdə baş verən neqativ dəyişikliklərin nəticələrinin qlobal səviyyədə həlli istiqamətində beynəlxalq səylərin artırılmasının və təcrübə mübadiləsinin vacibliyindən bəhs edilib. Bildirilib ki, "yaşıl" iqtisadiyyat, dayanıqlı inkişaf, təhlükəsizliklə bağlı məsələlərin həyata keçirilməsində beynəlxalq əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Qeyd olunub ki, ATƏT regionunda təhlükəsiz əməkdaşlığın inkişafı və sabitliyin qorunması üzv ölkələrin tərəqqisinə, xalqların milli maraqlarına xidmət edir.

Tədbirdə dayanıqlı inkişaf vasitəsi ilə təhlükəsizlik və sabitliyin təmin edilməsində, ətraf mühitin sağlamlaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsində parlamentlərin xüsusi rolu qeyd edilib. Milli parlamentlər tərəfindən bu məsələlərin təşviqi ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində atılan addımların, bu sahədə təcrübə mübadiləsinin önəmli olduğu bildirilib.

Açılış mərasiminin yekununda Azay Quliyev çıxış edənlərə səsləndirdikləri maraqlı fikirlərə görə təşəkkürünü bildirib, konfransın işinə uğurlar arzulayıb, aparılan müzakirələrin faydalı olacağına əminliyini söyləyib.

Sonra tədbir iştirakçıları xatirə fotoları çəkdiriblər.

Konfrans öz işini panellərdə davam etdirib.

"Dayanıqlı inkişaf və iqtisadiyyatın bərpasında "yaşıl" konsepsiya və texnologiyaların rolu" mövzusuna həsr olunmuş birinci paneli açan moderator, ATƏT PA-nın İqtisadi məsələlər, elm, texnologiya və ətraf mühit üzrə baş komitəsinin məruzəçisi Qudrun Kuqler (Avstriya) tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirib. Mövzu ilə bağlı fikirlərini bölüşən moderator "yaşıl" iqtisadiyyata, "yaşıl enerji"yə keçidin enerji təhlükəsizliyinin təmin olunmasındakı rolundan, bu keçidin müasir texnologiyaların və yüksək həyat standartlarının tətbiqinə təkan verməsindən bəhs edib.

Çıxış edən iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, energetika nazirinin müavini Elnur Soltanov müzakirə olunan mövzu ilə bağlı Azərbaycanda görülən işlərdən danışıblar.

Sonra paneldə Litva Seyminin vitse-spikeri Jonas Jarutis, Kanada nümayəndə heyətinin üzvü Con Aldaq, ATƏT PA-da Albaniya nümayəndə heyətinin rəhbəri Damian Qciknuri, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyev çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüblər.

"Dayanıqlı inkişaf naminə beynəlxalq nəqliyyat və ticarətin asanlaşdırılması vasitəsilə təchizat zəncirlərinin davamlılığının gücləndirilməsi" mövzusuna həsr edilmiş ikinci panelə ATƏT PA-nın vitse-prezidenti və davamlı inkişaf üzrə xüsusi nümayəndə Askar Şakirov (Qazaxıstan) moderatorluq edib.

Askar Şakirov giriş nitqində qlobal təbii və humanitar fəlakətlərin dünya iqtisadiyyatını və ekologiyasını ciddi tənəzzülə uğratmasından söz açıb, bunların qarşısının alınması üçün dövlətlərin birgə səylərinin əhəmiyyətindən danışıb.

Sonra Gürcüstanın ATƏT PA-da nümayəndə heyətinin üzvü Maka Botçorişvili, İtaliyanın ATƏT PA-da nümayəndə heyətinin üzvü Mauro Del Barba, BMT-nin Azərbaycandakı rezident-əlaqələndirici ofisinin iqtisadçısı Xurşid Rüstəmov, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Şahin İsmayılov çıxış ediblər, "yaşıl" iqtisadiyyatın beynəlxalq nəqliyyat və logistikadakı yeri, onun bu sahədə əməkdaşlığın genişləndirməsinə təsirlərindən danışıblar.

Panellərdə iştirakçıların mövzu ilə bağlı şərhləri dinlənilib, sualları cavablandırılıb.

Konfransda və onun panellərinin işində Milli Məclisin deputatları, ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvləri Ülviyyə Ağayeva, Əminə Ağazadə, Tural Gəncəliyev, Tahir Mirkişili, Ağalar Vəliyev, Azərbaycanın ATƏT yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli, ATƏT PA-ya üzv dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Monteneqro Parlamentinin Sədri ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova mayın 22-də ölkəmizdə səfərdə olan Monteneqro Parlamentinin Sədri Daniyela Curoviç ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova Bakıda Milli Məclisin ATƏT Parlament Assambleyası ilə birgə təşkil etdiyi "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfransda iştirakına görə Daniyela Curoviçə təşəkkürünü ifadə edib. Sahibə Qafarova konfransın müasir dövrün çox aktual mövzularına həsr olunduğunu diqqətə çatdırıb.

Bu görüşün iki ölkə və parlamentlər arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcəyinə inamını bildirən Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan və Monteneqro dost ölkələrdir. Dövlətlərimiz, parlamentlərimiz arasında sıx əlaqələr mövcuddur və bu əlaqələr intensiv şəkildə inkişaf edir. Spiker xüsusilə vurğulayıb ki, ali və yüksək səviyyəli qarşılıqlı səfərlər ikitərəfli münasibətlərin inkişafına böyük töhfə verir. Onun sözlərinə görə, ölkələrimiz siyasi, iqtisadi, humanitar sahələrdə əməkdaşlıq edir. Spiker Sahibə Qafarova Azərbaycanla Monteneqro arasında beynəlxalq təşkilatlarda da uğurlu münasibətlərin mövcud olduğunu bildirib.

Görüşdə qeyd olunub ki, ikitərəfli əlaqələrin mühüm bir istiqamətini də parlamentlər arasında münasibətlər təşkil edir. Dostluq qrupları arasında təmaslar, parlamentarilərin qarşılıqlı səfərləri bu münasibətlərin inkişafına töhfə verir.

Milli Məclisin Sədri qonağa regionda mövcud olan vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri barədə geniş məlumat verib. Parlamentin spikeri xatırladıb ki, 30 il ərzində Ermənistanın işğalı altında olan bütün şəhər və rayonlarımız, kənd və qəsəbələrimiz tamamilə dağıdılıb, talan olunub. Hazırda Azərbaycan dövləti öz gücü hesabına Qarabağda və Şərqi Zəngəzurda "ağıllı şəhərlər və kəndlər", "yaşıl enerji" konsepsiyalarına uyğun olan modern şəhər və kəndlər salır. Bu yanaşmanın ilk uğurlu nümunəsi keçmiş məcburi köçkünlərin artıq geri qayıtdığı Ağalı kəndidir. Sahibə Qafarova deyib ki, bu gün keçirilən konfrans iştirakçılarının Zəngilana nəzərdə tutulan səfəri zamanı onlar həm Ermənistan tərəfindən törədilən dağıntıları, vəhşilikləri, həm də Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng yenidənqurma işlərini öz gözləri ilə görəcəklər.

Monteneqro Parlamentinin Sədri Daniyela Curoviç göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, Milli Məclisin ATƏT Parlament Assambleyası ilə birgə təşkil etdiyi və "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfransın yüksək səviyyədə keçirildiyini diqqətə çatdırıb. O, bu səfərin Azərbaycanın və Monteneqronun Müstəqillik günləri ərəfəsində baş tutduğunu qeyd edərək, bu münasibətlə təbriklərini çatdırıb.

Daniyela Curoviç Azərbaycanın Monteneqro üçün dost ölkə olduğunu bildirərək, dövlətlərimizin bir çox sahələrdə əməkdaşlığını qeyd edib. Qonaq parlamentlərimiz arasında da münasibətlərin uğurla inkişaf etdiyini bildirərək, həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində müsbət əlaqələrin qurulduğunu söyləyib. O, bu istiqamətdə qarşılıqlı fəaliyyətin davam etdirilməsinin önəmini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova ATƏT Parlament Assambleyasının prezidenti ilə görüşüb





Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının prezidenti Marqareta Sederfelt ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova Bakıda Milli Məclisin ATƏT-in Parlament Assambleyası ilə birgə təşkil etdiyi "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizliyin və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfransın ölkələrimiz və bütövlükdə ATƏT bölgəsi üçün vacib əhəmiyyətə malik məsələləri müzakirə etmək üçün mühüm bir tədbir olduğunu diqqətə çatdırıb. Sahibə Qafarova konfransın çox aktual mövzuya həsr olunduğunu qeyd edərək, deyib ki, təmiz ətraf mühit və "yaşıl" inkişaf Azərbaycanın 2030-cu ilədək yeni inkişaf strategiyasının beş prioritet istiqamətlərindən biri kimi müəyyən edilib.

Görüşdə spiker Sahibə Qafarova qonağa regionda mövcud olan vəziyyət barədə geniş məlumat verib. Milli Məclisin Sədri qeyd edib ki, Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayıb. Bir milyon azərbaycanlı bu işğal nəticəsində öz doğma torpaqlarından didərgin düşüb. İşğal edilmiş ərazilərdə, demək olar ki, bütün infrastruktur, binalar dağıdılıb. Ermənistan Azərbaycanın bütün tarixi, mədəni və dini obyektlərini vandallığa məruz qoyub. Azərbaycan 30 il ərzində dünyada mövcud olan ikili standartlardan əziyyət çəkib, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyulması, torpaqlarımızın qeyd-şərtsiz işğaldan azad olunması ilə bağlı beynəlxalq qətnamələr icra olunmayıb. 2020-ci ildə BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə edərək, Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrini, beynəlxalq hüququn norma və prinsiplərini həyata keçirib, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib.

Milli Məclisin Sədri xatırladıb ki, Azərbaycan işğalın qurbanı olmasına baxmayaraq, regionda uzunmüddətli sülhün və sabitliyin təmin olunması üçün səy göstərir və beynəlxalq hüququn 5 prinsipi əsasında Ermənistana sülh sazişi imzalamağı təklif edib. Spiker qeyd edib ki, bir-birinin suverenliyinin və ərazi bütövlüyünün tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası regionda sülh və sabitliyə gətirib çıxaracaq. O deyib ki, Ermənistan münasibətlərin normallaşması prosesini pozan hərəkətlərdən çəkinməli, siyasi iradə nümayiş etdirərək, iki ölkə arasında sülh sazişinin imzalanmasında əməli addımlar atmalıdır. Bu, regionda uzunmüddətli sülh və sabitliyin təmin olunmasının yeganə yoludur.

Bununla belə, spiker xatırladıb ki, Ermənistan müxtəlif yalan məlumatlarla beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır. Sahibə Qafarova o cümlədən Ermənistanın, guya, Laçın yolunun bağlanması haqqında iddialarının tamamilə həqiqətdən uzaq olduğunu, Laçın yolunun humanitar məqsədlər üçün açıq olduğunu bildirib.

Sahibə Qafarova deyib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərimizdə, o cümlədən Qarabağda və Şərqi Zəngəzurda müasir şəhər və kəndlər tikir. Artıq məcburi köçkünlərimizin öz dogma torpaqlarına qayıtmasını nəzərdə tutan Böyük qayıdış proqramına start verilib. Spiker görüşdə diqqətə çatdırıb ki, Ermənistan tərəfindən həyata keçirilmiş kütləvi minalanma yenidənqurma işlərinə ən böyük əngəldir. İlkin hesablamalara görə, işğal dövründə Ermənistan həmin ərazilərə bir milyondan artıq mina basdırıb. 2020-ci ilin noyabr ayında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlaması nəticəsində 300-ə yaxın mülki şəxs və hərbçi həlak olub və yaralanıb.

Spiker Sahibə Qafarova xatırladıb ki, sabah konfrans iştirakçıları Zəngilana səfər edəcəklər. Onlar həm Ermənistanın işğalının nəticələrini, törətdiyi dağıntıları öz gözləri ilə görəcək, həm də işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhərlər və kəndlər", "yaşıl enerji" konsepsiyalarına uyğun aparılan yenidənqurma işləri ilə yerində tanış olacaqlar.

ATƏT Parlament Assambleyasının prezidenti Marqareta Sederfelt göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, Bakıda tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edib. O, "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizliyin və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfransın çox vacib məsələlərə həsr olunduğunu qeyd edib. Bildirib ki, hazırda dünyanı narahat edən əsas çağırışların həllində parlament diplomatiyası vacib rola malikdir.

Marqareta Sederfelt, ATƏT PA ilə Milli Məclis arasında uğurlu əməkdaşlıq əlaqələrinin mövcud olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, Azərbaycan parlamenti assambleyada uğurla təmsil olunur. Parlament Assambleyasının prezidenti xatırladıb ki, tərəflərin birgə təşkilatçılığı ilə mühüm tədbirlər təşkil olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan-Litva münasibətlərinin hazırkı inkişafı məmnunluq doğurur

Milli Məclisin Sədri Sahibə Qafarova mayın 22-də Milli Məclisin və ATƏT PA-nın birgə təşkilatçılığı ilə keçirilən "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizliyin və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfransda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Litva Seyminin Sədr müavini Yonas Yarutislə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı salamlayan Milli Məclisin Sədri dəvəti qəbul edərək ölkəmizə səfərə gəldiyinə görə Litva Seyminin vitse-spikerinə təşəkkürünü bildirib. O qeyd edib ki, bu konfransın mövzusu həm ölkəmiz, həm də bütövlükdə müasir dünya üçün çox vacibdir.

Spiker diqqətə çatdırıb ki, Azərbaycan-Litva münasibətlərinin hazırkı inkişafı məmnunluq doğurur. O bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev Litvada rəsmi səfərdədir və keçirilmiş görüş və tədbirlər iki ölkə arasında əlaqələrin inkişafında mühüm əhəmiyyətə malikdir. Dövlətimizin başçısının bu səfəri ölkələrimiz arasında qarşılıqlı əlaqələrin inkişafının bariz nümunəsidir.

İki ölkənin qanunvericilik orqanları arasında münasibətlərdən danışan spiker Sahibə Qafarova bu sahədə parlamentlərarası əlaqələr üzrə qarşılıqlı işçi qruplarının xüsusi rolunu qeyd edib. O, özünün ötən il Litvaya səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırladıb.

Görüşdə Azərbaycanın 2020-ci ildə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını öz gücü ilə həyata keçirdiyini deyən Milli Məclisin Sədri 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonrakı dövrdə regionda mövcud olan hazırkı vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi böyük miqyaslı bərpa və quruculuq işləri barədə məlumat verib. Spiker bildirib ki, Azərbaycan Ermənistanın Laçın yolundan qeyri-qanuni istifadəsinin qarşısını almaq üçün orada sərhəd-buraxılış məntəqəsi quraşdırıb. Bu yoldan mülki şəxslərin keçidində və onun humanitar məqsədlərlə istifadəsində heç bir problem yoxdur.

Milli Məclisin Sədri qeyd edib ki, hazırda iki ölkə arasında sülh danışıqları gedir. O, Azərbaycanın tezliklə Ermənistanla sülh müqaviləsinin imzalanmasını, işğaldan azad olunmuş ərazilərdə nəqliyyat infrastrukturunun bərpa olunmasını istədiyini və bu istiqamətdə səy göstərdiyini qonağın diqqətinə çatdırıb.

"Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizliyin və sabitliyin təşviqində milli parlamentlərin rolu" kimi mühüm mövzuya həsr edilmiş konfransa dəvətə görə təşəkkür edən Litva Seyminin vitse-spikeri Yonas Yarutis Prezident İlham Əliyevin Litvaya rəsmi səfərinin əhəmiyyətindən danışıb, bu səfərin iki ölkə arasındakı münasibətlərin inkişafına mühüm töhfə verəcəyinə əminliyini bildirib.

Bu il Azərbaycanda və onun hüdudlarından kənarda dünyaşöhrətli siyasi xadim, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunduğunu deyən qonaq bu münasibətlə təbriklərini çatdırıb. Vitse-spiker ölkəsinin enerji sahəsindəki siyasətindən danışıb, Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki vacib rolu barədə fikirlərini bölüşüb.

Söhbət zamanı iki ölkə arasında parlamentlərarası əlaqələrin inkişafı və digər mövzularda fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədr müavini Adil Əliyev Naxçıvanda "N" saylı hərbi hissəni ziyarət edib

Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Naxçıvan Muxtar Respublikasında "N" saylı hərbi hissəni ziyarət edərək hərbi qulluqçularla görüşüb. Şəxsi heyətin döyüş əhvali-ruhiyyəsi və xidmət şəraiti ilə tanış olan vitse-spiker Prezident İlham Əliyevin ordu quruculuğuna ayırdığı yüksək diqqət və qayğı nəticəsində Silahlı Qüvvələrimiz nəinki Cənubi Qafqazın, eləcə də dünyanın ən güclü ordularından biri olduğunu qeyd edib.

Düşmənin tarixi torpaqlarımızı işğal altında saxlamış olduğu 30 ilə yaxın müddətə toxunan parlamentin sədr müavini bu müddətdə Ermənistanın sülhdən və danışıqlardan imtina etməsini, torpaqları dinc yolla qaytarmadığını bildirib.

2020-ci ildə Vətən müharibəsində şanlı Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən bəhs edən sədr müavini, ordumuzun bu qələbə ilə qüdrətini bütün dünyaya nümayiş etdirdiyini diqqətə çatdırıb. Ermənistanın məğlubiyyətlə barışmadığını, hər an təxribat törətməyə cəhd etməsini bildirən parlamentin sədr müavini məhz qəhrəmanlarımızın sahəsində düşmənə layiqli cavab verildiyini bildirib.

Görüşdə Milli Məclisin deputatı Cəbi Quliyev iştirak edib.

❖ ❖ ❖

Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Badamlı kəndində 11 aprel 2023-cü ildə Ermənistan Silahlı Qüvvələrinin bölmələrinin Azərbaycan Ordusunun Laçın rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutan zaman qəhrəmancasına şəhid olmuş Səbuhi Tağıyevin 40 mərasimində də iştirak edib. Şəhidin ailəsinə başsağlığı verən Adil Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən və tarixi Qələbəmizlə bitən Vətən müharibəsindən bəhs edərək Ermənistanın məğlubiyyətə uğrayaq kapitulyasiya aktını imzalamasını xatırladıb.

Müharibədən 3 ilə yaxın vaxt keçməsinə baxmayaraq, Ermənistanın məğlubiyyətlə barışmadığını bildirən vitse-spiker Ermənistanın hər addımda təxribata cəhd etdiyini deyib. Eləcə də düşmənin təxribatlarının qarşısının rəşadətli Ordumuz tərəfindən yüksək peşəkarlıqla alındığını və düşmənə sarsıdıcı zərbə vurulduğunu qeyd edən Adil Əliyev düşmənin sonuncu belə təxribatı zamanı şəhid olan Səbuhi Tağıyevə və bütün şəhidlərimizə Allahdan rəhmət və ailələrinə isə səbir diləyib. Qəhrəmanımızın qisasının alındığını bildirən parlamentin sədr müavini baş verən bütün insidentə görə günahın Ermənistanın siyasi-hərbi rəhbərliyinin daşıdığını bildirib.

*"Azərbaycan"*

# Milli Məclisin Sədr müavini Adil Əliyev İqdırda bir sıra görüşlər keçirib

Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyənin İqdır və Qars vilayətlərinə səfərdədir.



Nümayəndə heyəti ictimaiyyət nümayəndələri ilə birlikdə ilk olaraq dünən İqdır vilayətində Soyqırımı abidəsini və Muzeyini ziyarət edib. Nümayəndə heyəti ermənilər tərəfindən 1915-1920-ci illərdə törədilən soyqırımı zamanı şəhid edilmiş qardaşlarımızın əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib, dünyadan köçənlərin ruhlarına dualar oxuyub.

Daha sonra nümayəndə heyəti İqdır valiliyini ziyarət edib. Vali Hüseyn Engin Sarıibrahimlə keçirilən görüşdə Adil Əliyev ölkələrimiz arasındakı münasibətlərdən, tarixi dostluqdan bəhs edib. Türkiyə və Azərbaycanın dostluq və qardaşlığının həm tarixən, həm də müasir dövrdə qürurverici hadisələrlə zəngin olmasını, Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun 1918-ci ildə Azərbaycana gəlişi və yenicə müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin taleyində misilsiz rol oynadığını qeyd edib. Bildirilib ki, Nuru Paşa başda olmaqla türk əsgərlərinin azərbaycanlı qardaşlarının imdadına yetişməsi, Azərbaycan Xalq Cümhuriyyətinin paytaxt Bakının və digər bölgələrimizin düşmənlərdən azad edilməsində həlledici rol oynaması tarixi dostluğumuzun örnəklərindən biridir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibəti ilə 15 sentyabr 2018-ci ildə keçirilən paradda iştirak etmələrinin olduqca dəyərli hadisə olduğu diqqətə çatdırılıb.

Adil Əliyev qeyd edib ki, 2020-ci ildə Vətən müharibəsi zamanı ilk andan Türkiyənin Azərbaycana siyasi dəstəyini ifadə edərək ölkəmizin yanında olması qardaşlığımızın növbəti əyani təcəssümü oldu. Prezident Rəcəb Tayyib Ərdoğanın işğaldan azad edilmiş torpaqlarımıza və Şuşa şəhərinə səfər etmiş ilk xarici ölkə başçısı olduğunu bildirən parlamentin sədr müavini qeyd edib ki, 2021-ci ilin 15 iyun tarixində Azərbaycan və Türkiyə prezidentlərinin imzaladığı Şuşa Bəyannaməsi ilə strateji müttəfiqliyimiz və münasibətlərimiz yeni mərhələyə qədəm qoyub.

Daha sonra nümayəndə heyəti hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) İqdır il başqanlığını (təşkilatını) ziyarət edib. İl başqanı Ali Kemal Ayazla görüşdə mövcud vəziyyət müzakirə olunub, ölkələrimiz arasında dostluq və müttəfiqlik münasibətlərindən söz açılıb. Söhbət zamanı bir millət, iki dövlət olan Azərbaycanla Türkiyə arasında əməkdaşlığın daha da dərinləşdiyi, ölkələrimiz arasında münasibətlərin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyi bildirilib.

Vitse-spiker Adil Əliyev görüşdə Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsinin praktik təcəssümü olaraq Şuşada Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin imzalandığını qeyd edib. Bildirilib ki, bu bəyannamənin 15 iyun - Qurtuluş Günündə imzalanması ölkəmizdə bayrama bayram qatıb. O da qeyd olunub ki, Şuşa Bəyannaməsi qurtuluşumuzun məntiqi nəticəsi, Türkiyə-Azərbaycan qardaşlığının daha da möhkəmlənməsi deməkdir.

Görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə inkişaf etdiyini deyən Adil Əliyev bildirib ki, iki qardaş dövlətin müttəfiqliyi ümumilikdə türk dünyasının birliyi üçün çox əhəmiyyətlidir. Zəngəzur dəhlizi açıldıqdan sonra Türkiyə ilə Azərbaycan arasında quru yolla birbaşa əlaqənin olacağını qeyd edən Milli Məclisin Sədr müavini bunun həm region, həm də dünya üçün strateji əhəmiyyət daşıyacağını vurğulayıb.

Səfər zamanı yerli sakinlərlə də görüşən Adil Əliyev Azərbaycan və Türkiyə prezidentləri arasında olan dostluğun iki ölkənin münasibətlərinin inkişafına böyük töhfələr verdiyini bildirib. Türkiyənin qüdrətli olmasının Azərbaycan xalqını sevindirdiyini qeyd edən vitse-spiker qardaş dövlətin bu qüdrətə və inkişafa Prezident Rəcəb Tayyip Ərdoğanın rəhbərliyi ilə yetişdiyini deyib. Bildirilib ki, Prezident Rəcəb Tayyip Ərdoğanın yürütdüyü xarici siyasət nəticəsində Türkiyənin beynəlxalq nüfuzu və təsir dairəsi böyüyüb.

Görüşlərdə Milli Məclisin deputatı Cəbi Quliyev, Naxçıvan Ali Məclisinin deputatı Hüseyn Bağırsoylu, Vətən Müharibəsi Qəhrəmanı, şəhid Adil İbrahimlinin atası Asəm İbrahimov və qazi Oruc Salmanov iştirak ediblər.

*"Azərbaycan"*

# Yüksək qlobal nüfuzun növbəti təcəssümü

## İlham Əliyevə ünvanlanan məktubların hər biri dövlətimizin başçısına olan böyük ehtiramın göstəricisidir



**Müstəqillik Günü ilə əlaqdar Prezident İlham Əliyevin ünvanına xarici ölkə rəhbərlərinin adından təbrik məktubları gəlməkdədir.**

Artıq indiyə kimi Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef R.Bayden, Böyük Britaniya və Şimali İrlandiyanın Kralı III Çarlz, Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer, Yaponiyanın İmperatoru Naruhito, İndoneziya Respublikasının Prezidenti Coko Vidodo, Mavritaniya Prezidenti Məhəmməd vələd əş-Şeyx əl-Ğəzvani, İraq Baş naziri Məhəmməd Şiya əs-Sudani, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidentini təbrik ediblər.

### Azərbaycanın töhfələri rəğbətlə qarşılanır

Əlbəttə, bu məktubların hər biri ilk növbədə Prezident İlham Əliyevin şəxsiyyətinə qlobal səviyyədə olan yüksək ehtiramın göstəricisidir. Qürur hissi ilə qeyd edilməlidir ki, Prezident İlham Əliyevin adı dünyanın ən nüfuzlu siyasi liderləri ilə bir sırada çəkilir. Bütün böyük dövlətlərin rəhbərləri İlham Əliyevə rəğbətlə yanaşırlar. Azərbaycan Prezidentinə müxtəlif vaxtlarda, əlamətdar günlərdə ünvanlanan bütün məktublar, keçirilən görüşlərdə səslənən fikirlər bunu təsdiq edir.

Bunun səbəblərindən biri Prezident İlham Əliyevin özünün yüksək şəxsi keyfiyyətləri, dövlət başçısı kimi həyata keçirdiyi siyasətin məzmunu, qlobal gündəlikdəki məsələlərlə bağlı baxışları, problemlərin həllinə töhfələridir. Bu gün tarixinin ən qüdrətli mərhələsini yaşayan, regionda və dünyada söz sahibi olan dövlət kimi tanınan Azərbaycan beynəlxalq aktual məsələlərin müzakirəsində yaxından iştirak edir. Respublikamızın enerji siyasəti qlobal miqyasda enerji təhlükəsizliyinə böyük töhfələr verməkdədir. Azərbaycan hər zaman əməkdaşlığa sadiq olub, çətin vəziyyətə düşən tərəfdaşlarına həmişə arxa durub. Elə buna görə də respublikamız sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən və sözünə sadiq dövlətlər sırasında yer alıb.

Bu günlərdə İlham Əliyevi təbrik edən ABŞ Prezidenti Cozef R.Bayden məktubunda Azərbaycanın qlobal problemlərin həllinə töhfələrini belə dəyərləndirir: "Biz birlikdə terrorizmlə mübarizə aparır, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı tədbirlər görür və kütləvi qırğın silahlarının yayılmasının qarşısını alırıq. Xüsusən, Rusiyanın Ukrayna xalqına qarşı qəddar müharibəsi dövründə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində biz bir yerdə olmuşuq".

Birləşmiş Ştatların Azərbaycanla Ermənistan arasında dayanıqlı və ədalətli sülhü dəstəkləməyə davam edəcəyini bildirən ABŞ Prezidenti həmçinin təhlükəsizlik və iqtisadi əməkdaşlığın dərinləşdirilməsi də daxil olmaqla, tərəfdaşlığı daha da gücləndirməyi həvəslə gözlədiyini vurğulayıb.

### İlham Əliyevin apardığı islahatlar layiqli nəticələrini verməkdədir

Prezident İlham Əliyevə ünvanlanan məktublar eyni zamanda Azərbaycanın inkişafına, yüksəlişinə verilən qiymətdir. "Sizin uzaqgörən daxili və xarici siyasətiniz, iqtisadi və sosial sahələrdə həyata keçirdiyiniz sürətli islahatlar bu gün layiqli nəticələrini verməkdədir, Azərbaycanın beynəlxalq aləmdə mövqeyi və nüfuzu durmadan artmaqdadır. Bu xüsusda regionda sülhün və davamlı inkişafın təmin edilməsi istiqamətində həyata keçirdiyiniz ədalətli və qətiyyətli səylərinizi tamamilə dəstəklədiyimizi bir daha qeyd etmək istərdim, - deyə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev bu xüsusda yazır.

Azərbaycan Prezidentini təbrik edən dövlət rəhbərlərindən biri də Almaniya Prezidenti Frank-Valter Ştaynmayerdir. İlham Əliyevin bu ilin fevral və mart aylarında Almaniyaya səfərlərinin iki ölkə arasında sıx dostluq münasibətlərini daha da gücləndirdiyini bildirən Frank-Valter Ştaynmayer məktubunda onu da bəyan edib ki, Almaniya, həmçinin Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlıq münasibətlərini dəstəkləyir.

Prezident İlham Əliyevin və dövlətimizin beynəlxalq nüfuzunun yüksəlməsinə təsir edən əsas amillərdən biri də torpaqlarımızın işğaldan azad edilməsidir. Bu məsələdə mühüm məqam həm də ondan ibarətdir ki, Azərbaycanın qələbəsi beynəlxalq səviyyədə qəbul olunur. Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin "Əminəm ki, Azərbaycan, eləcə də bütün bölgə regional münaqişələrin həllindən faydalanacaqdır. Biz Avropa İttifaqının üzvü kimi buna fəal töhfə vermək istəyirik" deməsi isə həm də ondan xəbər verir ki, Qarabağ probleminin həllini tapması da əsas qlobal məxrəclərdən biridir.

### Azərbaycanın uğurları İlham Əliyevin liderlik keyfiyyətlərinə və qətiyyətli siyasətinə söykənir

Azərbaycanın dost və tərəfdaş olduğu dövlətlərdən biri də Böyük Britaniyadır. Təsadüfi deyil ki, Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə və Azərbaycan xalqına ən səmimi təbriklərini çatdıran Böyük Britaniya və Şimali İrlandiyanın Kralı III Çarlz çətinliklərin yaşandığı indiki dövrdə ölkələrimiz arasında mehriban dostluğun və güclü tərəfdaşlığın davam edəcəyinə ümidvar olduğunu bildirib. O cümlədən Yaponiyanın imperatoru, İndoneziya və Mavritaniyanın prezidentləri, İraqın baş naziri öz təbrik məktublarında ən xoş arzularını ifadə ediblər. Təbii ki, qarşıdakı günlərdə növbəti belə məktubların şahidi olacağıq.

Prezident İlham Əliyevə ünvanlanan məktublar bir daha lider amilinin dövlətlərin və xalqların həyatında nə qədər vacib rol oynadığını göstərir. Dövlətin yüksəlişində, tanınmasında, beynəlxalq aləmdə nüfuz qazana bilməsində lider faktorunun əhəmiyyəti tarix boyu özünü göstərib. Lideri olmayan dövlət üzləşdiyi taleyüklü problemlərin həllində aciz qalar. Lideri olmayan dövlətin, xalqın taleyi həmişə sual altında olmuş və olacaq. Azərbaycanın qazandığı hər bir uğur da Prezident İlham Əliyevin yüksək liderlik keyfiyyətlərinə və qətiyyətli siyasətinə söykənir. Dövlət və hökumət başçıları, xüsusən dünyanın tanınmış rəhbərləri, təbrik məktublarını məhz İlham Əliyev kimi güclü və nüfuzlu liderlərə göndərirlər.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycanın mövqeyi dəyişməzdir

## İlham Əliyev 2023-cü ili sülh üçün son fürsət kimi dəyərləndirib



**Son bir ay ərzində Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması istiqamətində müxtəlif səviyyələrdə görüşlər keçirilib. Mayın 1-dən 4-nə kimi Vaşinqtonda Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan XİN başçısı Ararat Mirzoyan arasında görüş olub.**

ABŞ Dövlət katibi Entoni Blinkenin vasitəçiliyi ilə aparılan danışıqlarda nazirlər və onları müşayiət edən nümayəndə heyətinin üzvləri "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" ikitərəfli saziş layihəsinin bəzi maddələri üzrə qarşılıqlı razılıq əldə ediblər.

Tərəflər arasında növbəti görüş mayın 14-də Avropa İttifaqı Şurası Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Brüsseldə olub. Brüsseldə sayca 5-ci görüşdə sülh müqaviləsi yenidən müzakirə edilib. Bu görüş də əvvəlki görüşlərdəki kimi, Azəbaycanın diplomatik üstünlüyü ilə başa çatıb. İlham Əliyev hər zaman olduğu kimi, mövqeyində dəyişikliyin olmadığını, sülh müqaviləsinin yalnız təklif etdiyi 5 məlum prinsip əsasında imzalana biləcəyini vurğulayıb.

Son olaraq mayın 19-da Moskvada üç ölkənin XİN başçıları səviyyəsində növbəti görüş keçirilib. Lavrovun iştirakı ilə baş tutan görüşdə Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması barədə müzakirələr aparılıb. XİN-in yaydığı məlumatda qeyd olunub ki, nazir Ceyhun Bayramov və Ararat Mirzoyan Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladıqları üçtərəfli Bəyanatın icrası ilə bağlı mövqelərini təqdim ediblər. Tərəflər "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsi üzərində işi davam etdiriblər. Bundan əlavə, nazirlər arasında hələ də fikir ayrılıqlarının mövcud olduğu mövzular ətrafında konstruktiv fikir mübadiləsi aparılıb. XİN başçıları, həmçininin Azərbaycan və Ermənistan arasında danışıqların təşkilinə görə Rusiya tərəfinə minnətdarlıqlarını bildirib, müzakirələri davam etdirmək barədə razılığa gəliblər.

Ölkə rəhbərləri səviyyəsində növbəti görüşlərin isə mayın 25-də Moskvada, iyun ayında Kişinyovda, iyul ayında isə yenidən Brüsseldə olacağı gözlənilir. Yəni may ayının 25-də görüş baş tutarsa, bu, bir ayda 4-cü görüş olacaq.

İlham Əliyevlə Nikol Paşinyan arasında keçirilən görüşlərə gəlincə isə bu, sayca 10-cu görüş olacaq. Bunadək tərəflər 5 dəfə Brüsseldə, 2 dəfə Soçidə, 1 dəfə Praqada, 1 dəfə Moskvada üçtərəfli görüşlər keçiriblər.

Bütün görüşlərdə Azərbaycanın mövqeyi dəyişməz olaraq qalıb. Yəni sülh müqaviləsi yalnız İlham Əliyevin təklif etdiyi 5 prinsip əsasında imzalanmalıdır. Əgər, Hayastan bundan imtina edərsə, sülh sazişi bağlanmayacaq.

Elə mayın 14-də Brüsseldə Prezident İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan baş naziri Nikol Paşinyan arasında keçirilən sonuncu üçtərəfli görüşdə də Azərbaycan Prezidenti bir daha dəyişməz mövqeyini bəyan etdi. Görüşün yekunlarına dair mətbuata açıqlama verən Aİ Şurası Prezidenti qeyd etdi ki, danışıqlarda sərhədlərin delimitasiyası ilə bağlı atılacaq növbəti addımlar müzakirə olunub, tərəflər regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində aydın irəliləyişə nail olublar. Xüsusən Naxçıvana və əks istiqamətdə dəmir yolu əlaqəsinin bərpasına dair mövqelər olduqca yaxınlaşıb. Dəmir yolu əlaqələrinin bərpası ilə bağlı modallıqları və konkret qrafik üzrə zəruri inşaat işlərini özündə ehtiva edəcək ümumi razılaşmanın yekunlaşdırılmasına dair müvafiq heyətlərə təlimatlar verilib. Bu işdə tərəflər Ümumdünya Gömrük Təşkilatından dəstək alınmasına dair razılığa gəlib.

Eyni zamanda 1991-ci ilin Alma-Ata Bəyannaməsinə və Ermənistanın 29800 kvadratkilometr, Azərbaycanın 86600 kvadratkilometr ərazisinin toxunulmazlığına birmənalı sadiqliklərini təsdiq ediblər. Sərhədlərin delimitasiyasının yekunlaşdırılması danışıqlar vasitəsilə baş tutacaq.

Gözlənildiyi kimi, Brüssel görüşü də Rəsmi Bakının İrəvan üzərindəki növbəti diplomatik zəfəri kimi yadda qaldı. Bu görüşdə İlham Əliyev Ermənistanı tarixi həqiqətlərin etirafına vadar etdi. Brüssel görüşünün ən önəmli məqamı Ermənistanın Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazisini tanıması, bununla bağlı rəsmi açıqlama ilə çıxış etməsidir. Bu da onu göstərir ki, Ermənistan otuz illik işğal siyasətinə, həmçinin postmüharibə dövründəki səylərinə baxmayaraq, Azərbaycandan bir qarış belə ərazi əldə edə bilməyəcəyini anlayır.

Bəs görəsən, ikinci Moskva görüşündə hansı irəliləyişlər ola bilər?!

Bəllidir ki, Rusiya tərəflər arasında sülh müqaviləsi danışıqlarının başlanmasını yaradan vasitəçidir. Rusiya regionda sülhün tərəfdarıdır və yeni nəqliyyat-kommunikasiyaların açılmasında maraqlıdır. XİN başçılarının görüşündən sonra dövlət başçıları səviyyəsində keçiriləcək görüşdə müəyyən razılıqlar əldə olunarsa, növbəti görüşdə artıq sülh müqaviləsi üçün müəyyən addımların atıla bilməsi mümkündür. Çünki Azərbaycan daha 30 il İrəvanı gözləyə bilməz və təsadüfi deyil ki, İlham Əliyev 2023-cü ili sülh üçün son fürsət kimi dəyərləndirib. Hayastanın zamanı məhduddur. Yoxsa, sonrakı peşmançılıq fayda verməyəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Ermənistan tez, ya gec sülh sazişini imzalamağa məcburdur

## Tərəflərin növbəti görüşü bu prosesə doğru addımların atılması baxımından mühüm ola bilər

Azərbaycan Vətən müharibəsində Ermənistan üzərində qələbə çaldıqdan, Hayastan kapitulyasiya aktını imzaladıqdan sonra ötən 3 ilə yaxın müddətdə iki ölkə arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi imzalanması istiqamətində danışıqlar üçün müxtəlif görüşlər keçirilib.

İndiyədək Rusiyanın vasitəçiliyi ilə Soçidə iki, Moskvada bir, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə Brüsseldə beş və Praqada bir görüş baş tutub. Bundan başqa, sülh sazişi ilə bağlı işlərin sürətləndirilməsi baxımından Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində də bir neçə dəfə danışıqlar aparılıb.

Mayın 14-də sonuncu Brüssel görüşündə sərhədlərin delimitasiyası ilə bağlı atılacaq növbəti addımlar müzakirə olunub, tərəflər regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində irəliləyişə nail olublar. Xüsusən Naxçıvana və əks istiqamətə dəmir yolu əlaqəsinin bərpasına dair mövqelər olduqca yaxınlaşıb.

Eyni zamanda Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və sərhədlərin delimitasiyası ilə bağlı növbəti danışıqların baş tutacağı bildirilib.

Bu baxımdan Prezident İlham Əliyev və Nikol Paşinyan arasında keçirilməsi gözlənilən növbəti görüşü münasibətlərin normallaşdırılması və sülhə doğru addımların atılması baxımından mühüm ola bilər.

### Növbəti görüş bir sıra vacib məsələlərə aydınlıq gətirilməsi ilə yadda qalacaq

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında bildirib ki, son dövrlər Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına diqqət xüsusi artıb. Prezident İlham Əliyevlə Ermənistanın baş naziri arasında mayın 14-də Brüsseldə baş tutan görüş Azərbaycanın öz mövqeyində qətiyyətli olduğunu, proseslərə tam nəzarət etdiyini bir daha göstərib.





Deputat qeyd edib ki, Ermənistan hər zaman Azərbaycana qarşı hərbi təxribatlar törədərək onun ardınca siyasi təxribatlar üçün zəmin yaratmağa çalışıb: "Hətta Brüssel görüşünün axşamı da Ermənistan təxribatlar törətdi. Reallıq odur ki, Hayastan hər vasitə ilə sülh sazişinin bağlanmasını maksimum uzatmağa çalışır. Paşinyanın Azərbaycanla münasibətləri normallaşdırmağa hazır olması ilə bağlı səsləndirdiyi fikirlər isə sadəcə olaraq görüntü yaratmaq üçündür".

Mayın 19-da Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Moskvada keçirilən görüşünü xatırladan E.Mirbəşiroğlu bildirib ki, Rusiya xarici işlər naziri Lavrov görüşlə bağlı bir sıra məqamlara toxunub. Əsas məqam isə yekun sülh sazişinin mətni üzərində işlərin aparılması üçün ilkin şərtlərin təmin olunmasıdır. "Azərbaycan tərəfi güclü mövqeyə malikdir. Beləliklə, yekun sülh müqaviləsinin imzalanması üçün ilkin şərtləri irəli sürmüşük və regionda nəqliyyat əlaqələrinin qurulması istiqamətində də həmişə prinsipial mövqe sərgiləmişik. Rusiyanın əsas mövqeyi ondan ibarətdir ki, imzalanmış sənədlərdə ifadə olunmuş şərtlərə uyğun addımlar atılsın. Mahiyyət etibarilə bu şərtlər Azərbaycanın maraqlarına cavab verir. Xüsusilə 2020-ci il 10 noyabr tarixində imzalanmış birgə bəyanatın 9-cu maddəsində Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin yaradılması Prezident İlham Əliyevin təşəbbüsü idi. Onun iradəsi ilə bu maddə sənəddə əksini tapıb. Bütün bunlar onu göstərir ki, Azərbaycan davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün hər zaman prinsipial mövqe sərgiləyir", - deyə deputat əlavə edib.

Bu gün yekun sülh sazişinin olmamasının məsuliyyətini Ermənistanın daşıdığını deyən E.Mirbəşiroğlu hesab edir ki, bununla bağlı Rusiyada aydın təsəvvürlər mövcuddur.

Növbəti görüşün Rusiyada keçiriləcəyi halda Azərbaycan yenə öz mövqeyindən çıxış edərək regionda sülhün və təhlükəsizliyin təmin olunması ilə bağlı öz baxışlarını sərgiləyəcək. Ermənistan Qərbin təlimatları əsasında Rusiyaya qarşı demarş sərgiləyir: "Sergey Lavrov xüsusi vurğuladı ki, Qərb Ermənistanı Rusiyadan uzaqlaşmağa məcbur edir. Deməli, Nikol Paşinyan da Qərbdən daha çox nələrsə almaqla Rusiyadan uzaqlaşmaq istiqamətində addımlar atmağa hazır olduğunu göstərir. Paşinyanın davranışları Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi məsələsini Qərblə Rusiya arasında geosiyasi mübarizənin predmetinə çevirir. Təbii ki, bu, Rusiyanı düşündürür və Paşinyana region üçün təhlükəli davranışları ilə bağlı siqnallar ötürür".

Deputat hesab edir ki, Moskva ilə Bakının regionda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində baxışlarında oxşarlıq var, çünki hər iki tərəf imzalanmış sənədlərdəki şərtlərə əməl olunmasının vacibliyindən çıxış edirlər.

E.Mirbəşiroğlunun sözlərinə görə, Moskva görüşü bir sıra vacib məsələlərə aydınlıq gətirilməsi ilə yadda qalacaq.

### Nəticədən asılı olmayaraq növbəti görüş keçirilməsi vacibdir

Milli Məclisin deputatı Ceyhun Məmmədov qeyd edib ki, Rusiyada keçirilməsi gözlənilən görüşün nəticələri Azərbaycandan daha çox, Ermənistanın özünü necə aparmasından və məsələyə necə yanaşmasından asılıdır.

Deputat qeyd edib ki, Azərbaycan sülhdə maraqlıdır və bunun üçün bütün zəruri addımları atır: "Amma Hayastan münasibətlərin normallaşması istiqamətində heç bir addım atmır, daha çox təxribatlara üstünlük verir. Rusiyada keçirilməsi planlaşdırılan görüşdəki gözləntilərdən asılı olmayaraq, Azərbaycan danışıqlar aparmalıdır".

Ceyhun Məmmədov bildirib ki, Azərbaycanla Ermənistan arasında danışıqların müxtəlif formatları var. İstər Avropa İttifaqı Şurasının keçirdiyi Brüssel görüşlərində, istərsə də, Rusiya və ABŞ vasitəçiliyi ilə danışıqlarda nəticənin olub, olmamasından asılı olmayaraq, iştirak etməli və mövqeyimizi çatdırmalıyıq. Bu, çox önəmlidir.

Azərbaycan tərəfinin üzərinə düşən öhdəlikləri yerinə yetirdiyini vurğulayan deputat əlavə edib ki, dövlətimiz qarşıya qoyduğu məqsədlərə və hədəflərə çatır.

"Mayın 25-də keçirilməsi nəzərdə tutulan görüşdən çox ciddi nəticə gözləməsəm də, hər halda bu, önəmli addımdır. Hesab edirəm ki, bu prosesdə fəal olmalıyıq. Öz mövqeyimizi və yanaşmamızı mütləq ortaya qoymalı və prosesə davam etməliyik. Əminəm ki, bir gün yekun sülh müqaviləsinin imzalandığını görəcəyik", - deyə C.Məmmədov əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Litva münasibətləri: Dərinləşən dialoq və açılan yeni əməkdaşlıq istiqamətləri

**Son illər Azərbaycanın dünya miqyasında nüfuzu artmaqda, beynəlxalq əlaqələri genişlənməkdədir. Prezident İlham Əliyevin müxtəlif ölkələrə ardıcıl səfərləri və ayrı-ayrı dövlətlərin başçılarının Azərbaycana səfərləri bunun bariz nümunəsidir. Eyni zamanda Azərbaycanın rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı layihələr ölkəmizə marağı getdikcə artırır.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Litva Respublikasına rəsmi səfəri ölkəmizin xarici əlaqələrinin coğrafiyasının genişlənməsi baxımından da mühüm əhəmiyyətə malikdir. Belə ki, səfər çərçivəsində bir sıra yüksəksəviyyəli görüşlərin keçirilməsi və mühüm sənədlərin imzalanması nəzərdə tutulur.

AZƏRTAC Azərbaycan-Litva əlaqələrinə qısa nəzər salır. Azərbaycan və Litva tarixi əlaqələrə malikdir. Hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə Litvanın ölkəmizdə konsulluğu fəaliyyət göstərib. Görkəmli şəxsiyyət Vincas Kreve-Mickevicisun 1919-cu ildə müstəqil Azərbaycan dövlətində Litvanın konsulu kimi çalışıb. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) litvalı dövlət xadimi və yazıçı Vincas Kreve-Mickevicisun adını daşıyan auditoriya var.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordumuzun Baş Qərargah rəisi olmuş general-leytenant Məhəmməd (Matvey, Matsey) Sulkeviç mənşəcə Litva tatarlarındandır. 1920-ci ildə cümhuriyyət süqut etdikdən sonra o, bolşeviklər tərəfindən həbs olunub və Bayıl həbsxanasında güllələnib. Azərbaycanın görkəmli dövlət xadimi olan general-leytenant güllələnmə üçün aparılarkən "Xoşbəxtəm ki, müsəlman ordusunun əsgəri kimi ölürəm" söyləyib.

Cümhuriyyət dövründə "Kriçinski qardaşları" da məşhur olublar. Belə ki, Aslan bəy Kriçinski Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Kabinetinin dəftərxanasının rəhbəri olub. Cümhuriyyət süqut etdikdən sonra o, əvvəlcə İstanbula, sonra Vilnüsə gedib. Onun "Vilnüs məscidinin tarixi" adlı elmi əsəri də var. Aslan bəy Kriçinskinun buraxdığı "Tatar salnaməsi" jurnalının ilk sayı müəllifi olduğu "Milli hərəkat və Litva tatarları" məqaləsi ilə açılır.

Vilnüsdə doğulmuş Olgerd bəy Kriçinski Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədliyyə nazirinin müavini olub. O da sovet hakimiyyətinin repressiyasının qurbanı olub, sovet qoşunlarının ələ keçirdiyi Vilnüsdə 1941-ci ildə NKVD tərəfindən həbs edilib və 1942-ci ildə Smolenskdə güllələnib. Olgerd bəy Kriçinski Azərbaycanın haqq səsini cümhuriyyətin süqutundan sonra da müdafiə edib, məqalələrində Azərbaycanın ilk baş naziri Fətəli xan Xoyskinin ermənilər tərəfindən öldürülməsinə açıq işarə edib. Olgerd bəy Kriçinski Azərbaycanın müstəqil dövlətçiliyinə dair məqalələrin də müəllifidir. O, yazılarında azərbaycanlıların güclü milli təəssübkeşlik hissindən fəxarətlə söz açıb, Azərbaycana dərin məhəbbətini ifadə edib.

## Ölkələrimiz arasında diplomatik münasibətlər və strateji tərəfdaşlıq kifayət qədər dərindir

Litva Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biridir (20 dekabr 1991-ci il). İki ölkə arasında diplomatik münasibətlər 1995-ci ildə qurulub. 2007-ci ilin aprelində Litvanın Azərbaycanda, həmin ilin sentyabrında isə ölkəmizin Litvada səfirliyi açılıb.

Azərbaycan və Litva strateji tərəfdaşlardır. İki ölkə arasında indiyədək 41 sənəd imzalanıb. Həmin sənədlər içərisində 2007-ci il sentyabrın 13-də Vilnüsdə imzalanmış "Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin Tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında Birgə Bəyannamə" xüsusi yer tutur.

Azərbaycan eyni zamanda Litva üçün Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində çox önəmli ölkə, həmçinin bütün ittifaq üçün strateji enerji tərəfdaşıdır.

Litva Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının təşviqinə fəal töhfə verən ölkələrdən biridir. Azərbaycanın Avropa İttifaqı üçün önəminin daha bir nümunəsi qurumun 9 üzv ölkəsi ilə artıq strateji tərəfdaşlıq haqqında bəyannamə imzalamasıdır. Bu, üzv dövlətlərin üçdəbiri deməkdir.

Azərbaycan Avropa İttifaqının Tvinninq proqramı üzrə Litvanın ən yaxın tərəfdaşlarından biridir. 2007-2022-ci illərdə Litva Azərbaycanda keçirilən 26 layihə seçimində iştirak edib və onlardan 17-sində qalib gəlib. Ümumi dəyəri 20 milyon avro olan bu layihələrdən 12-si artıq reallaşdırılıb, 5-i isə icra mərhələsindədir.

Bundan əlavə, 2008-ci il aprelin 21-də Bakıda imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında iqtisadiyyat, sənaye və enerji sahələrində əməkdaşlıq haqqında Saziş"ə əsasən, ikitərəfli əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya təsis olunub. Komissiyanın həmsədrləri iki ölkənin xarici işlər nazirləridir. Komissiyanın 7-ci iclası bu ay - mayın 8-də Vilnüsdə keçirilib.

Azərbaycan ilə Litva arasında qarşılıqlı maraqlara, beynəlxalq hüququn fundamental norma və prinsiplərinə əsaslanan strateji tərəfdaşlıq münasibətləri getdikcə inkişaf edir, yüksəksəviyyəli rəsmi təmaslar, səfərlər intensivləşir, mütəmadi görüşlər münasibətlərin inkişafına töhfə verir;

Milli Məclisdə Litva ilə parlamentlərarası əlaqələr üzrə işçi qrup, Litva Seymində isə Azərbaycanla parlamentlərarası əlaqələr qrupu fəaliyyət göstərir.

**İqtisadi münasibətlər:** 2022-ci ildə Litva ilə Azərbaycan arasında ticarət dövriyyəsi təxminən 33 milyon ABŞ dolları olub. Azərbaycanda xüsusilə nəqliyyat, tikinti, ticarət, xidmət sahələrində Litva investisiyalı 20 kommersiya qurumu fəaliyyət göstərir. Ümumilikdə Azərbaycandan Litvaya 36 milyon ABŞ dolları məbləğində sərmayə qoyulub.

**Digər sahələr:** İki ölkənin təhsil sahəsində də əlaqələri genişlənir. Hazırda Litvada 239 azərbaycanlı tələbə təhsilini davam etdirir.

Azərbaycan və Litva şəhərləri qardaşlaşıb. Bu xüsusda Şəmkir-Şyaulyay, Qazax-Trakay, Ağstafa-Birştonas və Səbail-Druskininkay qardaş şəhər və rayonlardır.

## Prezident İlham Əliyevin rəsmi səfəri əlaqələrimizin daha da genişlənməsinə mühüm təkan verəcək

Azərbaycan və Litvanın dövlət başçıları bu il yanvarın 18-də Davosda görüşüblər. Görüş zamanı Prezident Gitanas Nauseda dövlətimizin başçısını ölkəsinə səfərə dəvət edib və dəvət Azərbaycan Prezidenti tərəfindən qəbul olunub.

Qeyd edək ki, bu səfər Prezident İlham Əliyevin Litvaya sayca 4-cü səfəridir. Bundan əvvəl Azərbaycanın dövlət başçısı Litvaya bir rəsmi və iki işgüzar səfər edib. Rəsmi səfər 2007-ci il sentyabrın 13-14-də, işgüzar səfərlər isə Vilnüs Enerji Təhlükəsizliyi Konfransı ilə əlaqədar 2007-ci il oktyabrın 10-11-də, Şərq Tərəfdaşlığı Sammiti ilə bağlı isə 2013-cü il noyabrın 29-da reallaşıb.

Prezident İlham Əliyevin budəfəki səfəri zamanı litvalı həmkarı Gitanas Nauseda, həmçinin bu ölkənin Baş naziri İnqrida Şimonite ilə görüşlərinin, mühüm sənədlərin imzalanması mərasiminin və biznes forumun keçirilməsi nəzərdə tutulur. İki ölkənin rəhbəri, həmçinin mətbuata bəyanatlarla çıxış edəcək. Ümumiyyətlə, səfərin proqramının kifayət qədər geniş olması onun əlaqələrimizin daha da genişlənməsinə mühüm təkan verəcəyini deməyə əsas verir.

Son bir ildə həyata keçirilmiş yüksəksəviyyəli təmaslar - 2022-ci il mayın 17-19-da Litva Respublikasının Prezidenti Gitanas Nausedanın Azərbaycana rəsmi səfəri, 2023-cü il yanvarın 18-də Davosda keçirilmiş görüş və hazırkı rəsmi səfər iki ölkə arasında gücləndirilmiş siyasi dialoqun mühüm göstəriciləridir.

**Litva haqqında bəzi qeydlər:**

Litvanın Klaypeda dəniz limanı Baltik regionunda ən böyük limandır və buz bağlamır. Litvada Konstitusiya Fransadan daha əvvəl - 1791-ci il mayın 3-də qəbul edilib. Bu ölkədə ali təhsilin başlanğıcı Vilnüs Universitetinin yarandığı 1579-cu ilə gedib çıxır. Vilnüs Universiteti Şərqi Avropada ilk universitet hesab olunur. Əhalisinin sayı 2,8 milyon nəfər olan Litvada gənclərin 56 faizi ali təhsillidir və o, bu göstəriciyə görə Avropa İttifaqında lider mövqeyindədir. Bu ölkədə ən məşhur idman növü isə basketboldur.

# Daha 19 Vətən müharibəsi iştirakçısı polis orqanlarında xidmətə qəbul edilib





Mayın 22-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.

Sıra baxışında DİN-ə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 132 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 19 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edib. O, seçim turunun digər mərhələlərində də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Azərbaycan XİN-in nümayəndə heyəti ABŞ-də bir sıra görüşlər keçirib

Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti ABŞ-yə işgüzar səfər edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, səfərin ilk həftəsi, mayın 18-də nümayəndə heyəti ABŞ Senatının üzvləri Senator Tom Koton, Senator Ben Kardin, Konqresin Nümayəndələr Palatasının üzvləri Cək Berqmən, Çak Flayşmən, Mayk Ezel və Robert Aderholt ilə görüşüb.

Görüşlərdə ABŞ-Azərbaycan ikitərəfli əlaqələri, həmçinin regionda gedən proseslər, eyni zamanda Ermənistanla aparılan sülh danışıqları barədə qarşı tərəf məlumatlandırılıb.

Konqres üzvləri, həmçinin postmünaqişə dövründə davam edən mina təhdidləri, bərpa və yenidənqurma işləri barədə məlumatlandırılıblar.

Görüşlərdə, "Laçın" sərhəd-buraxılış məntəqəsinin təsis edilməsi ilə əlaqədar ABŞ-da fəaliyyət göstərən radikal erməni təşkilatlarının Konqres üzvlərinə təqdim etdikləri həqiqətə uyğun olmayan və əsassız məlumatların, bu çərçivədə ABŞ Konqresinin üzvləri tərəfindən birtərəfli və ABŞ-nin milli maraqlarına xidmət etməyən qətnamələrin irəli sürülməsinin iki ölkə arasında əlaqələrlə yanaşı, hazırda davam edən sülh danışıqlarına da zərər verdiyi vurğulanıb.



Görüşlərdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Eyni gündə nümayəndə heyəti ABŞ-Azərbaycan Ticarət Palatasını ziyarət edib, Kolumbiya əyaləti və ətraf ştatlarda yaşayan Azərbaycan icmasının fəalları ilə görüşüb.

Nazir müavini və nümayəndə heyəti iyunun 21-də Nyu York şəhərində Azərbaycan bayrağının ucaldılması tədbirində iştirak edərək, orada çıxış edib.

Səfər çərçivəsində nümayəndə heyətinin Nyu York şəhər meriyasının xarici əlaqələr komissiyasının sədri Edvard Mermelştayn ilə görüşü keçirilib.

Nazir müavini Nyu Yorkda, həmçinin yerli azərbaycanlı icması ilə də görüşüb.

Nümayəndə heyətinin ABŞ-yə səfərinin mayın 24-dək davam etməsi və digər rəsmi şəxslərlə görüşlərin keçirilməsi nəzərdə tutulur.

# "Gənclər üçün Dayanıqlı İnkişaf Məqsədləri və Maliyyə Akademiyası" mövzusunda təlim proqramına yekun vurulub





ADA Universitetində "Gənclər üçün Dayanıqlı İnkişaf Məqsədləri və Maliyyə Akademiyası" mövzusunda təlim proqramı yekunlaşıb.

AZƏRTAC xəbər verir ki, bununla bağlı keçirilən tədbirdə ADA Universitetinin icraçı prorektoru, İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək davamlı inkişaf sahəsində Gündəliyin"dən irəli gələn Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) tələbələr arasında təbliği, onların bu sahədə baxışlarının formalaşdırılması üçün təlimin keçirilməsinin əhəmiyyətindən danışıb.

Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov ölkəmizin BMT-yə üzv olduğu tarixdən etibarən təşkilatla əməkdaşlığın uğurla davam etdiyini, bu müddət ərzində BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə bir sıra layihələrin icra olunduğunu diqqətə çatdırıb. Hazırda ölkəmizdə DİM-lərə investisiyanın cəlb edilməsinə dair DİM İnvestisiya Xəritəsi layihəsi hazırlanır. Bu layihə çərçivəsində 2023-cü ilin noyabr ayında Bakıda DİM-lərin həyata keçirilməsində beynəlxalq və regional tərəfdaşlığın gücləndirilməsi üçün BMT-nin İnkişaf Proqramı ilə birgə "Dayanıqlı İnkişafa dair ikinci Bakı Forumu"nun keçiriləcəyi nəzərdə tutulur. Şöbə müdiri DİM-lərin icrasında maarifləndirmənin əhəmiyyətini vurğulayıb, keçirilən təlim proqramının bu xüsusda vacibliyini qeyd edib.

BMT-nin İnkişaf Proqramının ölkə üzrə rezident nümayəndəsi Nuno Queiros DİM-in Azərbaycanda icrası istiqamətində səmərəli tədbir qurumun Azərbaycan Hökuməti ilə səmərəli əməkdaşlığından məmnunluğunu ifadə edib, həyata keçirilən layihələrin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyin" Azərbaycanda səmərəli icrası baxımından əhəmiyyətini vurğulayıb.

Gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, BMT-nin Əhali Fondunun Ölkə üzrə Nümayəndəliyinin rəhbəri Fərid Babayev dayanıqlı inkişafın təmin olunmasında keyfiyyətli təhsilin rolu, gənclərin qlobal məqsədlərin uğurla icrası istiqamətində yetərli bilik və bacarıqlara yiyələnməsi, qlobal siyasi müzakirələrin həllində fəal rol almalarının önəmindən danışıblar.

İnteraktiv sessiyalarla davam edən tədbirdə müvafiq dövlət orqanları və BMT-nin İnkişaf Proqramının nümayəndələrinin moderatorluğu və ali təhsil müəssisələrinin tələbələrinin iştirakı ilə təlimə cəlb edilmiş tələbələr tərəfindən hazırlanan "Sağlamlıq və rifah üçün səhiyyə sistemi", "Keyfiyyətli və ömür boyu təhsilə nail olmaq istiqamətində sosial dialoqun təşkili və maliyyənin təmini" və "Kənd təsərrüfatı texnologiyalarının iqlim dəyişikliyi ilə mübarizədə rolu" layihələri müzakirə edilib.

Sonda tələbələrə sertifikatlar təqdim olunub.

# Hərbi Hava Qüvvələrində "Gizir hazırlığı kursu"nun ilk buraxılış mərasimi olub

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, ordu sıralarında xidmət edən hərbi qulluqçuların hazırlıq səviyyəsinin və bölmələrin döyüş qabiliyyətinin daha da artırılması istiqamətində görülən işlər davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, cari ilin hazırlıq planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin Təlim və Tədris Mərkəzində "Gizir hazırlığı kursu"nun ilk buraxılış mərasimi keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Buraxılış mərasimində çıxış edənlər məzunlara Hərbi Hava Qüvvələri Komandanının təbriklərini çatdıraraq hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında belə kursların əhəmiyyətindən danışıb, məzunlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Kursu bitirən hərbi qulluqçular təhsil müddətində yaradılan şərait və təhsil prosesindən razılıqlarını bildiriblər.

Məzunlar göstərilən etimadı doğrultmaq üçün burada qazandıqları bilik və vərdişləri xidmətdə inamla tətbiq edərək xidməti vəzifələrinin icrasına daha məsuliyyətlə yanaşacaqlarına, Azərbaycan Ordusunun hərbi qulluqçusu adını şərəflə daşıyacaqlarına söz veriblər.

Məzunlara sertifikatlar təqdim olunduqdan sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

# Azərbaycanda səsvermə başa çatdı

## Respublikamızda yaşayan Türkiyə vətəndaşları prezident seçkilərində öz namizədlərinə səs veriblər

Dünən Azərbaycandakı Türkiyə vətəndaşlarının ikinci tur prezident seçkilərində səsverməsi başa çatıb. Məlum olduğu kimi, mayın 14-də keçirilən seçkilərdə Ərdoğanın lideri olduğu Cümhur İttifaqı parlamentdə üstünlük əldə edib.











Lakin prezident seçkilərində namizədlərin heç biri 50 faizdən çox səs toplamayıb. Prezident seçkilərinin mayın 28-nə təyin olunmuş ikinci turunda Cümhur İttifaqından Rəcəb Tayyib Ərdoğan, Millət İttifaqından isə Kamal Kılıçdaroğlu mübarizə aparacaqlar.

Ölkəmizdə Türkiyədəki prezident seçkilərinin ikinci turu üçün səsvermə isə 20-22 may tarixlərində baş tutub. Səsvermə Türkiyənin Bakıdakı səfirliyində, eləcə də Gəncə və Naxçıvandakı diplomatik korpuslarında keçirilib.

### Seçici fəallığı müşahidə edildi

Ötən gün Türkiyə səfirliyindəki seçki məntəqəsindəki müşahidələrimiz göstərdi ki, qardaş ölkənin vətəndaşları nikbin görünürlər. Onlar mayın 28-də ən layiqli namizədin prezident seçiləcəyinə inanırlar. Bunu isə daha çox seçkilərin demokratik və şəffaf keçirilməsi ilə əlaqələndirirlər. Seçicilərin sözlərinə görə, seçkilərin şəffaflığı elə birinci turun nəticələrindən də aydın görünür.

Yeri gəlmişkən, Türkiyədə mayın 14-də keçirilən prezident seçkilərinin birinci turunda ümumilikdə 60 milyona yaxın seçici iştirak edib. Türkiyə Prezidenti, Ədalət və İnkişaf Partiyasının (AK Parti) rəhbəri, Cümhur İttifaqının namizədi Rəcəb Tayyib Ərdoğan 49,52 faiz, Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri, Millət İttifaqının namizədi Kamal Kılıçdaroğlu 44,88 faiz, Ata İttifaqının namizədi Sinan Oğan 5,17 faiz, Məmləkət Partiyasının namizədi Məhərrəm İncə isə 0,43 faiz səs toplayıblar.

Xatırladaq ki, Azərbaycanda yaşayan Türkiyə vətəndaşlarının prezident seçkilərinin birinci turu və parlament seçkiləri üçün səsverməsi mayın 5-7-də keçirilib. Seçkilərin birinci turunda ölkəmizdə 15 məntəqədə keçirilən səsvermə prosesində seçicilərin 49,42 faizi (3642 səs) Rəcəb Tayyib Ərdoğana, 41,92 faizi isə (2768 səs) Kamal Kılıçdaroğluna səs verib. Azərbaycanda səs verən Türkiyə vətəndaşlarının sayı 6 min 600 nəfərdən çox, seçici fəallığı 60 faiz olub. Ümumilikdə ölkəmizdə 11 mindən çox Türkiyə vətəndaşı səsvermə hüququna malikdir.

### Türkiyə xalqı kimi seçmək lazım olduğunu yaxşı bilir

Seçicilər elə birinci turda olduğu kimi, səs verdikləri sandıqlarda təkrar səs verirlər. Birinci turda səs verməyən vətəndaşlar ikinci turda səs vermək hüququna sahibdirlər. Onlar qeyd edirlər ki, verilən bir səsin belə seçkinin taleyini həll edə biləcəyinə inanırlar.

Seçimini edib bülleten qutusundan uzaqlaşan türk qardaşımızla həmsöhbət oluruq. Gənc seçici bildirir ki, o, əvvəl seçdiyi namizədə səs verib. "İlk turun nəticələrindən də aydın oldu ki, seçkilər tam şəffaf həyata keçirilir. Heç bir müdaxilə müşahidə edilmir. Ümid edirəm ki, Türkiyənin gələcəyi üçün ən xeyirlisi olar", - deyə Türkiyə vətəndaşı bildirib.

Digər seçici də prezident seçkiləri ilə bağlı fikirlərini bölüşdü. Dedi ki, Türkiyə xalqı kimi seçmək lazım olduğunu hər kəsdən yaxşı bilir. "Xalqımız Türkiyənin ötən müddətdə dünyada necə nüfuz qazandığının şahididir. Müəyyən iqtisadi problemlərin olması isə təbiidir. Məlumdur ki, bütün dünya iqtisadi böhranla üz-üzədir. Ona görə də daha güclü Türkiyə naminə səs verməyə gəlmişik", - deyə o bildirdi.

Həmçinin əlavə etdi ki, o, hər şeydən əvvəl ən çox səs toplayan namizədin layiqli prezident olacağına əmindir. Seçkilərin isə şəffaf keçirildiyinin şahididir. Kimin topladığı səs daha çox olarsa, deməli, Türkiyə xalqı ona inanır və onu özünə lider seçir.

Qeyd edək ki, 14 may seçkilərində ümumilikdə 1 milyon 839 min 461 türkiyəli seçici xaricdəki nümayəndəliklərdə və gömrük məntəqələrində səs verib. Seçici fəallığı 53,58 faiz təşkil edib. Mayın 28-də keçiriləcək seçkilər üçün isə Türkiyənin 73 ölkədə yerləşən 151 təmsilçisində seçki məntəqələri qurulub. Türkiyənin Mərkəzi Seçki Komissiyasının məlumatına görə, ikinci tur üçün xarici nümayəndəliklərdə mayın 20-dən başlayan səsvermə mayın 24-də yekunlaşacaq.

***Nəzrin QARDAŞXANOVA,***
***İlham Babayev (foto),***
***"Azərbaycan"***

# "Qalatasaray"dan Ulu Öndərin xatirəsinə dərin ehtiram

## İstanbulda azərbaycanlı jurnalistlərlə "Cim-Bom"un əfsanəvi futbolçuları qardaşlıq matçı keçiriblər

Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilməsi və dahi şəxsiyyətin 100 illik yubileyi həm ölkəmizdə, həm də Azərbaycanın hüdudlarından kənarda böyük təntənə ilə qeyd edilməkdədir.




Keçdiyimiz günlərdə Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının (AİJA), Azərbaycan Minifutbol Federasiyasının (AMF), "Azfar Group"un, Beynəlxalq Futbol Federasiyasının dəstəyi ilə idman jurnalistlərindən ibarət millimizlə "Qalatasaray" əfsanələrinin İstanbulda, Florya Metin Oktay təsislərində türk dünyasının lideri Heydər Əliyevin 100 illiyi şərəfinə qardaşlıq görüşü keçirilib. Matç klubun UEFA kubokunu qazandığı gündən düz 23 il sonra reallaşıb.

Matç "Azərbaycan" qəzetinin əməkdaşı Elçin Cəfərov və AİJA-nın vitse-prezidenti Anar Şabanoğlunun təşəbbüsü ilə baş tutub. Qarşılaşmadan əvvəl "Qalatasaray"ın prezidenti Dursun Özbək, AİJA prezidenti Eldar İsmayılov və Azərbaycan Respublikasının İstanbuldakı baş konsulu Nərminə Mustafayeva və qəzetimizin əməkdaşı Elçin Cəfərov türk dünyasının lideri Heydər Əliyevin Azərbaycan-Türkiyə qardaşlığının möhkəmlənməsindəki xidmətlərindən danışaraq bu münasibətlərin əbədi və sarsılmaz olduğunu vurğulayıblar.

AİJA prezidenti Eldar İsmayılov, "Qalatasaray" prezidenti Dursun Özbək, "Qalatasaray"ın idarə heyətinin üzvü Emin İmanov, baş məşqçisi Okan Buruka, AMF prezidenti Taleh Nəsibov, qəzetimizin əməkdaşı Elçin Cəfərov, AİJA-nın vitse-prezidenti Anar Şabanoğlu xatirə hədiyyələrini bölüşüblər.

Sonra "Qalatasaray" əfsanələri ilə Azərbaycan idman jurnalistlərindən ibarət milli komanda üz-üzə gəlib. Komandalar meydana üzərinə Ulu Öndərin dillər əzbəri olan "Bir millət, iki dövlət" kəlamı həkk edilmiş bannerlə çıxıblar.

Qardaşlıq matçı Dursun Özbəyin və Nərminə Mustafayevanın topa rəmzi zərbələri ilə başlayıb. Qardaşlıq görüşü 3:3 hesabı ilə sona çatıb.

AİJA-nın 17 nəfərdən ibarət futbol nümayəndə heyəti İstanbulun Bosfor sahilindəki axar-baxarlı məskənlərindən birində salınmış Heydər Əliyev parkında ucalan Ulu Öndərin əzəmətli abidəsi önünə tər güllər düzərək rəhbərimizin əziz xatirəsini qürur hissi ilə yad ediblər.

Türkiyə mediası da bu dostluq qarşılaşmasına geniş yer ayırıb. Floryadakı matç barəsində dostluğu, qardaşlığı tərənnüm edən materiallar dərc olunub. Qəzetimizin əməkdaşı Elçin Cəfərovun hər gün Türkiyənin ən məşhur internet portallarında, qəzetlərində açıqlamaları dərc olunub.

Qeyd edək ki, qəzetimizin əməkdaşının aparıcı-eksperti olduğu "CBC Sport" kanalında yayımlanan "Türkiyədən futbol" verilişi qardaş ölkənin idman mediasında geniş işıqlandırılır, orada səslənən fikirlər gündəm mövzusu olur.

Növbəti gün isə E.Cəfərov "Fənərbağça" klubunun prezidenti Əli Koçun dəvəti ilə Şükrü Saraçoğlu stadionunda keçirilən "Fənərbağça" - "Trabzonspor" matçında olub. Klub rəbərliyinin də yer aldığı xüsusi lojada matçı izləyənlər sırasında "Fənərbağça" Divan Kurulunun rəhbəri, tanınmış jurnalist Uğur Dündar da olub. Türkiyə mediasının canlı əfsanəsinin Elçin Cəfərovla müzakirələri matçı izləyənlərin diqqətini cəlb edib.

***N.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Türk dünyasının Şuşa qüruru

**Türk dünyası Qarabağın azadlıq rəmzi Xarıbülbülü özünün qələbə simvolu, Qarabağın zəfər zirvəsi Şuşanı isə qürur ünvanı sayır.**

Azərbaycanın Vətən müharibəsində qazandığı şanlı zəfər tarixi torpaqlarımızın 30 illik işğalına son qoyduğu kimi, türk birliyinin və həmrəyliyinin də güclənməsinə birbaşa yol açıb. 44 günlük müharibə günlərində, eləcə də ondan sonra ötən vaxt ərzində daim türkdilli dövlətlərin xalqları Azərbaycan xalqına yüksək dəstəklərini nümayiş etdiriblər, ölkəmizin əldə etdiyi parlaq zəfəri öz qələbələri kimi dəyərləndirərək bizimlə birgə milli qürur hissi yaşayıblar.

Buna görədir ki, qardaş xalqlar Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi, mədəni, mənəvi ruhunun özünə qaytarılması üçün ölkəmizə fəal dəstək göstərirlər.

Elə Qarabağın mirvarisi Şuşanın 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilməsi də bu həmrəyliyin daha bir parlaq təcəssümüdür.

### Mədəni həmrəylik

Xatırladaq ki, TÜRKSOY 2009-cu ildən etibarən türkdilli ölkələrin irsinin təbliğinə yönəlmiş tədbirlər keçirir, üzv ölkələrin mədəniyyət və incəsənət xadimlərinin yaxınlaşmasına yardımçı olur. 2010-cu ildən başlayaraq hər il türk dünyasının bir dahi şəxsiyyətinin adına elan edilir, onunla bağlı silsilə tədbirlər keçirilir, kitablar çap olunur. 2017-ci il "Molla Pənah Vaqif ili" elan olunub, 2018-ci ildə görkəmli Azəbaycan bəstəkarı Qara Qarayevə tədbir həsr edilib. 2019-cu il isə "İmadəddin Nəsimi ili" kimi yaddaşlarda qalıb.

2012-ci ildən etibarən türk dünyasının önəmli tarixi və mədəni şəhərləri türk dünyasının mədəniyyət paytaxtı elan edilir. Bu günə qədər Astana (2012, Qazaxıstan), Əskişəhər (2013, Türkiyə), Kazan (2014, Tatarıstan - RF), Mərv (2015, Türkmənistan), Şəki (2016, Azərbaycan), Türküstan (2017, Qazaxıstan), Kastamonu (2018, Türkiyə), Oş (2019, Qırğızıstan), Xivə (2020, Özbəkistan) və Bursa (2022, Türkiyə) şəhərləri "Türk dünyasının mədəniyyət paytaxtı" olublar. Şuşa Türk dünyasından bu missiyanı yerinə yetirən 11-ci şəhərdir.

Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilməsi barədə qərar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının ötən ilin martında Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunub.




Bu il mayın 12-də Azərbaycan Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı - 2023" ilinin rəsmi açılış mərasimi keçirildi.

### Mənəviyyat mərkəzi

"Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" Prezidentin sərəncamına uyğun olaraq Şuşa şəhərində gerçəkləşdirilən tədbirdə dövlət rəsmiləri, TÜRKSOY-a üzv ölkələrin nümayəndə heyətləri, Türk Əməkdaşlıq təşkilatlarının rəhbərləri və digər qonaqlar iştirak etdilər.

Tədbirdə çıxış edən TÜRKSOY-un Baş katibi Sultan Raev bildirdi ki, Şuşada keçirilməsi nəzərdə tutulan proqram "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi üzrə indiyədək keçirilmiş tədbirlərdən daha yaddaqalan olacaq: "Çünki bu əzəmətli şəhər təkcə Azərbaycanın deyil, bütün türk dünyasının mənəviyyat mərkəzi, qürur yeridir".

Azadlığından dərhal sonra Prezident İlham Əliyev tərəfindən mədəniyyət paytaxtımız elan edilən Şuşanın tarixi simasının bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması, ənənəvi dolğun mədəni həyatına qovuşması, bir sözlə, ruhunun özünə qaytarılması üçün mühüm işlər gerçəkləşdirilir. Vətən müharibəsindəki parlaq qələbəmizin üzərindən çox qısa zaman keçdikdən sonra Şuşanın ənənəvi mədəni həyatı da bərpa olunub. Artıq üçüncü dəfədir ki, tarixi şəhərimizdə "Xarıbülbül" Musiqi Festivalı keçirilib, o cümlədən "Vaqif Poeziya Günləri" də bərpa olunub.

Ötən ili başdan-başa "Şuşa ili" kimi qeyd etmişik, tarixi şəhərimizin yaradılışının 270 illiyini keçirmişik.

### Qarabağdan dünyaya

Bu ili isə Vətən qibləmiz Şuşa "Türk Dünyasının Mədəniyyət Paytaxtı" kimi mədəni irsinin möhtəşəmliyini dünyaya sərgiləyir.

Qarabağın baş tacı Şuşanın bu müstəsna və fəxarətli statusa layiq görülməsi isə türk dünyasının Azərbaycanın qədim şəhərinin mədəni zənginliyinə diqqətindən, ölkəmizin türk ölkələri birliyində tutduğu əhəmiyyətli mövqeyindən xəbər verir.

Xüsusi vurğulayaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin səyləri nəticəsində bu gün ən yüksək əməkdaşlıq zirvəsinə qalxan türk birliyi bütün sahələrdə öz gücünü birləşdirərək qarşılaşdıqları qlobal sosial, iqtisadi böhranlara, təbii fəlakətlərə qarşı birgə mübarizə aparırlar. Eyni zamanda türk dünyası mədəniyyət sahəsində də həmrəylik göstərir, zəngin irslərini birgə nümayiş etdirirlər.

Türk dünyasının birləşməsində mühüm xidmətləri olan Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünü təntənəli şəkildə qeyd etdiyimiz bu şanlı ildə Qarabağın mirvarisi Şuşanın türk dünyasına mədəniyyət paytaxtlığı etməsinin özünün də ayrıca rəmzi və fəxarətli mənası var.

Bu, həm də Azərbaycanın hər zaman türk dünyasının birliyində oynadığı müstəsna rola xoş işarədir, Vətən müharibəsində əldə etdiyimiz qələbə sayəsində tarixən var olan türk etnocoğrafiyasının bərpasından doğan qürur hissinin parlaq təzahürüdür.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

**Milli Kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrlərin, xarici ölkələrdə dərc olunmuş Azərbaycan haqqında və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitabsaxlayıcısıdır.**




# Bir əsr xalqın xidmətində

Azərbaycanda hamının istifadə edə biləcəyi Milli Kitabxananın yaradılması fikri hələ XIX əsrin 70-ci illərində "Əkinçi" qəzeti tərəfindən irəli sürülmüşdür. Sonralar ölkə mətbuatında, o cümlədən "İrşad", "Kaspi", "Tərəqqi" qəzetlərində, həmçinin "Molla Nəsrəddin" jurnalında bu məsələnin dəfələrlə gündəmə gətirilməsinə baxmayaraq, Milli Kitabxananın yaradılması təşəbbüsü dövlət səviyyəsində Azərbaycan Demokratik Cümhuriyyəti dövründə yenidən qaldırıldı. Lakin sonralar respublikada ictimai-siyasi mühitin kəskin surətdə gərginləşməsi ilə əlaqədar bu məsələ təxirə salındı və Demokratik Respublikanın süqutu bu ideyanın həyata keçməsinə imkan vermədi.

Arxiv sənədlərindən məlum olur ki, Bakıda mərkəzi dövlət kitabxanasının yaradılması məsələsi ilk dəfə Azərbaycan Respublikası Xalq Maarif Komissarlığının 13 noyabr 1920-ci il tarixli 53 saylı iclasında müzakirə edilmiş, kitabxananın yararlı bina, avadanlıq və kitab fondu ilə təmin edilməsi haqqında müvafiq qərar qəbul edilmişdir.

1922-ci ilin yanvar ayında Xalq Maarif Komissarlığı tərəfindən Mərkəzi Kitabxananın direktoru vəzifəsi təsis edilmiş və bu vəzifəyə Müseyib İbrahim oğlu Səlimov təyin edilmişdir. Yeni yaranan kitabxana indiki Üzeyir bəy Hacıbəyli küçəsindəki keçmiş Azərbaycan Ali İqtisad Şurasının binasında yerləşdirilmişdi.

Azərbaycanın Mərkəzi Kitabxanasının fondunun əsasını ilkin mərhələdə İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin və Bakı İctimai Cəmiyyətinin kitabxanalarının fondlarından toplanmış 5 min 212 nüsxə kitab təşkil etmişdir. O dövrdə kitabxana tərəfindən həyata keçirilən ən mühüm tədbirlərdən biri respublikada nəşr edilən bütün kitab, jurnal və qəzetlərin iki məcburi nüsxəsinin alınması haqqında dekretin hazırlanıb Respublika Xalq Maarif Komissarlığı tərəfindən təsdiqlənməsi olmuşdu. Dövlət səviyyəsində qəbul edilmiş bu sənəd Mərkəzi Kitabxananın kitab fondunun müntəzəm və planlı surətdə yeni ədəbiyyatla komplektləşdirilməsinin əsasını qoymuşdu.

1923-cü ildən başlayaraq kitabxanaya məcburi nüsxələr daxil olmağa başlamışdı. Kitabxananın açılışı ərəfəsində fondun ümumi həcmi 20 min 441 nüsxəyə çatmışdı.

Kitabxananın təsis edilməsi, ona Azərbaycan Mərkəzi Dövlət Kitabxanası statusunun verilməsi və dövlət səviyyəsində açılışı 23 may 1923-cü ildə olduğundan bu tarix M.F.Axundzadə adına Milli Kitabxananın yaranması günü kimi qəbul edilmişdir. Azərbaycan hökuməti 1924-cü ilin aprel ayında dövlət kitabxanası üçün hazırda AMEA-nın Rəyasət Heyətinin binasında (İstiqlaliyyət küçəsi) yer ayrılması haqqında qərar qəbul etmişdi. Bu bina dövlət kitabxanasının problemlərini bütövlükdə həll etməsə də, kitabxananın yaxın bir neçə il ərzində normal fəaliyyəti üçün nisbətən yararlı olmuşdu.

1930-cu illərin əvvəllərində dövlət kitabxanasının fəaliyyəti artıq elmi əsaslarla təşəkkül tapmış, informasiya ehtiyatları zənginləşmiş, oxuculara xidmət sistemi formalaşmış və o, bir elmi kitabxana, biblioqrafiya müəssisəsinə çevrilmişdi. Bu işdə kitabxanaya dövlət və hökumət orqanları, elmi ictimaiyyət yaxından kömək göstərdi, kitabxana ildən-ilə inkişaf etdi və təkmilləşdi. 1930-1940-cı illərdə dövlət kitabxanasının maliyyələşdirilməsinin sürətli artımı, kitabxana tərəfindən yerli və ümumittifaq məcburi nüsxələrin alınması, fondun intensiv şəkildə inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaratdı. Nəticədə 1935-ci ildə kitabxana fondu 388 min, 1940-cı ildə isə 612 min nüsxəyə çatdı. 1939-cu il iyun ayının 1-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə Dövlət Kitabxanasına xalqımızın görkəmli mütəfəkkiri, filosof və dramaturqu Mirzə Fətəli Axundzadənin adı verildi.

XX əsrin 50-ci illəri Milli Kitabxananın elmi-metodik fəaliyyətində yeni inkişaf mərhələsinə daxil olması kimi xarakterizə edilə bilər. Bu dövrdə respublikada kitabxana şəbəkəsinin inkişafı, onların kadr potensialının güclənməsi, kitab və kitabxanalara olan tələbatın artması, oxucuların fəallaşması və sorğuların mürəkkəbləşməsi kitabxanaların metodik təminatının yeni səviyyədə qurulmasını tələb edirdi.

Milli Kitabxananın kollektivi tərəfindən respublikada əhaliyə kitabxana xidmətinin yeni vəzifələr səviyyəsinə qaldırılması məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Rayon və kənd yerlərində fəaliyyət göstərən kitabxana işçilərinin peşə səviyyəsinin artırılmasına, metodik vəsaitlərin və metodik məktubların tərtib edilməsinə, kitabxana işçilərinin yerlərdə təlimatlandırılmasına, ixtisasartırma kurslarının, seminarlar və praktikumların təşkil edilməsinə xüsusi diqqət verilmişdir.

1950-1960-cı illərdə görülən işlər Milli Kitabxananın respublikanın baş kitabxanası, metodik mərkəzi kimi formalaşmasında həlledici rol oynamış, onun ölkəmizin mədəni həyatında aparıcı elmi müəssisələrdən biri kimi nüfuzunun artmasına müsbət təsir göstərmişdir. Milli Kitabxananın təşkilati metodik fəaliyyəti Azərbaycanda kitabxanaşünaslıq fikrinin inkişafında mühüm mərhələ kimi qiymətləndirilə bilər.

Milli Kitabxananın fəaliyyətinin təşkili, idarə olunması və inkişafında Azərbaycanın kitabxana işçilərindən Hüseyn Tağıyevin, Məryəmxanım Səmədovanın, Həsənağa Rzaquliyevin, Əliyusif Əliyevin, Bilqeyis Qasımovanın, Xurşud Əliyevanın, Səriyyə Məmmədovanın, Ağakərim Quliyevin, Ələkbər Rəhimovun, Sima İbrahimovanın, Aron Lermanın, Məmmədəli Müsəddiqin, Zabitə Hacıyevanın, Hərifət Həmidovanın və başqalarının müstəsna xidmətləri olmuşdur.

XX əsrin ortalarında Milli Kitabxananın fəaliyyətində baş verən mühüm dəyişikliklər onun yeni bina ilə təmin olunması zərurətini yaratdı. Bu məqsədlə kitabxana üçün yeni binanın tikintisinə başlandı.

1960-cı ildə kitabxana yeni tikilmiş binaya köçdü. Bakı şəhərinin ən gözəl yerlərindən birində yerləşən, milli ornamentlərlə bəzədilmiş unikal tarixi memarlıq abidəsi olan bu bina gorkəmli memar, akademik Mikayıl Useynov tərəfindən layihələndirilmişdir. Binanın yerinin seçilməsində Xalq yazıçısı Süleyman Rəhimovun xüsusi rolu olmuşdur. Bu gün də biz öz sevimli şairlərimiz, rəssamlarımız, bəstəkarlarımız, alim və ziyalılarımızla, ədəbi qəhrəmanlarımızla görüşmək üçün bu məbədə üz tuturuq. 1961-ci ildən kitabxananın yeni binasında yaradılan əlverişli şərait, təcrübəli və savadlı mütəxəssislərin çalışması xalqımızın sosial-iqtisadi və intellektual potensialının güclənməsi naminə daha səmərəli fəaliyyət göstərməsi üçün əsaslı zəmin yaradıb.

1970-ci illərin əvvəlləri Milli Kitabxananın elmi-tədqiqat, metodik və nəşriyyat fəaliyyətində təşəkkül dövrü olmuşdur. Kitabxanada yeni elmi şöbələr yaradılmış, elmi-tədqiqat işləri planauyğun şəkildə aparılmışdır.

1980-ci illərdə elmi-metodik nəşrlər sistemində yeni nəşr olunan Milli Kitabxananın "Əsərlər"inin üç buraxılışı işıq üzü görmüşdür. Mərkəzi Kitabxananın fəaliyyətinə müsbət təsir edən əhəmiyyətli hadisə isə 1974-cü ildə Sov.İKP MK-nin "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunun artırılması haqqında" qərarı oldu. Bu qərar bütün partiya və dövlət təşkilatlarında kitabxanalara daha artıq diqqət və qayğı göstərilməsini tələb edir, bu istiqamətdə konkret tədbirlər keçirilməsini, bütün oxucu qruplarına, ilk növbədə elmi işçilərə, mütəxəssislərə informasiya xidmətinin keyfiyyətinin yüksəldilməsini nəzərdə tuturdu. Bu qərardan sonra ittifaqın və Azərbaycanın həm universal, həm də sahəvi elmi kitabxanalarının ölkənin elmi-texniki informasiya sisteminə inteqrasiyası başladı, elmi kitabxanalarda profil üzrə elmi-texniki və ya elmi informasiya şöbələri yaradıldı, bu informasiyanın həm üfüqi, həm də şaquli istiqamətdə paylanması prosesi tənzimləndi. Həmin qərardan irəli gələn vəzifələrin həlli istiqamətində həyata keçirilən təşkilati tədbirlər nəticəsində Azərbaycanın bütün sahəvi elmi və elmi-texniki kitabxanaları bu inteqrasiyaya qoşuldu, tələbatçılara bu tip informasiyanın hazırlanması və çatdırılması işi təşkil edildi, hər bir sahə üzrə aparıcı kitabxana müəyyən edildi. Bu sahədə fəaliyyətdə fərqləndirilən və fərqləndirilməyən biblioqrafik informasiya xidmətinə xüsusi əhəmiyyət verilirdi. Əslində, mahiyyətcə informasiya xidmətinin vəzifələrindən əksəriyyəti sırf biblioqrafik xarakter daşıyırdı. M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası mədəniyyət və incəsənət sahələrində elmi informasiya işi üzrə respublikada əsas mərkəz oldu və bu istiqamətdə xüsusi şöbə yaradıldı. Tezliklə burada fərqləndirilməyən biblioqrafik informasiya xidmətinin metodikasına uyğun olaraq "Mədəniyyət və incəsənət üzrə yeni ədəbiyyat" adlı cari elmi-köməkçi biblioqrafik göstəricinin nəşrinə başlandı. Həmin qərardan doğan tədbirlər kimi Diyarşünaslıq və milli biblioqrafiya bölməsinin bazasında müstəqil şöbənin və Kitab mübadiləsi şöbəsinin təşkil edilməsini də qeyd etmək lazımdır.



Elmi-texniki tərəqqinin inkişafı kitabxanalarda yeni şöbələrin yaradılmasını tələb edirdi. Oxuculara sahəvi xidmət göstərmək məqsədilə xüsusi Not-musiqi şöbəsi, ayrıca oxu zalı olan Xarici ədəbiyyat şöbəsi və başqa yeni şöbələr fəaliyyətə başladı. İllər keçdikcə Milli Kitabxana Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, informasiya və kitabşünaslıq sahəsində elmi-tədqiqat işləri üzrə aparıcı və əlaqələndirici müəssisə, oxuculara kompleks kitabxana-informasiya xidməti göstərən, ölkə kitabxanaları üçün metodik mərkəz, milli tövsiyə biblioqrafiyası və ölkədaxili depozitar mərkəz funksiyasını həyata keçirən baş kitabxanaya çevrildi. Müstəqillik illərini Milli Kitabxananın fəaliyyətinin çiçəklənməsi dövrü kimi qeyd etmək olar. Məhz bu dövrdə Milli Kitabxana xalqımızın milli-mənəvi dəyərlərinin etibarlı şəkildə mühafizə olunaraq gələcək nəsillərə çatdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirən elm məbədinə, oxuculara kitabxana xidmətinin müasir dövrün tələblərinə uyğun olaraq yenidən qurulması məqsədilə yeni texnologiyaların tətbiqi işində öndə gedən flaqmana, əsl mədəniyyət mərkəzinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyev mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə həmişə böyük qayğı ilə yanaşmışdır və bu diqqət milli-mənəvi dəyərlərimizi yaşadaraq gələcək nəsillərə çatdıran Milli Kitabxanamızdan da yan keçməyib. 1995-1997-ci illərdə dəfələrlə bu elm məbədinə gələn və hər gəlişi ilə bu kitabxanaya yeni bir ab-hava, müsbət dəyişikliklər gətirən Ulu Öndər təsadüfi olaraq demirdi ki, *"Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir"*. Kitaba belə dahiyanə dəyər verən Heydər Əliyev kitabxanaya gələrkən öz şəxsi kitabxanasından 300 nüsxəyə yaxın qiymətli kitabı Milli Kitabxanaya hədiyyə etmişdir.

Ulu Öndər Heydər Əliyev 1995-1997-ci illərdə 4 dəfə Milli Kitabxanada olmuşdur:

3 iyun 1995-ci ildə "Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabının təqdimat mərasimində. Bu tədbirdə iştirakı zamanı Ulu Öndər Milli Kitabxanaya öz şəxsi kitabxanasından 300-ə yaxın müxtəlif kitab və müqəddəs Məkkə ziyarətindən gətirdiyi Qurani-Kərimi hədiyyə etmişdir;

1996-cı il martın 4-də İsraildə nəşr olunan "Heydər Əliyev: siyasi portretin cizgiləri" kitabının təqdimat mərasimində;

5 noyabr 1997-ci ildə "Azərbaycan qaçqınları" fotoalbomunun təqdimat mərasimində;

20 noyabr 1997-ci ildə Amerikada nəşr edilən "Azərbaycan İnternəşnl" jurnalının beş illiyinə həsr olunmuş mərasimdə.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə müvafiq olaraq M.F.Axundzadə adına Dövlət Kitabxanasına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 aprel 2004-cü il tarixli qərarı ilə "Milli Kitabxana" statusu verilmişdir. Bu status kitabxananın qarşısına qoyulmuş vəzifələrin əhatəsini xeyli genişləndirmiş, ölkənin ictimai həyatında rolunu artırmışdır.

ABŞ-nin VTLS korporasiyasının məxsusi kitabxanalar üçün işləyib hazırladığı VİRTUA proqramının tətbiqi ilə Milli Kitabxanada elektron kataloqun yaradılmasına hazırlıq işləri başa çatmış, 2006-cı ilin mayında Milli Kitabxananın veb-saytının və elektron kataloqunun təqdimatı olmuşdur.

2010-cu ildən kitabxana fondlarında olan kitabların rəqəmsallaşdırılması işi xeyli sürətlənmiş, "Azərbaycan ədəbiyyatının arxivi" və "Nadir kitablar və kitabxana muzeyi" şöbələrində olan və oxucular tərəfindən ən çox tələb olunan kitabların, XIX əsrin sonunda və XX əsrin əvvəllərində respublikamızda dərc olunan qəzet və jurnalların demək olar ki, 90 faizinin elektron versiyası hazırlanmışdı. Milli Kitabxananın oxuculara və kitabxanalara təqdim etdiyi son yeniliklərdən biri də məsafədən virtual kitab sifarişi sisteminin yaradılması oldu. Yəni internetə çıxışı olan hər bir oxucu saytdakı "Virtual xidmət" bölməsinə daxil olaraq istənilən kitabı sifariş edə bilir.

2008-ci ildə Milli Kitabxananın Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsində Rusiya Dövlət Kitabxanasının Elektron dissertasiya fondunun virtual oxu zalı açıldı. Oxu zalında Azərbaycan Milli Kitabxanasının oxucuları Rusiya Dövlət Kitabxanasının dissertasiya və avtoreferatlar fondunda mühafizə olunan 1 milyondan artıq dissertasiya və avtoreferatın tam elektron mətnindən istifadə etmək imkanı əldə etdilər. Şöbə Azərbaycanda müdafiə olunmuş dissertasiyaların tam mətnli elektron məlumat bazası ilə də oxuculara virtual xidmət göstərir.

Müstəqillik illərində Milli Kitabxananın beynəlxalq əlaqələri də əhəmiyyətli dərəcədə genişlənmiş və beynəlxalq kitabxana təşkilatlarında uğurla təmsil olunmağa başlamışdır. Azərbaycan Milli Kitabxanası Müstəqil Dövlətlər Birliyinin milli kitabxanalarını özündə birləşdirən Avrasiya Kitabxanalar Assambleyasının (BAE) beş təsisçisindən biri olaraq, keçmiş sovetlər birliyi məkanında yeganə professional kitabxana təşkilatının yaradıcılarından biri kimi çıxış etmişdi.

2005-ci ildə Azərbaycan Milli Kitabxanası dünyada çox nüfuzlu beynəlxalq kitabxana təşkilatı olan Avropa Milli Kitabxanaları Konfransı (CENL) təşkilatına üzvlüyə qəbul olundu. Bu nüfuzlu təşkilatın Lüksemburqda keçirilən illik iclasında ilk dəfə təmsil edildi və 43 ölkənin yekdil qərarı ilə həmin təşkilata seçildi. 2009-cu ilin avqustunda Azərbaycan Milli Kitabxanası Beynəlxalq Kitabxana Təşkilatları və Assosiasiyaları Federasiyasına (İFLA) üzvlüyə qəbul edildi və ilk dəfə həmin ilin avqustunda İFLA-nın Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində keçirilən illik iclasında iştirak etdi. Bu zaman İFLA-nın prezidenti tərəfindən Azərbaycan Milli Kitabxanasına İFLA-nın üzvlüyü sertifikatı təqdim edildi. Eyni zamanda Azərbaycan Milli Kitabxanası İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Milli Kitabxanaları və Arxiv Təşkilatları Birliyinin və Türkdilli Ölkələrin Milli Kitabxanaları Direktorları Şurasının da üzvüdür və bu beynəlxalq təşkilatların layihələrində fəal iştirak edir.

Azərbaycan Milli Kitabxanasının beynəlxalq əlaqələri bu gün dünya kitabxanaları ilə ikitərəfli qarşılıqlı əməkdaşlıq istiqamətində uğurla inkişaf etməkdədir. Milli Kitabxanamız dünyanın 47 ölkəsinin zəngin kitabxanaları ilə qarşılıqlı əməkdaşlıq haqqında memorandumlar imzalamışdır və bu kitabxanalarla fəal kitab, informasiya, təcrübə mübadiləsini həyata keçirir, eyni zamanda dünyanın 80-dən artıq ölkəsinin milli və universitet kitabxanaları ilə beynəlxalq kitab mübadiləsi yolu ilə kitab və digər nəşrlərin mübadiləsini həyata keçirir.

Azərbaycan Respublikasında Kitabxana-informasiya sahəsinin inkişafında və yenidən qurulmasında mühüm mərhələ təşkil edən "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" bütövlükdə ölkəmizdə kitabxanaların, o cümlədən Milli Kitabxananın fəaliyyətinin günün tələbləri səviyyəsində yenidən qurulmasında, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasında, oxuculara kitabxana-biblioqrafiya xidmətlərinin təkmilləşdirilməsində və elektronlaşdırılmasında əhəmiyyətli rol oynadı. Bu dövlət proqramının uğurla yerinə yetirilməsi Azərbaycan Milli Kitabxanasının aparıcı dünya ölkələrinin milli kitabxanaları sırasında öncül yerlərdən birinə çıxmasına və Cənubi Qafqazın ən modern kitabxanası səviyyəsinə yüksəlməsinə səbəb oldu.

Azərbaycan Milli Kitabxanasının ölkəmizdə kitabın, kitabxananın və mütaliənin təbliğində xidmətləri, Azərbaycan həqiqətlərinin dünya miqyasında təbliği sahəsində həyata keçirdiyi tədbirlər, milli-mənəvi sərvətlərimizin öz tarixi vətəninə qaytarılması istiqamətində gördüyü işlər Azərbaycan dövləti və Azərbaycan Prezidenti tərəfindən yüksək qiymətləndirilmişdir. 2008-ci ildə Azərbaycan Milli Kitabxanasının 85 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Prezidenti Milli Kitabxananın kollektivinə və Avrasiya Kitabxanalar Assambleyasının Bakıda keçirilən iclasının iştirakçılarına təbrik məktubu göndərmiş, 17 noyabr tarixli sərəncamla Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsində xidmətlərinə görə Milli Kitabxananın direktoruna və 5 nəfər digər əməkdaşına Əməkdar mədəniyyət işçisi fəxri adı verilmiş, digər bir sərəncamla isə Milli Kitabxananın 4 nəfər əməkdaşı "Tərəqqi" medalı ilə təltif edilmişdir.

2013-cü ildə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyi kitabxananın tarixində ilk dəfə dövlət səviyyəsində keçirilmişdir. Yubiley tədbirləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" 24 iyun 2013-cü il tarixli sərəncamına müvafiq olaraq geniş şəkildə qeyd olunmuşdu. Milli Kitabxananın 90 illik yubiley tədbirləri çərçivəsində Bakı şəhərində Avropa Milli Kitabxanaları Konfransı beynəlxalq təşkilatının (CENL) 27-ci illik iclası, Avrasiya Kitabxanalar Assambleyasının (BAE) 16-cı illik toplantısı, Türkdilli Ölkələrin Milli Kitabxanaları Şurasının 2-ci iclası və İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv Ölkələrin Milli Kitabxana və arxiv təşkilatları Birliyinin 2-ci toplantısı keçirilmişdi. Milli Kitabxananın 90 illik yubileyində Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 sentyabr tarixli sərəncamı ilə Azərbaycanda kitabxana işinin inkişafında xidmətlərinə görə Azərbaycan Milli Kitabxanasının 7 əməkdaşına "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmişdi. Həmin gündə cənab Prezidentin imzaladığı digər sərəncamla ölkəmizdə kitabxana işinin inkişafında xidmətlərinə görə Milli Kitabxananın direktoru professor K.Tahirov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, Milli Kitabxananın 6 nəfər əməkdaşı isə "Tərəqqi" medalı ilə təltif olunmuşdu.

2014-cü ildən Milli Kitabxananın kolleksiyalarında müasir tipli mobil kitab rəflərinin quraşdırılması işlərinə başlanıldı. Tozu, rütubəti, işığı buraxmayan və qiymətli kitabların günəş işığından və digər kənar təsirlərdən qorunmasına xidmət edən mobil kitab rəfləri eyni zamanda yeni kitabların yerləşdirilməsi imkanlarının da iki dəfə artırılmasına kömək edir. Son illərdə kitabxanada Avropa standartlarına uyğun işıqlandırma, havalandırma və rütubət rejimini tənzimləyən avadanlıqlar quraşdırılıb, qazla işləyən avtomatlaşdırılmış yanğınxəbərverici və yanğınsöndürücü sistem quraşdırılaraq istifadəyə verilib. Fondun xüsusi, mobil kitab rəflərində yerləşdirilməsi həm oxucuya xidmət işini yaxşılaşdırır, həm də qiymətli kitab kolleksiyalarının etibarlı mühafizəsinə xidmət edir. Kitabxananın Azərbaycan ədəbiyyatının milli arxiv fondu, Azərbaycan ədəbiyyatı fondu, Azərbaycan bəstəkarlarının not əlyazmaları fondu və bütün digər sənədlər yüksəkkeyfiyyətli müasir tipli mobil kitab rəflərinə köçürülüb və bu ilin sonunadək bu işin tamamilə başa çatdırılması nəzərdə tutulur.

2016-cı ilin iyul ayında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Milli Kitabxananın birgə layihəsi əsasında paytaxt sakinləri və şəhərimizin qonaqları üçün fasiləsiz və sərbəst mütaliə imkanlarının yaradılması məqsədilə, Milli Kitabxananın nəzdində həftənin bütün günləri, 24 saat xidmət göstərən "Mən oxudum, sən də oxu" devizi altında işləyən Açıq kitabxana yaradıldı. Açıq kitabxanada ayrı-ayrı oxucular, yazıçılar, şairlər, görkəmli elm və mədəniyyət xadimləri tərəfindən kitabxanaya hədiyyə edilən kitablar nümayiş olunur və onların mütaliəsinə şərait yaradılır. Eyni zamanda Açıq kitabxanada kitabların mütaliəsi ilə bərabər, mübadiləsinə də gözəl imkan yaradılıb. Kitabxanada "Mən oxudum, sən də oxu" devizi altında kitabı kitaba dəyişmə guşəsi, Milli musiqi guşəsi, dövri mətbuat və uşaq ədəbiyyatı guşələri fəaliyyət göstərir. Hər bir vətəndaş artıq mütaliə etdiyi öz kitabını Açıq kitabxanaya təhvil verməklə oxumadığı yeni bir kitab əldə edə bilir. Beləliklə, hər bir kəs mütaliə etdiyi və oxuduğu kitabların başqa şəxslər tərəfindən də mütaliə olunmasına şərait yaradır. Nəticədə insanlar təmənnasız olaraq yeni kitablar götürüb oxumaq və sonra gətirib digəri ilə dəyişmək imkanı qazanırlar, bununla da həmçinin ən çox oxunan kitabları da müəyyənləşdirmək mümkün olur. Kitabxanada açıq səma altında poeziya günləri, mütaliə axşamları, ayrı-ayrı yazıçı və şairlərlə görüşlər, imza törənləri keçirilir, yeni kitabların təqdimat mərasimləri, imzalı görüşlər təşkil olunur.

2019-cu il sentyabrın 27-də Milli Kitabxanada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə "Nəsimi Əlyazmaları dünya kitabxanalarında" adlı kitab sərgisinin və Beynəlxalq əməkdaşlıq zalının açılışı oldu. Açılışda 13 ölkənin Azərbaycandakı diplomatik nümayəndələrinin və dünya milli kitabxanalarının rəhbərləri də iştirak etdilər. Zalda həmin ölkələrin ədəbiyyat guşələri və kitabxanaları ilə birbaşa internet əlaqəsi yaratmaq mümkündür.

2020-ci ildə yeni növ koronavirus - COVID-19 pandemiyası ölkəmizdən də yan keçmədi. Dünyanı çənginə alan koronavirus pandemiyasının ölkə ərazisində yayılmasına baxmayaraq, bütövlükdə Milli Kitabxananın fəaliyyətində müsbət irəliləyişlərə nail olundu. Pandemiya təhlükəsi Milli Kitabxanamızın son illərdə həyata keçirilən avtomatlaşdırma və elektronlaşdırma tədbirləri sayəsində uğurlarının nəticələrini ortaya qoydu. Kitabxanamız pandemiya şəraitində bir dəqiqə də olsun öz fəaliyyətini dayandırmadı, ölkəmizdə və dünyada evlərində qapanıb qalmaq məcburiyyətində olan oxuculara - tədqiqatçılara, bütün istifadəçilərə fasiləsiz virtual xidmətlər göstərildi. 2020-2021-ci illərdə Milli Kitabxananın fonduna müxtəlif mənbələrdən 33641 nüsxə ədəbiyyat daxil oldu. Pandemiya şəraitində Milli Kitabxanada tammətnli elektron resursların yaradılması işi də həyata keçirildi. Yaranan maneələrə baxmayaraq, Milli Kitabxanada robot skanerlər, portativ skanerlər və rəqəmsal fotoaparatlar vasitəsilə çəkilmiş və qrafik proqramlarda işlənmiş 88048 tammətnli (kitab, dissertasiya, dövri-mətbuat olmaqla) elektron resurs yaradıldı. Pandemiya ilə əlaqədar bilavasitə kitabxanada oxuculara xidmət dayandırıldığı üçün qısa zaman kəsiyində istifadəçilərə kitabxana-informasiya xidmətini virtual rejimdə təqdim etmək üçün işlərin miqyası genişləndirildi, kitabxananın saytında yeni "Onlayn xidmətlər" pəncərəsi yaradıldı. Bu pəncərənin "Sənədlərin sifarişi və elektron çatdırılması" bölməsi vasitəsilə istifadəçilərə 246098 resurs göndərildi. Kitabxananın (millikitabxana.az) saytına daxil olan istifadəçilərin sayı isə 7.500.523 nəfər oldu. Pandemiya şəraitində Milli Kitabxananın fəaliyyəti kitabxananın elektron xidmətlərinin, elektron kataloq və elektron kitabxanasının daha da təkmilləşdirilməsinə və inkişaf etdirilməsinə əhəmiyyətli təkan verdi.

2020-ci il dekabrın 11-də Azərbaycan Milli Kitabxanasında Ümummilli Lider Heydər Əliyevə həsr edilmiş "Heydər Əliyev guşəsi"nin açılış mərasimi oldu. Guşədə Ulu Öndərin 1995-ci ildə ilk dəfə Milli Kitabxanaya səfəri zamanı öz şəxsi kitabxanasından hədiyyə etdiyi 300 nüsxəyədək qiymətli kitab kolleksiyası, onun öz kitabları və haqqında yazılan kitablar, Milli Kitabxanada olarkən çəkilən şəkillər, Məkkədən gətirdiyi və Milli Kitabxanaya hədiyyə etdiyi Qurani-Kərim, habelə kitabxanada olarkən etdiyi çıxışların lent yazıları nümayiş olunur.

2022-ci ildə İstifadəçilərə xidmət şöbəsinin tərkibində yeni bir bölmə -"Uşaq bölməsi və uşaq istirahət guşəsi" istifadəyə verildi. Bu yeni xidmət sahəsi uzun müddət yaranmış tələbatdan irəli gələrək həyata keçirilmiş və kitabxananın çoxsaylı istifadəçi kütləsi tərəfindən tədqirəlayiq hal kimi qiymətləndirilmişdir. Belə ki, Milli Kitabxananın oxucularının xeyli hissəsi qadın tədqiqatçı-alimlərdən ibarətdir və onlar əksər hallarda kiçik yaşlı uşaqlarını özləri ilə gətirərək bu guşədə qoyur və bütün günü tədqiqatla məşğul ola bilirlər. Onların uşaqları isə Uşaq guşəsində xüsusi əməkdaşların qayğısı ilə əhatə olunur və istirahət edirlər, habelə burada kitabxanaya gələn uşaqların asudə vaxtlarını səmərəli təşkil etmək məqsədi daşıyan bölmədə uşaqlar dincələ və mütaliə edə bilirlər. Bu baxımdan azyaşlı uşaqların və məktəblilərin mütaliə vərdişlərinin formalaşdırılmasında bölmənin fəaliyyəti müstəsna əhəmiyyətə malikdir. Sözügedən bölmədə işıqlı və əlvan rəngləri olan mütaliə və uşaq istirahət otaqları fəaliyyət göstərir. Mütaliə otağı uşaqların rahatlığı məqsədilə nəzərdə tutulmuş rahat oturacaq və stollarla təchiz olunmuş, divarlarda qurulmuş rəflərdə müxtəlif yaş kateqoriyası olan uşaqların mütaliəsi məqsədilə rəngli nağıl və hekayə kitabları azyaşlı oxucularımızın istifadəsinə verilmişdir. Bölmənin istirahət guşəsindəki yumşaq mebellər və oyuncaqlar mütaliədən sonra uşaqların rahat oyunlar oynaması və istirahət etməsinə xidmət edir.

Uzun illər Ana Kitabxanamız xalqımızın milli-mənəvi dəyərlərini etibarlı şəkildə mühafizə edərək gələcək nəsillərə çatdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirmiş, oxuculara kitabxana xidmətinin müasir dövrün tələblərinə uyğun olaraq yenidən qurulması məqsədilə yeni texnologiyaların tətbiqi işində öndə getmiş, milli-mənəvi dəyərlərimizin təbliğində və vətənə qayıdışı istiqamətində layihələrə imza atmışdır. Milli Kitabxananın son illərdə əldə etdiyi böyük nailiyyətləri yüksək qiymətləndirən möhtərəm Prezident İlham Əliyev demişdir: *"Fəaliyyətə başladığı dövrdən etibarən Azərbaycan Milli Kitabxanası zəngin inkişaf yolu keçərək böyük əhəmiyyətə malik nəşrləri mühafizə edən mədəni sərvətlər xəzinəsinə çevrilmişdir. Ötən müddət ərzində o, cəmiyyətin intellektual-mənəvi potensialının artırılmasında əvəzsiz rol oynamış, elm və mədəniyyət xadimlərinin bir neçə nəslinin formalaşmasına öz töhfəsini vermişdir"*.

Beləliklə, Milli Kitabxanamız öz tarixi 100 illik fəaliyyəti dövründə Azərbaycan xalqının elm məbədgahına çevrilmişdir. Milli Kitabxananın əməkdaşlarından biri kimi hazırda öz inkişafının yeni mərhələsini yaşayan bu doğma kitabxanamıza və onun kollektivinə mədəniyyətimizin tərəqqisi naminə böyük uğurlar diləyirəm.

**Ədibə İSMAYILOVA,**
***Azərbaycan Milli Kitabxanasının elmi işlər və kitabxana-informasiya xidməti üzrə direktor müavini, Əməkdar mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru***

### 23 May Ekologiya və Təbii Sərvətlər Nazirliyi İşçilərinin Peşə Bayramıdır

# Təbiətin insan qayğısına həmişə ehtiyacı var

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra diqqət ayrılan sahələrdən biri də ölkənin ekoloji durumunun yaxşılaşdırılması və təbii resursların bərpası və ondan qənaətlə istifadə edilməsi olmuşdur.



Sirr deyil ki, Azərbaycan sovet hakimiyyəti illərində, daha dəqiq desək, ötən əsrin 70-ci illərinəcən əsasən neftdən savayı, həm də aqrar diyar kimi tanınırdı və bir növ ümumittifaq bostanı kimi qəbul edilirdi. Yəni kəndlilərimiz əkirdilər, becərirdilər və toplayıb SSRİ-nin müxtəlif ünvanlarına yola salırdılar. Belə sərt yanaşmalardan təbiətə də az ziyan dəymirdi. Çünki kənd təsərrüfatına yararlı yeni sahələr əksər hallarda meşələrin qırılması hesabına yaradılırdı. Əvvəlcə İkinci Dünya müharibəsi, sonralar isə kommunizm quruculuğu ilə bağlı işə düşən böyük təbliğat maşını sayəsində ekologiya arxa plana sıxışdırılmışdı.

Ekoloji problemlərin həllinə, təbiətin qorunmasına münasibət yalnız Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbər seçildikdən sonra aktual məsələyə çevrildi. Məktəblərdə, ali təhsil müəssisələrində ekoloji təbliğata üstünlük verildi və geniş kütlələr təbiətin mühafizəsinə cəlb edildi.

Müstəqillik illərində də ekologiyanın qorunması, təbiətin bərpası, yeni meşə sahələrinin salınması Ulu Öndərin üzərinə düşdü. Məhz Heydər Əliyevin 2001-ci il may ayının 23-də imzaladığı sərəncamla Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradıldı. Yeni qurumun qarşısında Azərbaycanda ətraf mühitin qorunması və bərpası ilə bağlı ciddi tələblər qoyuldu. Prezident İlham Əliyevin 16 may 2007-ci il tarixli sərəncamına görə isə hər il mayın 23-ü ölkəmizdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı kimi qeyd olunmağa başladı.

Bu gün ölkəmizdə ekologiyanın qorunması və təbiətin bərpası istiqamətində ciddi addımlar atılır. Yeni şitilliklərin və bağların hesabına ildən-ilə salınan yeni meşə sahələri artmaqdadır. İndi hamımız anlayırıq ki, bəşəriyyət sağlam yaşamaq və uzun ömür sürmək üçün yaşıllıqları qorumalı, təbiətin sağlamlığını önə çəkməlidir.

Davamlı olaraq bütün dünyada təbii fəlakətlərin artması, dənizlərin, çayların sürətlə quruması, meşələrin qırılması və səhralaşmanın artması bizi ətraf mühitə münasibətdə daha diqqətli və ehtiyatlı olmağa vadar edir. Vəziyyət o dərəcədə mürəkkəbdir ki, təbiəti qorumaq üçün mütləq hər birimizin fəal olması və təbiətə sevgi ilə yanaşması zəruridir. Atalar sözü var: "Tək əldən səs çıxmaz". Həqiqətən də, bu gün təbiətin saflığının qorunması, bir çox gözlənilən faciələrin qarşısının alınması üçün bütün ölkə vətəndaşlarının səylərinin birləşdirilməsi vacibdir.

Yaxşı yadımdadır, 50-60 il əvvəl kəndimizin içindən keçən bütün arxlar boyunca biz uşaqlar valideynlərimizlə birlikdə yığışıb qovaq ağacları əkərdik. Bunu bizə heç kim demirdi, tələb edən də yox idi. Özümüz elə bir-birimizə baxıb bəhsə gedərdik. Bir də müəllimlərimiz bizi arxalarınca çəkib aparardılar. Uzaqdan seyr edəndə dağın döşündə yamaca yayılan kəndimiz sıralanıb göylərə uzanan qovaqların yaşıllığında itib-batardı. O zaman ev tikəndə, dam bağlayanda, pərdə atanda adamlar dağa-daşa düşüb tikinti materialları axtarmırdılar. Nə dirəyə pul verərdilər, nə də meşəni qırardılar. 10-15 il əvvəl əkdiyin qovaqlardan 20-30-nu kəsib evinin üstünü bağlayırdın.

İndi isə sular azalıb, arxlar demək olar quruyub. Qovaq ağacları da qeyb olub. Sanki insanlar da bir qədər cılızlaşıblar. Kəndimiz də o kənd deyil, yeni nəsil bizə bənzəmir. Baxmayaraq ki, ekoloji tədbirlərin sayı bu gün 50-60 il əvvəlkindən daha çoxdur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# ABŞ Ermənistanı çəzalandıracaq

## "Böyük Yeddiliy"in sammitində mühüm qərarlar qəbul edilib

Mayın 19-dan 21-dək Yaponiyanın Xirosima şəhərində "Böyük Yeddiliy"in (G7) (ABŞ, Almaniya, İtaliya, Fransa, Böyük Britaniya, Yaponiya və Kanada) 49-cu sammiti keçirilib.



Tədbirə Hindistan, Avstraliya, Braziliya, Cənubi Koreya, Vyetnam və daha üç ölkə - ASEAN-a sədrlik edən İndoneziya, Sakit Okean Adaları forumunun hazırkı sədri olan Kuk Adaları və Afrika İttifaqına sədrlik edən Komor Adaları, Avropa İttifaqının nümayəndələri - Avropa Şurasının prezidenti Şarl Mişel və Avropa Komissiyasının sədri Ursula fon der Lyayen dəvət ediliblər. Sammitə dəvət alanlar sırasında həm də Ukrayna Prezidenti Vladimir Zelenski olub. O, "G7" ölkələrinin liderləri ilə görüşlər keçirib.

Sammitin əsas mövzularından biri Ukraynadakı vəziyyət olub. Daha bir önəmli məqam isə ABŞ-nin Ermənistana cəza sanksiyaları tətbiq etməsi ilə bağlıdır.

Sammitdə ölkələrin liderləri bir sıra birgə bəyanatlarla çıxış ediblər. Xüsusilə onlar Çini Ukraynadakı hərbi əməliyyatını dayandırması üçün Rusiyaya təzyiq göstərməyə, İranı Rusiyaya hərbi yardım etməməyə və silah ötürməməyə çağırıblar.

Bundan əlavə, ölkələr 2023-cü ildə dünyada yaranmış humanitar və ərzaq böhranlarının həlli üzərində işləmək barədə razılığa gəliblər. Onlar bu məqsədlər üçün 21 milyard dollardan çox vəsait ayırmaq niyyətindədirlər.

Yekunda "G7" ölkələrinin liderləri Ukraynaya hərbi, maliyyə, humanitar və diplomatik dəstək vəd edən, Rusiyanın enerji ixracından, o cümlədən nüvə enerjisi sahəsində gəlirlərini azaltmaq və Moskvaya sənaye avadanlıqları, texnologiyalarının ixracını məhdudlaşdırmaq niyyəti ilə bağlı birgə bəyanat qəbul ediblər.

Ölkə liderləri qərara gəliblər ki, münaqişədən dəyən ziyan ödənilənə qədər Rusiyanın aktivləri dondurulmuş vəziyyətdə saxlanılsın, sanksiyalardan yayınmaq üçün üçüncü ölkələrdəki Rusiya banklarının filiallarından istifadənin qarşısını almaq üçün tədbirlər görülsün, Rusiyanın beynəlxalq maliyyə sistemindən istifadəsi məhdudlaşdırılsın, Moskvanın enerji ixracından əldə etdiyi gəlirləri azaltmaq üçün addımlar davam etdirilsin, nüvə enerjisi sahəsində Rusiyadan asılılıq daha da azaldılsın.

Bundan əlavə, qanuni yolla ölkəyə gətirilə bilən malların siyahısı azaldılmalıdır. Digər diqqətçəkən və önəmli qərar ondan ibarətdir ki, ABŞ Ticarət Departamenti Ermənistan-Rusiya ilə əlaqəli olan bir sıra Hayastan şirkətlərinə qarşı "SDN" sanksiyaları tətbiq edir.

Kanada isə Rusiyanın 70-dən çox fiziki və hüquqi şəxsinə qarşı sanksiyalar hazırlayıb. Məhdudiyyətlər altına alınanlar sırasına Rusiya silahlı qüvvələrini hərbi texnologiya ilə təmin edən şirkətlərlə əlaqəli şəxslər, sanksiyalara məruz qalanların ailə üzvləri və "Kreml elitasının nümayəndələri" daxildirlər.

Ən böyük sənaye iqtisadiyyatlarının liderləri həm də Çinin xarici siyasətinə qarşı vahid cəbhə ilə çıxış etməyə söz veriblər. Eyni zamanda "G7" liderləri Pekinlə münasibətləri kəsmək istəmədiklərini açıq şəkildə bəyan ediblər.

"G7" üzvləri siyasətlərinin Çinə zərər vurmaq məqsədi daşımadığını, ölkənin iqtisadi tərəqqisinə və inkişafına mane olmağa çalışmadıqlarını, Çindən "ayrılmaq", yaxud özlərinə qapanmaq fikrində olmadıqlarını bildirərək Pekini sakitləşdirməyə çalışıblar.

Bununla belə, Qərb ölkələri Pekinə açıq şəkildə bildiriblər ki, əməkdaşlıqdan imtina etməmək daha yaxşıdır. Belə ki, beynəlxalq qaydalarla oynayan Çin bütün dünyaya fayda verə bilər.

"G7" sammiti Qərbin Rusiya ilə münaqişədə sona qədər getməyə hazır olduğunu təsdiqləyib. Bunu deyən rusiyalı politoloq Pavel Feldmanın fikrincə, Xirosimada trans-Atlantik dünyanın nümayəndələri Ukrayna böhranını sülh yolu ilə həll etməkdənsə, eskalasiyaya üstünlük veriblər. Belə ki, onlar yeni anti-Rusiya sanksiyaları elan ediblər və Ukrayna ilə "sona qədər" qalacaqlarına söz veriblər.

Növbəti, 50-ci sammit 2024-cü ildə İtaliyanın Apuliya vilayətində keçiriləcək.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Özbəkistan Prokurorluğu ilə hüquqi əməkdaşlıq uğurla davam etdirilir

Özbəkistan Respublikasında dələduzluq əməlini törətməkdə təqsirləndirilərək, 2021-ci ildən etibarən həmin dövlətin hüquq-mühafizə orqanları tərəfindən dövlətlərarası axtarışa verilmiş 1979-cu il təvəllüdlü Tacikistan Respublikasının vətəndaşı Saodat Mahmudovanın verilməsinə dair Özbəkistan Baş Prokurorluğunun vəsatəti Azərbaycan Baş Prokurorluğu tərəfindən təmin edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Saodat Mahmudova cari ilin fevral ayında ölkəmizdə müəyyən edilərək barəsində həbs qətimkan tədbiri seçilib. "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 2002-ci il 7 oktyabr tarixli Konvensiyaya əsasən, təqsirləndirilən şəxsin ekstradisiyası haqqında qərar qəbul edilərək Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Özbəkistan Respublikasının səlahiyyətli orqanlarına təhvil verilib.

# "Bakı-2023" - Azərbaycan gimnastika tarixində ilklərin qeydə alındığı Avropa çempionatı

## 2024-cü ildə qitə birinciliyinə isə Macarıstan evsahibliyi edəcək






Bakıda keçirilən Avropa çempionatı Azərbaycan gimnastika tarixində ilklərlə yadda qalıb.



AZƏRTAC xəbər verir ki, gənc bədii gimnastlardan ibarət qrup komandamız çoxnövçülükdə və beş topla yarışlarda bürünc medallar qazanıb. Böyüklərdən ibarət komandamız çoxnövçülükdə üçüncü pillədə yer alsa da, üç lent və iki topla yarışda Avropa çempionu olub. Gimnastımız Zöhrə Ağamirova isə topla yarışda bürünc mükafata layiq görülüb.

Tokio Yay Olimpiya Oyunlarının iştirakçısı, Yay Universiadasının ikiqat gümüş mükafatçısı, IV İslam Həmrəyliyi Oyunlarının qalibi Zöhrə Ağamirova Bakı gimnastika məktəbinin yetirməsi olaraq Avropa çempionatında medal qazanan ilk azərbaycanlı gimnastdır.

Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinanın üç lent və iki topla hərəkətlərin icrasında yiyələndiyi Avropa çempionluğu ölkəmizin gimnastika tarixində qrup komandamızın qitə çempionatında qazandığı ilk qızıl medaldır.

Bakıda təşkil olunan Bədii Gimnastika üzrə 39-cu Avropa Çempionatına yekun vurulub.

Çempionatın bağlanış mərasimində əvvəlcə iştirakçı ölkələrin paradı olub.

Sonra Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov Avropa Gimnastikasının bayrağını qitə qurumunun vitse-prezidenti Edvard Kolara təqdim edib. Avropa Gimnastikasının rəsmisi isə bayrağı 2024-cü ildə qitə çempionatına evsahibliyi edəcək Macarıstan nümayəndəsinə verib. Bayrağı Avropa Çempionatının Təşkilat Komitəsinin sədri Andraş Tari təhvil alıb.

Avropa Gimnastikasının vitse-prezidenti E.Kolar Bədii Gimnastika üzrə 39-cu Avropa Çempionatının yüksək təşkilatçılığına görə qurumun rəhbərliyi adından Azərbaycan Gimnastika Federasiyasına minnətdarlığını bildirib və çempionatı bağlı elan edib.

Xatırladaq ki, "Ulduz kimi parla" şüarı ilə keçirilən Avropa çempionatında 38 ölkədən 315 gimnast (böyüklər - 191, gənclər 124) mübarizə aparıb.

***"Azərbaycan"***

# Bakıda 29, bölgələrdə 25-30 dərəcə isti olacaq

Azərbaycanda mayın 23-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında yağmursuz hava şəraiti gözlənilir. Şimal küləyi gündüz cənub küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 14-18°, gündüz 24-29° isti olacaq. Atmosfer norma daxilində - 760 millimetr civə sütunu, nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz saatlarında bəzi şimal və qərb rayonlarında yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 25-30° isti, dağlarda gecə 5-10°, gündüz 13-18° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 23-28° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 10-15°, bəzi yerlərdə 18° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzurda - Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 10-15°, bəzi yerlərdə 18-20° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 23-28° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 22-27° isti, dağlarda gecə 5-10°, gündüz 17-22° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 25-30° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-16°, gündüz 22-27° isti, dağlarda gecə 13-15°, gündüz 18-23° isti olacağı proqnozlaşdırılır.

# REGİONLAR

## İşğaldan azad edilən ərazilər sürətlə internetləşdirilir



**İşğaldan azad edilmiş ərazilərin ümumi və baş planlarına, eləcə də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində rabitə xidmətlərinin təşkilinə dair Fəaliyyət Proqramı"na uyğun olaraq, ilkin mərhələdə işğaldan azad olunmuş bütün ərazilərə 1000 km magistral fiber-optik kabel və ya onun alternativi olan xətlərin layihələndirilməsi və çəkilməsi hədəflənib. Bu barədə Trend-in sorğusuna cavab olaraq "Aztelekom" MMC-dən məlumat verilib.**

Bildirilib ki, hazırda "Onlayn Azərbaycan" layihəsinin əsas tərəfdaşı olan "Aztelekom" bu prosesi sürətli şəkildə davam etdirir. Paralel olaraq hazırda işğaldan azad edilmiş və bərpa işlərinə başlanan və məskunlaşan şəhər və kəndlərdə, o cümlədən Şuşada, Ağdamda, Zəngilan rayonunun Ağalı kəndində, Tərtər rayonunun Talış kəndində fəaliyyət göstərən qurumlara və artıq məskunlaşan əhaliyə mövcud olan texniki imkanlara və tələbata uyğun olaraq telefon və internet xidmətləri göstərilir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə əlaqədar Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin qarşısında duran əsas məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərdə telekommunikasiya şəbəkələrinin qurulması və xidmətlərin, o cümlədən telefon, internet və s. təşkili və göstərilməsidir.

Adıçəkilən nazirliyin təşəbbüsü ilə mobil operatorların hazırladığı birgə plana uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə mobil rabitə şəbəkəsinin qurulması işləri də davam edir. Nazirlikdən bildirilib ki, hazırda həmin ərazilərdə 214 baza stansiyası qurulub, mobil rabitə xidmətləri təşkil olunub və bu istiqamətdə işlər davam edir. Bütün bunlar işğaldan azad edilən ərazilərdə aparılan bərpa-quruculuq işlərinin əsas tərkib hissəsidir və regionun inkişafına mühüm töhfə verəcək

Qeyd edək ki, Prezidentin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin qarşısında duran əsas məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərdə telekommunikasiya şəbəkələrinin qurulması və xidmətlərin, o cümlədən telefon, internet və s. təşkili və göstərilməsidir.

Adıçəkilən nazirliyin bu barədə yaydığı məlumatda bildirilir ki, Laçın şəhərində də "Onlayn Azərbaycan" layihəsi çərçivəsində GPON şəbəkəsinin tətbiq olunması üçün işlərin bu yaxınlarda yekunlaşacağı gözlənilir. Xidmətlərdən Laçın şəhəri ilə yanaşı, Sus və Zabux kəndləri də yararlana biləcək. Xidmətlərin konkret ünvanlara təhvil verilməsi isə tələbata uyğun olaraq planlı şəkildə icra ediləcək.

Hazırda Ağdam, Kəlbəcər, Füzuli, Cəbrayıl, Zəngilan, eləcə də işğaldan azad olunan digər şəhər və rayonlarda, kəndlərdə telekommunikasiya xidmətlərinin bərpası istiqamətində layihələndirmə, texniki şərtlərin hazırlanması, kabellərin çəkilməsi işləri planlı şəkildə həyata keçirilir.

Bu hesabla qısa vaxtda əhalinin məskunlaşma proqramına uyğun olaraq, bərpa edilən bütün yaşayış məntəqələri telekommunikasiya xidmətləri ilə təmin olunacaq.

## Samuxda şəhidlərin xatirəsini əbədiləşdirən daha bir bulaq açılmışdır

**Samux rayonunda Birinci Qarabağ və 44 günlük Vətən müharibələrində şəhid olmuş igid oğullarımızın xatirəsini əbədiləşdirmək üçün inşa edilmiş bulağın açılışı olmuşdur.**



Şəhid ailələri üzvlərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə çıxış edən Samux Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Xəlilova 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uğurlu siyasətindən, əsgər və zabitlərimizin şücaətindən, dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən qayğıkeşlikdən danışmışdır.

Sonra şəhid ailələrinin üzvləri çıxış edərək bu diqqətə görə hər kəsə minnətdarlıqlarını bildirmişlər.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## DSK: "Həm bitkiçilik, həm də heyvandarlıq məhsulları istehsalı artmışdır"



**Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, bu ilin yanvar-aprel ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 1 milyard 961, 5 milyon manat təşkil etmişdir. Bunun 1 milyard 796, 2 milyon manatı heyvandarlıq, 165,3 milyon manatı bitkiçilik məhsullarının payına düşür.**

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 3,5 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,5, bitkiçilik məhsulları üzrə 3,2 faiz artmışdır.

Ölkədə yaz-tarla işləri aparılır və bu ilin yanvar-aprel aylarında 266,8 min hektar sahədə və ya keçən ilin eyni dövrü ilə müqayisədə 12,8 faiz az yazlıq bitkilərin səpini aparılmışdır. Bu dövrdə 44 min hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (ondan 20,5 min hektarı dən üçün qarğıdalı), 45,9 min hektar sahədə kartof, 42,9 min hektar sahədə tərəvəz, 10,8 min hektar sahədə bostan bitkiləri, 72,2 min hektar sahədə pambıq, 7,7 min hektar sahədə dən üçün günəbaxan, 4,3 min hektar sahədə şəkər çuğunduru, 1,2 min hektar sahədə tütün, 36,6 min hektar sahədə çoxillik otlar, 1 min hektar sahədə birillik otlar və 0,2 min hektar sahədə digər yazlıq bitkilər əkilmişdir.

Təsərrüfatlarda 4 ay ərzində 128, 3 min ton tərəvəz və 50,3 min ton kartof istehsal olunmuşdur. Keçən ilin eyni aylarına nisbətən tərəvəz istehsalı 0,6, kartof istehsalı 9,5 faiz artmışdır.

Bu ilin yanvar-aprel aylarında quş əti də daxil olmaqla diri çəkidə 187,3 min ton ət, 697,6 min ton süd, 726,5 milyon ədəd yumurta və 2,1 min ton yun istehsal edilmişdir. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,1, süd istehsalı 1,8, yumurta istehsalı 13 faiz artmış, yun istehsalı isə 4,3 faiz azalmışdır.

*"Azərbaycan"*

## Daha 644 şəxs üçün peşə kursları təşkil edilib

### Onların əksəriyyəti regionlarda yaşayır

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən bu ay 37 peşə üzrə 57 hazırlıq kursu təşkil edilib.**

Əmək bazarının aktual istiqamətləri üzrə təşkil olunan kurslara 644 şəxs cəlb olunub. Onlardan 472 nəfəri üçün Agentliyin Bakı, Gəncə və Göyçay Peşə Hazırlığı Mərkəzlərində, 172 nəfəri üçün özəl tədris müəssisələrində peşə kursları təşkil edilib.

İşəgötürənlərlə əməkdaşlıq çərçivəsində təşkil olunan kurslarda rəqəmsal media və marketinq mütəxəssisi, insan resursları mütəxəssisi, proqramla idarə olunan dəzgahların operatoru, təchizat üzrə agent, backend developer, elektron tibbi cihazların təmiri və xidməti elektromexaniki, elektrik qaz qaynaqçısı və s. peşələr üzrə nəzəri biliklər tədris edilməklə yanaşı, müəssisələrdə təcrübə keçmək imkanı da yaradılıb.

Kursların sonunda məzunlara sertifikatlar təqdim ediləcək və onların işlə təmin olunmalarına dəstək göstəriləcək. Peşə hazırlığı müddətində müdavimlərə minimum aylıq əməkhaqqı məbləğində aylıq təqaüd də veriləcək.

**Baramaçılıq**

## İpəkqurdları dördüncü yuxudan ayılmışlar

**Son illər ölkəmizdə kənd təsərrüfatının ənənəvi və ixracyönümlü sahələrindən olan baramaçılığın inkişafı istiqamətində mühüm işlər görülür.**

Prezidentin "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 27 noyabr 2017-ci il tarixli sərəncamı bu sahənin inkişafında mühüm rol oynayır. Sözügedən sərəncamdan irəli gələn vəzifələrin icrası sayəsində Qazaxda da mühüm addımlar atılır. Rayon sakinləri baramaçılığın keçmiş şöhrətini qaytarmaq üçün bir sıra məqsədyönlü işlər görürlər. Onlar səkkizinci ildir ki, barama istehsalı ilə məşğul olurlar. Qazaxda əvvəlki illərdə olduğu kimi, cari ildə də qüvvələr səfərbərliyə alınaraq 3200 kiloqram yaş barama istehsal etmək öhdəliyi qarşıya məqsəd qoyulub. Artıq Birinci və İkinci Şıxlı, Yuxarı Salahlı, Aslanbəyli, Kəmərli, Qaymaqlı, Aşağı Salahlı, Xanlıqlar, Alpout, Dəmirçilər və Cəfərli kəndlərində barama yetişdirən kümçülərə 80 qutu ipəkqurdu toxumu təhvil verilib.



Baramaçılıqda məhsul mövsümü yaxınlaşır. Əksər kəndlərdə ipəkqurdları dördüncü yuxunu başa vurmuşlar. Bir neçə gündən sonra onlar barama sarımağa başlayacaq, kümçülər öz zəhmətinin bəhrəsini görəcəklər. Kümçülər qeyd edirlər ki, ipəkqurdu üçün ən vacib məsələ yemin normativlər əsasında verilməsi, yer sıxlığının azaldılması, havalandırmanın düzgün qurulmasıdır ki, bütün bunlara da Qazaxda əməl edilir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Belə getsə, Lənkəran kümçüləri yenə fərqlənəcəklər

**Dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən olan kənd təsərrüfatının inkişafı həm də qeyri-neft məhsullarının ixracı baxımından strateji əhəmiyyətə malikdir. Bu sırada baramaçılıq və ipəkçilik xüsusi rola sahibdir.**

Lənkəranda da qədim peşələrdən sayılan baramaçılığın inkişafı üçün bütün potensial imkanlar səfərbər olunub. Bunun sayəsində ötən il ölkədə ən yüksək nəticə göstərən Lənkəran kümçüləri cari il də işə yaxşı başlamışlar. Artıq 1 şəhər, 7 qəsəbə və 33 kəndə 50 kümçüyə ümumilikdə 230 qutu ipəkqurdu sənaye toxumu paylanmış, kümxanaların hazırlanmasında mütəxəssislər tərəfindən müvafiq təlimatlar verilmiş, ipəkqurdunun aqrotexniki qaydada bəslənməsi üçün maarifləndirici tədbirlər keçirilmişdir.

Baramaçılığın və ipəkçiliyin inkişafı üzrə nəzərdə tutulan işlərin vahid proqram əsasında həyata keçirilməsi məqsədilə hazırlanmış "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq baramaçılıqda yem bazasının gücləndirilməsi məqsədilə 2022-ci il Lənkəran rayonunda yerli şəraitə uyğunlaşdırılmış 8000 tut (çəkil) tinginin kümçülük təsərrüfatlarında və fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin torpaq sahələrində əkini təmin edilmişdir.

Lənkəranın rəhbərliyi, əlaqədar qurumların nümayəndələri tez-tez barama istehsalı ilə məşğul olan fermerlərin kümxanalarına baş çəkir, problemləri ilə maraqlanır və onların həlli üçün tədbirlər görürlər. İstisu qəsəbəsində fəaliyyət göstərən "Yaşılçay" MMC-nin rəhbəri Araz Yaqubov bu günlər təsərrüfata baş çəkən ŞİH-nin başçısı T.Qaraşova kümxanada yetişdirilən barama növü və onların saxlanılması barədə məlumat verib. Sahibkar bildirib ki, bu il məhsuldarlıq öncəki dövrlərə nisbətən daha çox olacaq. Bunun əsas səbəblərindən biri yem bazasının formalaşdırılması ilə bağlıdır. Onun sözlərinə görə, yerli şəraitə uyğunlaşdırılmış tinglər əsasında salınan çəkil bağları baramaçılıqda yem bazasını möhkəmləndirməklə ipəkqurdlarının bəslənmə dövründə daha keyfiyyətli yarpaqla yemlənməsinə imkan verir.

Sonra T.Qaraşov ərazidəki çay plantasiyasına baş çəkib, müxtəlif çay növlərinin istehsalı ilə maraqlanıb və yaradılan şəraitlə tanış olub. Yerlərdə sahibkarlığın inkişafına xüsusi diqqət göstərildiyini deyən başçı bildirib ki, özəl sektorun inkişafı yerlərdə işsizliyin minimuma endirilməsində xüsusi önəmə sahib olmaqla yanaşı, Lənkəran çayının dünyaya tanıdılmasında, turizmin inkişafında da mühüm rola malikdir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Şəmkirin kəndlərində yeni məktəb binaları tikilir

**Şəmkirdə təhsil müəssisələrinin mərhələli şəkildə müasir standartlara uyğun yenilənməsi istiqamətində işlər davam edir.**

Son vaxtlar rayonun böyük təhsil müəssisələrindən olan Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-lisey və Coşqun Abdıyev adına Zəyəm Cırdaxan kənd 2 saylı tam orta məktəb binaları yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda Zəyəm qəsəbəsində yerləşən Əhməd Cəmil adına 1 nömrəli tam orta məktəbdə əsaslı təmir-bərpa işləri aparılır. Paralel olaraq bir sıra kiçik kəndlərdə modul tipli məktəblərin inşası həyata keçirilir. Yaxın günlər Ələsgərli kəndində 96 şagirdlik yeni modul tipli məktəb binasında son tamamlama işlərinin yekunlaşması gözlənilir. Məktəbdə tədrisin yüksək səviyyədə həyata keçirilməsi üçün hər cür şərait yaradılacaq.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## Su halallıq sevir

### Sumqayıtda sudan qanunsuz istifadə hallarının qarşısı alınır

**Prezident İlham Əliyevin təsdiqlədiyi "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair" Tədbirlər Planına uyğun olaraq, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi içməli sudan qanunsuz istifadənin aşkarlanması, su itkilərinin minimuma endirilməsi və israfçılığın qarşısının alınması məqsədilə kompleks tədbirləri gücləndirib.**

Sumqayıt şəhərində keçirilən nəzarət tədbirləri nəticəsində sudan qanunsuz istifadə halları üzə çıxıb. Bakı-Quba yolunda yerləşən "Las Vegas" restoranında suyun talanması faktı aşkarlanıb. Obyekt sahibi texniki şərt almadan, müqavilə bağlamadan restorana çəkilmiş 32 millimetr diametrli boru ilə sudan qanunsuz istifadə edirmiş. Oxşar vəziyyət "Asfaltzavod" adlanan ərazidə fəaliyyət göstərən daş sexində də qeydə alınıb. Bu obyektin sahibi də texniki şərt almadan, müqavilə bağlamadan obyektinə su xətti çəkərək ondan istifadə edib. Hər iki obyektdə suyun verilməsi dayandırılıb, su çəkilişinin qanunun tələblərinə uyğun aparılması tələb olunub.

Şəhərin bir neçə küçəsində də eyni hallar aşkarlanıb. Çerkassi küçəsində yerləşən avtomobil təmiri sexinin sahibi də fərdi su xəttini özbaşına şəbəkəyə qoşub. Nəzarət tədbirləri zamanı kommersiya obyektləri ilə yanaşı, fərdi yaşayış evlərində də sudan qanunsuz istifadə halları aşkarlanıb. "Xəzər bağları" adlanan ərazidə fərdi yaşayış evlərinin tikintisi ilə məşğul olan şəxslər yaxınlıqdan keçən su şəbəkəsindən həyətlərinə qanunsuz xətlər çəkiblər. Aşkarlanmış qanunsuz birləşmələr ləğv olunub, obyekt və fərdi ev sahiblərinin diqqətinə çatdırılıb ki, içməli sudan sayğacdankənar istifadə şəbəkələrdə hidravliki rejimlərin pozulmasına, ciddi su itkisinə, həmin ərazilərdə yaşayan digər abonentlərin su təchizatının pisləşməsinə səbəb olur.

Ümumilikdə ilin əvvəlindən bəri Sumqayıtda sudan 72 qanunsuz istifadə faktı aşkarlanıb, 50-dən çox fakt araşdırılması üçün hüquq-mühafizə orqanlarına təqdim edilib.

Belə qanunsuz halların qarşısını almaq üçün tədbirlər mütəmadi davam etdiriləcək. Özbaşına çəkilmiş və sayğacdankənar xətlər ləğv ediləcək, bu əməllərə yol verən fiziki və hüquqi şəxslərə qarşı sərt nəzarət tədbirlərinin görülməsi üçün hüquq-mühafizə orqanlarına müraciət olunacaq.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Unudulmazlar

# Əbədiyyət ömürlü alim

**Görkəmli alim Bəkir Çobanzadənin məhkəməsi 20 dəqiqə çəkdi. Ömrü də qısa oldu - cəmi 44 illik bir həyat yaşadı. Amma ömür hekayəti xeyli uzundur…**

Ədəbiyyatşünas, şair, dilçi, mətnşünas alim yaşadığı illərdə genişmiqyaslı elmi və bədii yaradıcılıq fəaliyyəti göstərib. 1920-ci ildə 27 yaşında ikən filologiya elmləri doktoru elmi dərəcəsini qazanıb, iki il sonra professor adına layiq görülüb, 1934-cü ildə Azərbaycan Yazıçılar İttifaqının üzvü seçilib. Bu il alimin 130 illiyidir. O, Krımda, Tavrida vilayətinin Simferopol (Akməscit) qəzasının Qarasubazar şəhərində anadan olub. Milliyyətcə Krım tatarı olan atası Vahab cəsur, qorxmaz və qoçaq olduğuna görə el arasında ona "Qurd Vahab" deyirlərmiş.

Çoban Vahab zirək, zəhmətkeş, çalışqan olsa da, maddi imkanı çox məhdud idi. Uşaqlarına Tanrı tərəfindən bolluca istedad payı verilsə də, ailə onları oxutdurmaq gücündə deyildi. Belə ki, Bəkir uşaq yaşlarında bir mollanın evində çalışırdı. Elə ilk savadını da burada qazanır: molladan ərəb dilini öyrənir. Sonra Quranı qiraət etməyə, Şərq klassiklərinin əsərlərini oxumağa başlayır. Odur ki, kənddəki rüşdiyyə məktəbinə daxil olanda artıq xeyli biliyi vardı.

Müəllimləri Bəkirin soyadını "Çobanzadə" yazırlar. Beləcə, o dövrün sayılıb-seçilən maarifçiləri öz tərifləri ilə çoban Vahabın balaca oğlunun böyük bir dünyaya - elm, idrak, zəka dünyasına addımlamasına "vəsiqə" verirlər.

Kənddə ibtidai təhsilini başa çatdırdıqdan sonra Müsəlman Xeyriyyə Cəmiyyəti onu Türkiyəyə Qalatasaray liseyinə - Sultaniyyəyə oxumağa göndərir. 1908-1918-ci illərdə burada oxuyur. Tələbəlik illərində ilk şeirlərini, "Anan harda?" poemasını yazır. İstanbul Universiteti nəzdində olan üçillik ali kursda ərəb və fars dillərini öyrənir. Türkiyədə "Müstəqil tatar Krımı" ideyaları ilə yaşayan Tələbə Cəmiyyətinin yaradıcılarından və rəhbərlərindən olur.

Təhsilini başa vurduqdan sonra B.Çobanzadəni həyat yolları Budapeştə aparır. Doktorluq dissertasiyasını müdafiə edir. Bu illərdə Türkiyə, Krım, Orta Asiya və Rusiyanın dövri mətbuatında müxtəlif imzalarla ictimai-siyasi, elmi məqalələrini dərc etdirir.

Çobanzadə vətəninə, yəni Krıma döndükdən sonra siyasi fəaliyyətlə məşğul olmağa başlayır. O, Krımda yaşadığı müddətdə var gücü ilə xalqının müstəqilliyi, gənclərin savadlı gələcəyi uğrunda çalışır. Eyni zamanda ali məktəblərdə, elmi-tədqiqat



institutlarında çalışır. Krım Universitetinin yaradılmasında böyük rol oynayır. Həmin ali məktəbin Şərq fakültəsinin professoru kimi Krım-tatar dili və ədəbiyyatından mühazirələr oxuyur. Krım Universitetinin rektoru olur. Bu dövrdə Krım Mərkəzi İcraiyyə Komitəsinin üzvü kimi ictimai fəaliyyət də göstərir.

B.Çobanzadənin sonrakı taleyi bilavasitə Azərbaycanla bağlı olur. Bakıda yaşadığı illər Bəkir Çobanzadənin fəaliyyətinin ən qızğın və məhsuldar dövrü olur. 1925-1937-ci illərdə o burada yaşayarkən özünün qeyri-adi istedadını tam göstərir, tükənməz potensialından lazımınca istifadə edə bilir. 1924-1929-cu illərdə Azərbaycan Baş Elm İdarəsində Terminologiya Komitəsinə rəhbərlik edir. Paralel şəkildə ADU-nun (indi BDU) Şərqşünaslıq fakültəsində kafedra müdiri və sonra dekan olur. 1920-1926-cı illərdə onun gördüyü genişmiqyaslı, çoxsahəli işləri nəzərdən keçirəndə bir nəfərin bu qədər "yük"ü necə çəkdiyinə təəccüb etməmək olmur. Bakıda onu respublika rəhbərliyi, şəxsən Ruhulla Axundov özü himayə edirdi.

Belə ki, bu dövrdə görkəmli alim B.Çobanzadə Azərbaycanda Yeni Əlifba Komitəsinin sədri, Yeni Türk Əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin rəhbəri təyin edilmişdi. Orta Asiyada, Tatarıstanda, Bolqarıstan və Krımda latın əlifbasına keçidlə əlaqədar ciddi iş aparmışdı. Eyni zamanda Tavrid, Bakı, Daşkənd, Buxara ali məktəblərində türkologiyaya aid mühazirələr oxumuşdu. Bir faktı da qeyd edək ki, Bəkir Çobanzadə Azərbaycan dilçiliyinin əsasını qoyan alimlərdən biri olmuşdur.

Böyük Britaniya və Ərdəbil nüsxələri əsasında Xətai divanının müqayisəli mətnini də alim bu illərdə hazırlamışdı. 1926-cı ildə I Ümumittifaq Türkologiya Qurultayının təşkilində fəal iştirak etmişdi. Bu qurultay Azərbaycanda keçirilmiş və dünyanın ən məşhur 24 türkoloq aliminin məruzəsi dinlənilmişdi. Qurultay türk dünyasının həyatında ən əhəmiyyətli addım kimi səciyyələndirilmişdir.

Türk xalqlarının yeni əlifbaya keçməsi uğrunda fəal mübarizə aparan alim 1928-ci ildə Moskvada təlimatçı kurslarında mühazirələr də oxumuşdu.

Sovet Şərqində ilk professor və ilk dəfə öz sahəsi üzrə universitet kurslarını işləyib hazırlayan B.Çobanzadə Moskvada Şərq Xalqları İnstitutunun həqiqi üzvü seçilmişdi. 1932-ci ildə SSRİ EA Zaqafqaziya filialı Azərbaycan şöbəsinin, 1935-ci ildə SSRİ EA Azərbaycan filialının həqiqi üzvü seçilmişdi. Paris Dilçilik Cəmiyyətinin üzvü olmuşdu. Avropanın bir sıra elm xadimləri onun tədqiqatlarına istinad etmişlər. Nəzəri-filoloji irsi zəngin və çoxcəhətli olan alimin sovet Şərqində yaşayan türk xalqlarının bədii ədəbiyyatının, müasir ədəbi prosesin nəzəri problemlərinin tədqiqi və dil tarixinin yaranmasında təqdirəlayiq xidmətləri olmuşdur. O, bir sıra monoqrafik əsərlərlə yanaşı, 1932-ci ildə "Türk dilinin metodikası", "Elmi qramerin əsasları" kitablarını digər müəlliflərlə birlikdə tərtib etmişdir. Elmi məqalələri və bədii əsərləri dövri mətbuatda müntəzəm çap olunmuşdur.

B.Çobanzadəyə təzyiqlər 1930-cu ildə başlandı. Onun barəsində "İnqilab və mədəniyyət" jurnalında tənqidi məqalələr çap olundu. Bu iş kampaniya xarakteri aldı. Əslində isə, onun araşdırılmasına bir qədər də əvvəl - 1928-ci ildə başlanmışdı. Lakin heç bir tutarlı dəlil-sübutun tapılmaması bədxahlarını daha da əsəbiləşdirmişdi.

Bəkir Çobanzadənin təqibi uzun çəkir. Nə az, nə çox - 7 il onu izləyir, şərləməyə çalışırlar. 1935-ci ilin sonlarında Azərbaycan SSR-in daxili işlər üzrə xalq komissarı olan Y.D.Sumbatov-Topuridze Moskvaya hesabat verir və B.Çobanzadəni həbs etmək üçün heç bir sübutun olmadığını bildirir.

Bədxahlarının əlləri hər yerdən üzüldükdən sonra, 1937-ci ildə Bəkir Çobanzadənin Ruhulla Axundovla dostluğunu bəhanə gətirirlər.

1937-ci ilin yanvar ayının sonunda onu Kislovodskda, dincəldiyi "Qornyak" ("Mədən fəhləsi") sanatoriyasında həbs edirlər. Əvvəlcə Pyatiqorsk həbsxanasında saxlayır, sonra Bakıya gətirirlər.

Bəs Çobanzadəni nədə ittiham edirdilər? Guya, o 1924-cü ildən sonra, yəni Bakıda yaşadığı dövrdə əks-inqilabi-millətçi fəaliyyətdə olub. Əvvəla, 1926-cı ildə Krım Milli Firqəsinin Mərkəzi Komitəsi adından "Müsavat" partiyasının Mərkəzi Komitəsi ilə birgə iş barədə danışıqlar aparıb. İkincisi, Ruhulla Axundov, guya, Çobanzadə ilə sovet hökumətinə qarşı blokda əks-inqilabi-trotskiçi təşkilatla birgə işin planları barədə sövdələşiblər. Üçüncüsü isə, demə, Çobanzadə özünün ədəbi əsərlərində və mülahizələrində əks-inqilabi-millətçi ideologiyanı geniş yayıb.

Qısası, bütün bunlardan çox-çox uzaq olan alim Cinayət Məcəlləsinin 72-73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilmişdi. Həbsə qərar yanvarın 26-da verilmiş, iki gün sonra, yəni ayın 28-də onu tutmuşdular.

1937-ci il sentyabrın 1-də Bəkir Çobanzadə sonuncu dəfə (o bu müddətdə 32 dəfə dindirilmişdi) istintaq edilir. Burada o etiraf edir ki, verilən ittihamlarla bağlı günahkardır. Növbəti gün Çobanzadəyə verilən əlavə ittihamlar üzrə qərar çıxarılır. Beləliklə, guya, Çobanzadənin praktik olaraq özünün əks-inqilabi fəaliyyətində SSRİ-yə qarşı silahlı üsyana hazırlıqla bağlı fəal iş apardığı, xarici dövlətlərin kəşfiyyat orqanları ilə əlaqədə olduğu və onlara öz ölkəsi barədə vaxtaşırı məlumatlar verdiyi, Sovet İttifaqına qarşı üsyan qaldırılacağı halda terror mövqeyində dayanacağı yəqin edilmişdi. O, Azərbaycan SSR Cinayət Məcəlləsinin 21-64, 68, 70-ci maddələrində nəzərdə tutulmuş cinayətlərdə təqsirləndirilmişdi. Elə sentyabrın 2-də də Cinayət Məcəlləsinin 64, 69-1, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə B.V.Çobanzadənin təqsirləndirilməsi ilə bağlı sonuncu ittihamnamə tərtib olunmuşdu.

Sentyabrın 21-də Çobanzadə respublikanın xalq daxili işlər komissarı Sumbatov-Topuridzenin adına ərizə yazır. Bu ərizədə özünün əks-inqilabi-millətçi fəaliyyətini vurğulayır və xahiş edir ki, elmdə qazandığı nailiyyətləri nəzərə alaraq onu bağışlasınlar. Xahiş rədd edilir.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası səyyar sessiyasının bağlı məhkəmə iclası keçirilir. Müttəhim son sözündə yenə də güzəşt istəyir. Lakin bütün bunlara məhəl qoyulmur, oktyabrın 12-də güllələnməyə məhkum edilir. Bu ən ağır cəzanın növbəti gün icra olunması barədə məhkumun işinə arayış da tikilir. Bununla da görkəmli alim Bəkir Çobanzadənin hekayəti beləcə bitir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Musiqi xadimləri

# Fədakar bəstəkar

**Görkəmli bəstəkar Aqşin Əlizadə 22 may 1937-ci ilin mayında Bakıda dünyaya gəlib. Musiqiyə uşaq yaşlarından könül verməsində valideynlərinin böyük rolu olub. Onun atası Əliqulu mahir qarmon ifaçısı kimi tanınıb. Anası Bikə xanım isə pianoda musiqi əsərlərini böyük məharətlə ifa edib. Atasının ona oxuduğu şeirlər, qəzəllər Aqşin Əlizadənin yaddaşında möhkəm izlər salıb. İllər sonra həmin qəzəllərin Azərbaycan muğam sənəti üçün nə qədər vacib olduğunu dərk edib.**



## Xoşbəxtliyin başlanğıcı...

Musiqi sevgisi ilə böyüyüb. Doğma ata ocağını o, illər sonra belə xatırlayıb: "Bizim evimiz kiçik bir "Filarmoniya" idi. "Sona bülbüllər", "Apardı sellər Saranı" və başqa xalq mahnılarını lap uşaqlıqdan eşidib zümzümə etmişəm". Elə musiqi sənətinə böyük məsuliyyətlə və ciddiliklə yanaşmağı da o illərdə öyrənib. Müsahibələrindən birində "Xoşbəxtliyim ordan başlayıb ki, valideynlərim qədəm qoyduğum sənətin ciddiliyini mənə düzgün başa sala biliblər" - deyib. Aqşin Əlizadə 1943-cü ildə musiqi məktəbinə daxil olub. O zamanın tanınmış pianoçusu Azərbaycan muğamlarını dərindən bilən Zivər Əliyevadan dərs alıb. Aqşin Əlizadə olduqca ciddi və tələbkar olan ilk müəllimini böyük minnətdarlıq hissi ilə xatırlayıb. Zivər Əliyeva ona yalnız musiqi ifaçılığını öyrətməyib, eyni zamanda bu sənəti sevdirib.

Ancaq Aqşin Əlizadə sonralar uşaqlıq xatirələrindən söz açanda bildirib ki, altı yaşından anası tərəfindən musiqi məktəbinə qoyulsa da, bəstəkarlığa meyil etməsinin əsas səbəblərindən biri doqquz yaşında "Koroğlu" operasının tamaşasında Üzeyir bəy Hacıbəylini görməsi olub. Deyib ki, o günədək dahi bəstəkar barədə çox eşitmişdi. Ata-anası Üzeyir bəyi onun gözündə ilahiləşdirmişdilər. Aqşin Əlizadə sonralar Üzeyir bəy Hacıbəylini özünə ideal seçərək bəstəkarlığa meyil göstərib.

Bülbül adına Musiqi Məktəbini bitirəndə artıq arzusu bəstəkar olmaq idi. 1955-ci ildə Konservatoriyaya daxil olub. Musiqi təhsilini Cövdət Hacıyevin bəstəkarlıq sinfində davam etdirib. Amma Qara Qarayevin dərslərində də iştirak edib. Ondan da bəstəkarlıq sənəti barədə dərin məlumatlar alıb, müəllimindən bu sənəti böyük maraq və istəklə öyrənib.

Aqşin Əlizadə 1962-ci ildə Konservatoriyada Cövdət Hacıyevin bəstəkarlıq sinfini bitirib. Onun hələ tələbə ikən - 1962-ci ildə bəstələdiyi sonata Gənc Bəstəkarların I Ümumittifaq Müsabiqəsində I dərəcəli diploma layiq görülüb. Sonra yazdığı Birinci simfoniyaya görə isə "Zaqafqaziya Baharı" festivalında I diplomu alıb.

## Gənc yaşlarından bəstəkarlıq sənətində qarşısına qoyduğu məqsəd...

Yaradıcılığa başladığı ilk günlərdən qarşısına məqsəd qoyur ki, ya öz yolumu tapmalıyam, ya da geri çəkilməliyəm. Müsahibələrinin birində bu barədə danışarkən bəstəkarlığa da bir savaş kimi baxdığını söyləyib: "Bəstəkar özü-özü ilə savaş etməlidir. Əvvəla, anlamalıdır ki, bu çox ağır və müqəddəs sənətdir. Yəni sənətə heç vaxt soyuq yanaşmaq olmaz. Ona görə də sanki özün-özünlə savaş edirsən. Amma məlum deyil ki, qalib gələcəksənmi, səsləri tapa biləcəksənmi, ya yox. Əsas odur ki, sən öz üzərində daim çalışasan, özü də fədakarlıqla".

Aqşin Əlizadənin yaradıcılığı üç balet - "Babək", "Qafqaza səyahət" və "Ümid valsı" baletləri, 5 simfoniya, xor üçün "Bayatılar", "Təntənə", "Azərilər" kantatası, "Ana torpaq", "Qədim lay-lay", kamera orkestri üçün "Pastoral", "Aşıqsayağı", "Cəngi", "Kənd süitası", "Uşaq süitası", fortepiano üçün sonata, "Dastan", "Qədim oyunlar", "Portret", xoreoqrafik simfoniya, violonçel ilə orkestr üçün poema, skripka və fortepiano üçün "Portret", fortepiano üçün "Dastan" və digər əsərlərlə zəngindir.

Görkəmli bəstəkar baletlər, orkestr üçün bəstələr, kamera əsərləri, vokal-simfonik əsərlərlə yanaşı, həm də müxtəlif janrlı ekran əsərlərinə, eləcə də "Dəmir ağac", "Odla təmasda", "Nə yaxşı ki, dünyada Səməd Vurğun var", "Abşeron lövhələri" və sair sənədli, "Fitnə", "Tülkü həccə gedir", "Bulud niyə ağlayır?", "Göyçək Fatma", "Toral və Zəri" animasiya, "Qızıl qaz", "Rəqiblər", "Tütək səsi", "Üzü küləyə", "Gözlə məni", "Təkcə adanı özünlə apara bilməzsən…", "Ötən ilin son gecəsi", "Avqust gələndə", "Sizi dünyalar qədər sevirdim", "Ləqəbi İKA", "Məhkumlar" və başqa filmlərə musiqi yazıb. Aqşin Əlizadə ümumilikdə 50-dən artıq bədii və cizgi filmlərinə, tamaşaya musiqi bəstələyib.

Aqşin Əlizadə 2-ci simfoniyasına görə Azərbaycan SSR Lenin komsomolu mükafatına (1967), Azərbaycan SSR Dövlət mükafatına (1978) "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" (1982) və Xalq artisti (1987) fəxri adlarına, "Şöhrət" (1997) və "Şərəf" (2012) ordenlərinə layiq görülüb.

O, 1979-1985-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi, 1985-1990-cı illərdə birinci katibi olub.

Aqşin Əlizadə bəstəkarlıqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub. Otuz ildən artıq Bakı Musiqi Akademiyasında, Y.Məmmədəliyev adına Naxçıvan və Türkiyənin Van universitetlərində dərs deyib. O, bir çox musiqiçilər nəslinin yetişməsində böyük xidmətlər göstərib.

Azərbaycan incəsənətinin görkəmli nümayəndəsi, musiqi xəzinəmizi zənginləşdirən bəstəkar Aqşin Əlizadə 2014-cü il mayın 3-də yetmiş yeddi yaşında dünyasını dəyişib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Yeni layihələr

# Bakıda "Müasir musiqi günləri" festivalı keçirilir

## Tədbirdə altı ölkədən ifaçılar iştirak edirlər

**Bakıda Elm və Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin dəstəyi ilə ilk "Müasir musiqi günləri" festivalı keçirilir.**

Festivalın məqsədi müasir Azərbaycan bəstəkarları ilə Avropa və Amerika bəstəkarlıq məktəbləri arasında qarşılıqlı əlaqələr mövzusunu işıqlandırmaqdır.

Mayın 21-də festivalın Beynəlxalq Muğam Mərkəzində konsert proqramı ilə açılışı olub.

Konsertdən əvvəl çıxış edən Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdir müavini Sara Timurova qeyd edib ki, beş il bundan əvvəl hamımız sosial şəbəkə vasitəsilə bu cümlələri ürəyimiz sızlaya-sızlaya oxuduq: "2018-ci ilin 12-14 aprel tarixlərinə nəzərdə tutulmuş növbəti Qara Qarayev adına Beynəlxalq Müasir Musiqi Festivalı keçirilməyəcək". Bu cümlələri yazan dahi Qara Qarayevin oğlu, Azərbaycanın Xalq artisti, bəstəkar, bu festivalın bədii rəhbəri Fərəc Qarayev idi. Onun Q.Qarayevin 100-cü ildönümünə həsr olunmuş festivalın təxirə salınması haqqındakı müraciətində məyusluqla yanaşı bir ümid də vardı. Bu ümidi doğruldanlar isə dahi bəstəkarın anadan





olmasının 105-ci ildönümündə "Müasir musiqi günləri" festivalını təsis edənlər oldu: "Bütün dünyada, o cümlədən ölkəmizdə məhz bu gün yazılan musiqinin ifasına böyük ehtiyac duyulur. Bu festivalın məqsədlərindən biri də elə budur. Düşünürük ki, festival Azərbaycanda müasir bəstəkarlıq məktəbinin bir platformasına çevrilə bilər".

Bildirilib ki, festivalda yerli musiqiçilərlə yanaşı, İsveçrə, Macarıstan, Almaniya, Fransa, Rusiya və Qazaxıstandan da ifaçıların iştirakı nəzərdə tutulur. Onların arasında Avital Cohen (fleyta), Daniel Veissberq (bəstəkar), Szilard Benes (klarnet), Qleb Xoxlov (violin), Aleksandr Xubeyev (bəstəkar), Yulia Miqunova (violonçel), Andrey Yurgenson (klarnet) da var.

Eyni zamanda tanınmış macar bəstəkar G.Ligetinin (1923-2006) 100 illiyinə təsadüf edən festivalın proqramı ölkəmizdə ilk dəfə ifa olunacaq əsərlərlə zəngindir. Musiqisevərlər festival çərçivəsində G.Ligeti, G.Scelsi, K.Stockhausen, M.Feldman, B.Furrer, S.Qəni, P.Dusapin, H.Holliger, J.Cage, T.İbişov, A.Sısoyev, T.Qasımzadə, D.Veissberq, A.Qəmbərli kimi bəstəkarların əsərlərini dinləmək imkanı qazanacaqlar. Qeyd edilib ki, layihəyə mayın 25-də Nizami Kino Mərkəzində "Ligeti: portret" filminin nümayişi ilə yekun vurulacaq.

Tədbir konsert proqramı ilə davam edib.

Konsertdə Qleb Xoxlov, Nadir Zeynalov, Ümid Mustafazadə, Fatimə Nəsirli (hamısı violin), Rəna Rəhimova, Üzeyir Mahmudbəyli (hər ikisi viola), Yulia Miqunova, Ərol Rzayev (hər ikisi violonçel), Zakir Əsədov, Rəna Fərhadova (hər ikisi piano), Szilard Benes və Andrey Yurgenson (hər ikisi klarnet) çıxış ediblər.

Proqramda yerli bəstəkarlardan Tahir İbişovun "Simli kvartet", Səid Qəninin "Kaleydoskop silsiləsindən prelüd", xarici bəstəkarlardan Janis Petraşkeviçsin "Mətn və əlifba", Beat Furrerin "Lied", Salvatore Sciarrinonun "Let me die before i wake" və Georg Friedrich Haasın "2 nömrəli simli kvartet" əsərləri ifa edilib.

Qeyd edək ki, "Müasir musiqi günləri" festivalı Azərbaycanda konsert-ifaçılıq fəaliyyətindən əlavə, həm də müasir musiqi maarifçiliyi və təhsilinə hesablanmış festivaldır. Layihə çərçivəsində ustad dərsləri, məşğələlər, mühazirələr də təşkil olunacaq.

● IV Beynəlxalq Vokal Müsabiqəsi

# Qaliblər

**15-19 may 2023-cü ildə Gürcüstanın Tbilisi şəhərində keçirilən Nodar Andquladze adına IV Beynəlxalq Vokal Müsabiqəsində azərbaycanlı vokal ifaçıları 4 fərqli yaş kateqoriyasında I yerlə təltif edilmişlər.**



Qeyd etmək istərdik ki, A kateqoriyasında Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin V sinif şagirdi Fateh Abbaslı ingilis, italyan, alman və Azərbaycan dillərində fərqli janrlarda yazılan əsərləri yüksək səviyyədə ifa edərək münsiflərin diqqətini cəlb etməyi bacarmış və I yerlə təltif edilmişdir.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbələri - B kateqoriyasında Nuray İsmayılova , C kateqoriyasında Kənan Rəhmanzadə, D kateqoriyasında Adelin Öztürk Azərbaycan vokal ifaçılıq məktəbini yüksək səviyyədə təmsil edərək öz kateqoriyalarında I yerə layiq görülmüşlər.




İştirakçılarımızı müşayiət edən Azərbaycan Milli Konservatoriyasının baş müəllimi və aparıcı konsertmeysteri Svetlana Əhmədova da ən yaxşı konsertmeyster kimi təltif edilmişdir.

Vurğulamaq istərdik ki, qaliblər sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının Əməkdar artisti İlham Nəzərovun tələbələridir.

*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tender elan edir

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Bakı, Gəncə, Mingəçevir, Şəki,Şirvan şəhərlərində və Salyan, Qax, Ağsu, Ağdaş, Astara rayonlarında 1, 2 və 3 otaqlı mənzillərin satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi 85 (telefon: (012) 526-01-01 (2637)) ünvanından ala bilərlər.

**İştirak haqqı: 300 AZN**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/h: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İştirak haqqının ödənilməsi ilə bağlı bank sənədi;*
3. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(Sənədin əsli təqdim edilməlidir və ya surəti olduğu təqdirdə notarial qaydada təsdiq edilməlidir);***
4. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
5. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədəolma müddəti tender təklifinin qüvvədəolma müddətindən 30 bank günü çox olmalıdır);*
6. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. Arayışın tarixi elan verilən ayı və sonrakı dövrü əhatə etməlidir);***
7. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir, 2022-ci il üzrə);***
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
9. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
10. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
11. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
12. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
13. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
14. *Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları rəsmi sorğu vasitəsilə tender komissiyasına ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **03 iyul 2023-cü il saat 15:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **11 iyul 2023-cü il saat 15:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **12 iyul 2023-cü il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin

*Təkrar*

## Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi ümumtəhsil müəssisələrinə "Digər malların alınması" xərc maddəsi üzrə malların satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qeydiyyatdan keçdiyi ölkə (Təqdim olunması məcburidir. Dövlət reyestrindən çıxarış və VÖEN notarial qaydada təsdiq edilib, PDF formatında əlavə edilməlidit);*
- *nizamnamə (Təqdim olunması məcburidir. Notarial qaydada təsdiq edilmiş sənəd PDF formatında əlavə edilməlidir);*
- *rekvizitlər (Təqdim olunması məcburidir. Müvafiq sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təqdim olunması məcburidir. Son aldığı təsdiq olunmuş arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq edilmiş sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 01.05.2023-cü il tarixindən sonra alınmış arayış PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.05.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.05.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədəolma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 30 təqvim günü, ən geci 90 təqvim günündək icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **13.06.2023-cü il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **22.06.2023-cü il saat 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **23.06.2023-cü il saat 16:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Sabunçu Tikinti-Quraşdırma" Qapalı Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

**"Sabunçu Tikinti-Quraşdırma" Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-1.7-107-1.8-ci maddələrini rəhbər tutaraq səhmdarlarını ümumi yığıncağa dəvət edir.**

Səhmdarların ümumi yığıncağı 30 iyun 2023-cü il saat 15:00-da Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Bünyadov qəsəbəsi (Bakıxanov qəs.), ev 11 ünvanında keçiriləcəkdir.

**Səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olunma qaydası -** məsələ qanunvericiliyə əsasən icra olunduğu üçün hər hansı bir əlavə sənəd mövcud deyil.

***İdarə Heyəti***


# OXUCULARIN NƏZƏRİNƏ!




"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC açıq tender elan edir

**LOT- 1.** Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən Dendrologiya parkının yenidənqurma və abadlıq işlərinin davam etdirilməsinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: (012) 496-52-05.

**LOT 1 - 3000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWİFT: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda qeri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi tender zərfinin açıldığı gündən sonra azı 70 bank günü təşkil etməlidir;*
- *tender təklifinin 1 faizi həcmində bank təminatı;*
- *tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;*
- *müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı: 5 faiz;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə edildikdə notarial təsdiqli təqdim edilməlidir);*
- *maliyyə vəziyyəti haqqında hesabat, Mənfəət və zərər haqqında hesabat, Kapitalda dəyişiklik haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq edilməlidir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçı oxşar təyinatlı və analoji işlər sahəsində azı 3 milyon manat həcmində müqavilələr və təhvil-təslim aktları təqdim etməlidir;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *iddiaçının texniki imkanları barədə məlumat (Əsas şərtlər toplusuna əsasən);*
- *müvafiq kadr imkanları barədə məlumat (Əsas şərtlər toplusuna əsasən);*
- *sahibkarlıq subyektinin meyarını müəyyən edən sənəd;*
- *müvafiq fəaliyyət sahəsini həyata keçirmək üçün lisenziya (əlavələri ilə birlikdə);*
- *İSO 14001 (2015).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Tender komissiyasına yazılı şəkildə ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri **05 iyul 2023-cü il saat 17:00-a** və tender təkliflərini və tender təkliflərinin təminatlarını möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **17 iyul 2023-cü il saat 17:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **18 iyul 2023-cü il saat 10:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

## "Bakı memarlığı fotoəsmlərdə və açıqcalarda" adlı kitabın çap etdirilməsi üçün malların, işlərin və xidmətlərin satın alınması məqsədilə təkliflər sorğusu elan edir

**LOT - 1.** "Bakı memarlığı fotoəsmlərdə və açıqcalarda" adlı kitabın çap etdirilməsi üçün malların, işlərin və xidmətlərin satın alınması.

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: (012) 496-52-05.

**İştirak haqqı - 100,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWİFT: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda qeri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
2. *Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.*
3. *Tender təklifinin təminatı tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı.*
5. *Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.*
6. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.*
7. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.*
8. *İddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (Dövlət Statistika Komitəsindən).*
9. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.*
10. *İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə).*

İxtisas uyğunluğu sənədləri:

*a) Malgöndərənin müvafiq sahədə peşəkarlığı və təcrübəsi;*
*b) Malgöndərənin texniki imkanları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə **06.06. 2023-cü il saat 17:00-dək** Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanına (əlaqələndirici şəxs - Əhməd Məmmədov, telefon: (012) 496-52-05) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **07.06.2023-cü il saat 10:00-da** Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır.

***Tender komissiyası***


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5792**
**Sifariş 1313**

**Qiyməti 40 qəpik**